Xalqın qəzeti!

# Xalq qəzeti

№ 118 (30812) 11 iyun 2025-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


## Azərbaycanın gömrük sistemi modernləşdirilir və şəffaflaşdırılır

### Prezident İlham Əliyev Dövlət Gömrük Komitəsinin yeni binasının açılışında



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda Dövlət Gömrük Komitəsinin yeni inzibati binasının açılışında iştirak edib.**

Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov dövlətimizin başçısına yaradılan şərait barədə məlumat verdi. Bildirildi ki, ümumi sahəsi 25 min kvadratmetr olan 18 mərtəbəli binada komitənin struktur bölmələrinin əməkdaşlarının yüksək səviyyədə çalışması üçün hərtərəfli şərait yaradılıb.

Dövlət Gömrük Komitəsinin yeni inzibati binasının layihə-quraşdırma işlərində maksimum səviyyədə ən müasir texnologiyalardan istifadə olunub. Bütün layihəçilər, mühəndislər və inşaatçılar Azərbaycan vətəndaşlarıdır və ölkə universitetlərinin məzunlarıdırlar.

(ardı 2-ci səhifədə)

## Kövrək sülh və sərt silahlanma

*Gözünü tor örtmüş Ermənistan hakimiyyəti bölgəni hara sürüklədiyini düşünmür*

**Hamının sülhdən danışdığı, amma bunu deyənlərin altdan-altdan silahlandığı indiki dönəmdə gücün çox müşkülləri həll etdiyi qənaətini bölüşənlər az deyil. Müşahidə olunan kütləvi silahlanma "yarışından" geri qalmaq istəməyən, Azərbaycanla sülhdən qaçan, ipə-sapa yatmayan Ermənistan bütövlükdə, bölgənin əmin-amanlıq şəraitində yaşamasına və inkişafına əngəl olaraq qalmaqdadır.**



Bu gün "sülh sazişini imzalamağa hazırıq" deyən, əslində, sülhdən yayınan İrəvanın Fransadan, Hindistandan hansı silah-sursatı aldığı, Avropa İttifaqından və bu quruma üzv bəzi ölkələrdən nə kimi hərbi-texniki yardımları aldığı barədə dəfələrlə yazmışıq. İndi Ermənistanın yersiz tərsliyinin onu nələrdən məhrum etdiyinə qısa nəzər salmaq istərdik. Əlbəttə, burada söhbət maliyyə gəlirindən, böyük dividendlərdən deyil, sülhün əldə olunmasının gətirəcəyi siyasi imkanlardan gedir. Hakimiyyətdə qalıb-qalmayacağı məsələsi Bakı ilə sülhə gəlməkdən birbaşa asılı olan Paşinyanın başı daxildə qalmaqaldadır. Hayastanın siyasi atmosfer təzyiqini artıran amil qarşıdan gələn parlament seçkiləridir.

Nə qədər bəsit səslənsə də, bu gün Ermənistanda sülhə əsas maneə kilsədir. Doğrudur, kimsə deyə bilər ki, dünya tarixində ən qəddar hərəkətlər, cəzalar məhz din adından törədilib. O da məlumdur ki, həmin hərəkətlər mütləq şəkildə dinlə siyasətin simbiozu şəraitində həyata keçirilirdi. Amma bununla belə, hələ heç kim səmavi kitablardakı dünya dinlərinin hamısına xas olan sülhsevər müddəaları ləğv etməyib. Başqa bir məsələ geosiyasətin qanunudur ki, güclülər zəifi udmaq istədikdə və dünya "gücləri"nin strateji bölgələrə, marşrutlara və planetar logistikaya nəzarət etmək arzuları hələ də tükənmədiyi halda, qlobal miqyasda müharibələrin bitməsi ehtimalından danışmaq tezdir. Cənubi Qafqaz bu geosiyasi oyun müstəvisində istisna deyil.

ardı 5-ci səhifədə

## Medinski və "purqu" təfəkkürü

*Rusiya Prezidenti köməkçisinin Qarabağ müqayisəsinə sözardı*

**Rusiya Prezidenti Vladimir Putin 2018-ci ildə NBC telekanalına müsahibəsində çox maraqlı məqama toxunmuşdu. Daha doğrusu, Kreml rəhbəri ona ünvanlanmış sualı cavablandırarkən maksimum dərəcədə səmimi olmuşdu.**

Sual isə Putinin Rusiyada hər şeyi, o cümlədən dövlət aparatını nəzarətdə, necə deyərlər, sıxma-boğmada saxlaması, bir növ, avtoritar rejim yaratmasına eyham xarakteri daşımışdı. Rusiya lideri isə durumun fərqli olduğunu bildirərkən demişdi: "Bizim administrasiyanın iki min işçisi var. Doğrudanmı, siz elə düşünürsünüz ki, mən onların hamısını nəzarətdə saxlayıram. Budur, Peskov üzbəüz oturub. Mənim mətbuat katibimdir. O, hərdən elə absurd və mənasız söz deyir ki, mən televizora baxıb düşünürəm: Bu, nə danışır? Bunu (belə danışmağı) kim ona tapşırıb?".

ardı 4-cü səhifədə



## Gürcüstan – Aİ: "Molotov kokteyli"nə fərqli baxış



Səhifə ⇨ 7

## Əsrin çağırışlarına cavab axtarışı



Səhifə ⇨ 7

## Orta Dəhliz regional əməkdaşlığa geniş meydan açır

Səhifə ⇨ 8

## Kaliforniya Trampa qarşı?

Səhifə ⇨ 11

## Paşinyan kilsəni "dövlətsizləşdirə" biləcəkmi?




**Ermənistanda kilsə ilə iqtidar arasında qarşıdurma getdikcə güclənir. Ölkənin baş naziri Nikol Paşinyan yeni katolikos seçkiləri ilə bağlı apostol kilsəsinin ardıcıllarına müraciət edib. Müraciətdə seçkilərlə bağlı təşkilati məsələlərin həlli üçün koordinasiya qrupu yaratmaq zərurəti ön plana çəkilib.**

Paşinyan deyib ki, müqəddəs Eçmiəzdin baş iqamətgahının boşaldılması və yeni katolikos seçkilərinin təşkili üçün fəal addımlar atılmalı və hazırkı mərhələdə yuxarıda qeyd olunan gündəliklə bağlı təşkilati məsələlərin həlli üçün koordinasiya qrupu yaradılmalıdır. Müraciətdə qeyd edilib ki, koordinasiya qrupunun tərkibinə həm kişilər, həm qadınlar, həm ruhani, həm də ruhani olmayan şəxslər daxil ola bilər. "Lakin ruhanilərin, xüsusilə, monastır həyatına sadiq olanların subaylıq əhdini pozmamaları vacibdir", – deyə müraciətdə qeyd olunub.

ardı 5-ci səhifədə

## Əqidə yolçusunun "Azərbaycannaməsi"



Səhifə ⇨ 10

# Prezident İlham Əliyev Dövlət Gömrük Komitəsinin yeni binasının açılışında





(əvvəli 1-ci səhifədə)

Buradakı Hədəf Mərkəzində ölkə üzrə yük nəqliyyat vasitələrinin hərəkəti elektron xəritədə müşahidə olunur. Eyni zamanda, Xəzər dənizində gəmilərə gömrük nəzarəti və gömrük postlarına real vaxt rejimində videomüşahidə həyata keçirilir. Binada süni intellekt əsaslı risk idarəetmə sistemi və informasiya texnologiyaları infrastrukturu yaradılıb. Həmçinin burada kibertəhdidlərin kəşfiyyatı və qarşısının alınması ilə bağlı xüsusi avadanlıq yerləşdirilib. Ümumilikdə, yeni binada informasiya-kommunikasiya texnologiyaları geniş tətbiq olunub. Bu sistemlər mövcud və gələcək xidmətlərin artırılmasını nəzərdə tutub.

Binanın 5-ci mərtəbəsində 1200 kvadratmetrlik asma bağ salınıb, müxtəlif növ ağac və dekorativ gül kolları əkilib. 500 kvadratmetrlik açıq sahədə əməkdaşların





istirahəti və gəzintisi üçün guşə yaradılıb, kafe inşa olunub.

Binada gömrük xidməti əməkdaşlarının iş otaqlarından başqa 500 nəfərlik konfrans zalı, 17 iclas otağı, atıcılıq tiri, idman sahələri, yeməkxana, kafe var.

Dövlətimizin başçısı gömrük orqanları tərəfindən ayrı-ayrı vaxtlarda müsadirə olunmuş tarixi-mədəni əşyalardan ibarət muzeyə baxdı. Burada eramızdan əvvəl birinci minillikdən XX əsrin 50-ci illərinədək dünya ölkələrinin tarixini əhatə edən eksponatlar sərgilənir.

Qeyd edək ki, Şimal–Cənub və Şərq–Qərb nəqliyyat dəhlizləri üzərində yerləşən, son illərdə həyata keçirilən irimiqyaslı layihələr hesabına beynəlxalq ticarətin asan və sürətli şəkildə reallaşdırılmasında ölkəmizin əhəmiyyətli rolu nəzərə alınmaqla gömrük işinin müasir səviyyədə təşkili, bu sahədə xidmət səviyyəsinin yüksəldilməsi istiqamətində mühüm addımlar atılır. Azərbaycan Prezidentinin rəhbərliyi ilə gömrük sisteminin inkişafı istiqamətində həyata keçirilən islahatlar hesabına indi ölkəmizin gömrük xidmətində ən müasir texnologiyaların, qabaqcıl təcrübənin, elmi əsaslı layihələrin, rəqəmsal həllərin tətbiqi həyata keçirilir. Reallaşdırılan qabaqcıl texnoloji həllər gömrük əməliyyatlarının asanlaşdırılması və sürətləndirilməsi, iqtisadi təhlükəsizliyin daha etibarlı təmin olunması ilə yanaşı, şəffaflığın artırılmasına, gömrük-biznes əməkdaşlığının qarşılıqlı etimad əsasında gücləndirilməsinə, xidmət səviyyəsinin yüksəldilməsinə əlavə imkanlar yaradıb.

**AZƏRTAC**

# Azərbaycan–Pakistan ikitərəfli əməkdaşlığı məmnunluq doğurur

**İyunun 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif arasında telefon danışığı olub.**

Məhəmməd Şahbaz Şərif Prezident İlham Əliyevi və Azərbaycan xalqını müqəddəs Qurban bayramı münasibətilə təbrik edib, dövlətimizə tərəqqi və rifah arzularını çatdırıb.

Dövlətimizin başçısı da öz növbəsində Pakistanın Baş nazirini və xalqını müqəddəs Qurban bayramı münasibətilə təbrik edərək, Pakistan xalqına səadət, inkişaf və firavanlıq arzulayıb.

Azərbaycan Prezidenti və Pakistanın Baş naziri bir neçə gün əvvəl Laçında keçirilmiş ikitərəfli, həmçinin Azərbaycan–Türkiyə–Pakistan formatında üçtərəfli görüşləri və bu görüşlər əsnasında aparılmış müzakirələri məmnunluqla xatırlayaraq, bütün bunların ölkələrimiz arasında əlaqələrin inkişafına daha da təkan verdiyini qeyd ediblər.

Telefon söhbəti zamanı Azərbaycanla Pakistan arasında ikitərəfli iqtisadi, ticari, enerji, sənaye, hərbi, elm, təhsil, turizm və digər sahələrdə əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) bu ilin yayında Azərbaycanın Xankəndi şəhərində keçiriləcək Sammitinin əhəmiyyətinə toxunularaq, bu tədbirin üzv dövlətlər arasında münasibətlərin inkişafına töhfə verəcəyinə ümidvarlıq ifadə olunub.

Telefon söhbəti əsnasında qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olunub.

***Prezidentin Mətbuat Xidməti***

# Polşa Respublikasının yeni seçilmiş Prezidenti Zati-aliləri cənab Karol Navrotskiyə

**Hörmətli cənab Navrotskiy!**

Polşa Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimiyyətlə təbrik edirəm.

Azərbaycan ilə Polşa arasında dostluq və əməkdaşlıq əlaqələri xoş ənənələrə malikdir. İnanıram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq ikitərəfli münasibətlərimizin möhkəmləndirilməsi və qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığımızın genişləndirilməsi yolunda birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Polşa xalqının rifahı naminə qarşıdakı məsul fəaliyyətinizdə uğurlar arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 10 iyun 2025-ci il**

# Portuqaliya Respublikasının Prezidenti Zati-aliləri cənab Marselu Rebelu de Souzaya

**Hörmətli cənab Prezident!**

Portuqaliya Respublikasının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan ilə Portuqaliya arasında münasibətlərin xalqlarımızın mənafelərinə uyğun olaraq dostluq məcrasında inkişafı, qarşılıqlı faydalı əməkdaşlığımızın davam etdirilməsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Portuqaliya xalqına daim rifah arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 5 iyun 2025-ci il**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Əs-səlamu aleykum və rəhmətullahi və bərəkətuhu!**

**Zati-aliləri!**

Ölkənizin milli bayramı – 28 May – Müstəqillik Günü münasibətilə Sizə, Azərbaycan Hökumətinə və xalqına ən səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Mən ölkələrimiz arasında mövcud olan səmimi dostluq münasibətlərini və əməkdaşlığı yüksək qiymətləndirirəm. Əlaqələrimizin ikitərəfli əsasda, eləcə də Birləşmiş Millətlər Təşkilatı, Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində daha da inkişafına ümid edirəm.

Allah-taala Zati-alinizə möhkəm cansağlığı və xoşbəxtlik, Azərbaycan xalqına isə davamlı sülh və firavanlıq nəsib etsin!

Vəssəlamu aleykum və rəhmətullahi və bərəkətuhu.

***Hacı Həssənal BOLKİAH,***
***Bruney-Darüssalamın Sultanı***

# Keniya Prokurorluğunun direktoru Azərbaycan səfirliyində



**Keniya Dövlət Prokurorluğunun direktoru Renson İnqonqanın dəvəti ilə bu ölkədə səfərdə olan Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev iyunun 8-də həmkarı ilə birgə Azərbaycan səfirliyini ziyarət edib.**

Azərbaycanın Keniyadakı səfiri Sultan Hacıyev səfirliyin yaranma tarixindən, ötən 20 il ərzində Azərbaycan-Keniya əlaqələrinin inkişaf dinamikasından bəhs edib.

Kamran Əliyev qonaqlara ölkəmizin tarixi, zəngin mədəniyyəti, Ümummilli Lider Heydər Əliyevin siyasi irsi və xilaskarlıq missiyası barədə məlumat verib, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın son illərdə qazandığı uğurları diqqətə çatdırıb.

Renson Mulele İnqonqa azərbaycanlı həmkarının dəvəti ilə ötən il ölkəmizə etdiyi işgüzar səfərləri xatırlayıb və hazırkı səfərin Azərbaycan ilə Keniya arasında dinamik inkişaf edən əməkdaşlıq əlaqələrinə mühüm töhfə olduğunu vurğulayıb.

*XQ*

# Azərbaycan və Kanada XİN-in ilk siyasi məsləhətləşməsi



**İyunun 10-da Bakıda Azərbaycan və Kanada Xarici işlər nazirlikləri arasında ilk siyasi məsləhətləşmələr keçirilib.**

Azərbaycan nümayəndə heyətinə XİN-in Amerika İdarəsinin rəisi Esmira Cəfərova, Kanada nümayəndə heyətinə isə Xarici İşlər Nazirliyinin Şərqi Avropa və Avrasiya Departamentinin icraçı direktoru Andreas Veyçert rəhbərlik edib.

Məsləhətləşmələr zamanı iki ölkə arasında siyasi əlaqələrin inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb, davamlı siyasi dialoqun təşviqi məqsədilə qarşılıqlı səfərlər və beynəlxalq tədbirlər çərçivəsində təmasların önəmi vurğulanıb. İkitərəfli münasibətlərdə gərginlik yaradan məqamlardan və addımlardan çəkinilməsinin əhəmiyyəti diqqətə çatdırılıb.

İqtisadi sahədə əməkdaşlıq kontekstində ikitərəfli ticarət dövriyyəsinin artırılması, habelə enerji, nəqliyyat, yüksək texnologiyalar və digər sahələrdə birgə layihələrin həyata keçirilməsi imkanları müzakirə edilib.

*XQ*

# Akademik Mustafa Topçubaşovun 130 illiyinin qeyd edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

2025-ci ilin avqust ayında Azərbaycan Respublikası Elmlər Akademiyasının təsisçilərindən biri, görkəmli alim və tanınmış ictimai xadim, tibb elmləri doktoru, SSRİ Tibb Elmləri Akademiyasının həqiqi üzvü, SSRİ Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, akademik Mustafa Ağabəy oğlu Topçubaşovun anadan olmasının 130 ili tamam olur.

Akademik Mustafa Topçubaşov çoxşaxəli və dolğun fəaliyyəti ilə ziyalılığın parlaq nümunəsini yaratmış böyük nüfuza malik şəxsiyyətdir. O, Azərbaycan tibb elminə mühüm nailiyyətlər qazandırmış, tibb təhsili və səhiyyə sisteminin müasir əsaslar üzərində qurulması işinə misilsiz töhfələr vermişdir. Mustafa Topçubaşov respublikada cərrahlıq elmi məktəbinin banilərindəndir. Təbabətin müxtəlif sahələri üzrə müalicə texnologiyalarının və cərrahi problemlərin kompleks şəkildə öyrənilməsi yenilikçi alimin fundamental araşdırmalarının başlıca istiqamətlərini təşkil etmişdir. Praktiki cərrahiyyədə geniş yayılmış orijinal müalicə üsullarının tətbiqi və beynəlxalq miqyasda Azərbaycan cərrahiyyəsinin layiqincə təmsil olunması Mustafa Topçubaşovun adı ilə sıx bağlıdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycanda səhiyyənin və tibb elminin inkişafında xüsusi xidmətlərini nəzərə alaraq, akademik Mustafa Topçubaşovun anadan olmasının 130 illiyinin keçirilməsini təmin etmək məqsədilə **qərara alıram:**

**1**. Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə birlikdə akademik Mustafa Topçubaşovun 130 illiyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 10 iyun 2025-ci il**

# Baş nazir IV Daşkənd Beynəlxalq İnvestisiya Forumunda




**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Özbəkistan Respublikasına rəsmi səfəri çərçivəsində iyunun 10-da IV Daşkənd Beynəlxalq İnvestisiya Forumunda iştirak edib.**

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev forumu açaraq ölkəsinin iqtisadi və investisiya imkanları barədə məlumat verib.

Tədbirdə çıxış edən Baş nazir Ə.Əsədov Azərbaycanın iqtisadi inkişaf göstəriciləri və əlverişli investisiya mühiti haqqında danışıb. Qeyd olunub ki, 2024-cü ildə ölkəmizin iqtisadiyyatı 4,1 faiz, qeyri-neft-qaz sektoru 6,2 faiz artıb. Vurğulanıb ki, Azərbaycanın xarici borcu ÜDM-in 7 faizindən də azdır, maliyyə ehtiyatlarımız isə xarici borcumuzu 14 dəfə üstələyir.

Azərbaycanda əlverişli investisiya mühitinin yaradılması istiqamətində görülən tədbirlər barədə məlumat verən Baş nazir vergi yükünün azaldılması, inzibati maneələrin aradan qaldırılması, qanunvericilik bazasının təkmilləşdirilməsi, investorların hüquq və mənafelərinin qorunması, mülkiyyət toxunulmazlığının təmin edilməsi məqsədilə ardıcıl işlərin aparıldığını deyib.

Diqqətə çatdırılıb ki, Azərbaycanda müxtəlif istehsal sahələri üzrə ixtisaslaşmış yeddi sənaye parkı fəaliyyət göstərir. İnvestorlar üçün unikal şərtlər təklif edən Ələt azad iqtisadi zonası xüsusi qeyd edilib. “Yaradılan əlverişli investisiya mühiti xarici investorlar üçün də geniş perspektivlər açır. Bunun nəticəsidir ki, son 20 ildə iqtisadiyyatımıza 338 milyard ABŞ dollarından çox sərmayə qoyulmuşdur, bunun da yarısı birbaşa xarici investisiyadır”, – deyə Ə.Əsədov bildirib.

Eyni zamanda, Azərbaycan torpaqlarının işğaldan azad edilməsi ilə yaranmış yeni reallıqların da investisiya əməkdaşlığı üçün yaxşı imkanlar açdığı diqqətə çatdırılıb. Qeyd olunub ki, bu gün Azərbaycan bu torpaqlarda genişmiqyaslı bərpa-quruculuq işləri aparır.

Füzuli şəhərində Mirzə Uluqbəy adına tam orta məktəbin və Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin inşasına görə Özbəkistan və Qazaxıstan tərəflərinə minnətdarlıq ifadə olunub.

Nizamnamə kapitalı 500 milyon ABŞ dolları olan Azərbaycan-Özbəkistan investisiya fondu vasitəsilə aparılan səmərəli işbirliyinə toxunan Ə.Əsədov fondun xətti ilə bu gün müxtəlif sahələri əhatə edən bir sıra perspektivli layihələrin nəzərdən keçirildiyini məmnunluqla qeyd edib. Diqqətə çatdırılıb ki, əməkdaşlıq üçün digər perspektivli istiqamət alternativ enerji sahəsidir. Azərbaycanın bu sahədə genişmiqyaslı gündəliyi var. Artıq dünyanın aparıcı şirkətləri ilə birgə bir sıra iri layihələr həyata keçirilir.

Azərbaycanın Avropaya yaşıl enerji tədarükçüsü kimi də fəal inkişaf etdiyini deyən Ə.Əsədov ölkəmizin bu gün Gürcüstan, Rumıniya və Macarıstanla birgə Qara dənizin dibi ilə Avropaya yaşıl enerji dəhlizinin yaradılması layihəsi üzərində işlədiyini vurğulayıb.

Bildirilib ki, bununla yanaşı, COP29 çərçivəsində Azərbaycan, Özbəkistan və Qazaxıstanın dövlət başçıları Xəzər dənizi-Qara dəniz marşrutu ilə Avropaya yaşıl enerjinin ixracı üçün geniş imkanlar açan Saziş imzalayıblar.

Sonda Daşkənd Beynəlxalq İnvestisiya Forumunun bundan sonra da investisiya sahəsində əməkdaşlığın möhkəmləndirilməsi üçün mühüm platforma rolunu oynayacağına əminlik ifadə olunub.

***XQ***

# Əli Əsədov Daşkənddə Şavkat Mirziyoyevlə görüşüb



**Özbəkistanda rəsmi səfərdə olan Azərbaycanın Baş naziri Əli Əsədov iyunun 10-da bu ölkənin Prezidenti Şavkat Mirziyoyevlə görüşüb.**

Görüşdə Azərbaycan ilə Özbəkistan arasında dostluq və əməkdaşlıq münasibətlərinin dinamik inkişafından məmnunluq ifadə olunub, əlaqələrin müttəfiqlik səviyyəsinə çatmasının əhəmiyyəti vurğulanıb.



Nazirlər Kabinetindən bildiriblər ki, Ə.Əsədov Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını Özbəkistanın dövlət başçısına çatdırıb. Şavkat Mirziyoyev Prezident İlham Əliyevin salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını Azərbaycanın dövlət başçısına çatdırmağı xahiş edib.

İkitərəfli əməkdaşlığın qarşılıqlı maraq doğuran bir çox sahələrdə inkişaf perspektivləri müzakirə edilib.

Ə.Əsədov Özbəkistan yığmasının tarixdə ilk dəfə futbol üzrə dünya çempionatına vəsiqə qazanması münasibətilə Prezident Şavkat Mirziyoyevi təbrik edib.

***XQ***

# Ruben Vardanyanın məhkəməsində zərərçəkmişlər və varislərinin ittihamları

**Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi iyunun 10-da davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni, rus dilində tərcüməçi, habelə müdafiəsi üçün özünün seçdiyi vəkillə təmin olunub.

Hakim Zeynal Ağayev dindirmədən əvvəl məhkəmə prosesində ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

İclasın əvvəlində təqsirləndirilən Ruben Vardanyan ittiham aktının surətinin ailə üzvlərinə təqdim olunmasına dair məhkəməyə növbəti vəsatətini təqdim edib və əvvəlki iclaslarda verdiyi vəsatətlərə baxılmasını xahiş edib. Ruben Vardanyanın vəkili Avraam Berman da onun mövqeyini müdafiə edib.

Hakim Zeynal Ağayev isə bildirib ki, hazırda məhkəməyə təqdim olunan vəsatətlərə artıq əvvəlki iclaslarda baxılıb və müvafiq qərarlar qəbul edildiyindən onlar bu dəfə müzakirəyə çıxarılmır. Təqsirləndirilən Ruben Vardanyan yenidən məhkəməyə müraciət edərək təqsirləndirildiyi cinayət işi üzrə ittiham aktının rus dilinə olan tərcüməsinin Azərbaycan dili ilə uyğunluğunun ekspertiza keçirilməklə yoxlanılmasına dair növbəti vəsatətini təqdim edib.

Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramov deyib ki, təqsirləndirilən dəfələrlə eyni məzmunlu vəsatətlə təkrarən müraciət edir. Ona görə də vəsatət müzakirə predmeti olmamalıdır.

Məhkəmə qərar qəbul etmək üçün müşavirəyə gedib. Müşavirə nəticəsində qəbul edilən qərara əsasən vəsatət təmin olunmayıb.

Sonra məhkəmədə zərərçəkənlər ifadə veriblər.

Zərərçəkmişin hüquqi varisi qismində dindirilən Zavur Bədəlov övladı Cavidan Bədəlovun Kəlbəcərdə Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən açılmış atəş nəticəsində həlak olduğunu bildirib. Qədim Xəlilovun atası İlqar Xəlilov və Elnur Səmədovun atası Sədaqət Səmədov da övladlarının Kəlbəcər rayonunda düşmən tərəfindən açılmış atəş nəticəsində həlak olduqlarını deyiblər.

Hüquqi varis qismində dindirilən Niyaməddin Sadıqov övladı Ceyhun Sadıqovun, digər hüquqi varis Teyyub Əzizalıyev isə övladı Seymur Əzizalıyevin düşmənin təxribatı nəticəsində həlak olduqlarını bildiriblər. İfadə verən zərərçəkmiş şəxs Elbrus Eminov Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən atılmış minaatan mərmisinin partlaması, Baloğlan Feyzullayev isə onlara tərəf atılmış “F1” əl qumbarasının partlaması nəticəsində xəsarət aldıqlarını bildiriblər.

Zərərçəkmiş şəxs Tural Cəbiyev Xocalıda Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən atəşə tutulmaları nəticəsində güllə xəsarəti aldığını bildirib. Zərərçəkmiş şəxs Toğrul Osmanlı Xocalı istiqamətində düşmən tərəfindən atılmış qumbaranın partlaması nəticəsində qəlpə yaraları aldığını deyib. Hüseyn Hadıyev ifadəsində Xocavənd rayonunda Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən atılmış mərminin partlaması nəticəsində sağ döş qəfəsindən xəsarət aldığını bildirib.

Zərərçəkən Fərzani Nəcəfzadə isə ifadə verən zaman bildirib ki, düşmən tərəfindən snayper tüfəngindən atılmış güllənin sol çiyninə dəyməsi nəticəsində xəsarət alıb. Bundan sonra yanında olan şəxslər onun yarasına sarğı qoyarkən Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələri dron vasitəsilə onların olduğu yerə qumbara atıb. O, dövlət ittihamçısı Tərənə Məmmədovanın sualına cavabında bildirib ki, qumbaranın partlaması nəticəsində sol əlindən və sol sifət nahiyəsindən qəlpə yaraları alıb.

Fikrət Məmmədov Ağdamda Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən atılmış minaatan mərminin partlaması nəticəsində özünün və Nəsimi Məmmədovun yaralandığını söyləyib.

Zərərçəkmiş şəxs Elçin Quliyev Kəlbəcər rayonunda Ermənistan hərbçilərinin açdığı atəş nəticəsində özünün, Rəvan Rzazadənin və Emin Cəfərovun yaralandığını, Tural Cahangirovun və Ruslan Lalayevin isə həlak olduğunu söyləyib. Şükür Zeynalov ifadəsində Ağdərə istiqamətində düşmən tərəfindən açılmış atəş nəticəsində güllə yarası aldığını bildirib. Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin suallarına cavabında zərərçəkmiş şəxs atəşlər nəticəsində həlak olanların olduğunu bildirib.

Zərərçəkmiş şəxs Famil Məmmədov ifadəsində Ağdərədə olan zaman yaxınlığına düşən artilleriya mərmisinin partlaması nəticəsində qəlpə xəsarətləri aldığını deyib. Ruslan Abbasov Ağdamda Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən atılmış minaatan mərmisinin partlaması nəticəsində yaralandığını söyləyib. Ceyhun Şahnamazlı ifadəsində Xankəndidə düşmən tərəfindən drona kustar üsulla yerləşdirilmiş mərminin partlaması nəticəsində yaralandığını bildirib. Şakir Fətəliyev ifadəsində artilleriya mərmisinin partlaması nəticəsində xəsarət aldığını deyib.





Zərərçəkmiş Əmir Yusifov ifadəsində Kəlbəcərdə minaatan mərmisinin partlaması nəticəsində yaralandığını bildirib. Zərərçəkən Elgün Aslanlı ifadəsində qeyd edib ki, o, Laçın istiqamətində düşmənin təxribatına məruz qalıb. E.Aslanlı Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin sualına cavabında deyib ki, atəşlərdən yayınmaq istəyərkən atılan mərmilərdən biri onun 5 metr yaxınlığına düşərək partlayıb, nəticədə müxtəlif bədən xəsarətləri alıb. Elcan Nağıyev isə bildirib ki, Xocalıda düşmən tərəfindən atılmış “F-1” qumbarasının partlaması nəticəsində xəsarət alıb.

Zərərçəkmiş şəxs Elmir Qurbanov Ağdamda Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən atılmış minaatan mərmisinin partlaması nəticəsində özünün və digər şəxslərin yaralandığını, həmçinin hadisə zamanı bir neçə nəfərin həlak olduğunu bildirib. Zərərçəkən Nurlan Musayev dövlət ittihamçısı Vüsal Abdullayevin sualına cavabında bildirib ki, düşmənin atdığı minaatan mərmisinin partlaması nəticəsində o və daha bir neçə nəfər yaralanıb, hadisə zamanı yanında olan Ömər Şirinov isə həlak olub.

Zərərçəkən Səmran Qurbanlı isə Ağdərə istiqamətində yaralandığını deyib. Dövlət ittihamçısı Fuad Musayevin sualına cavabında bildirib ki, Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələrinin atdığı minaatan mərmisinin onun yaxınlığında partlaması nəticəsində həmin vaxt yanında olan Xəyal Canbaxışov həlak olub, o isə müxtəlif xəsarətlər alıb.

Zərərçəkmişlər – Ruslan Şıxıyev Laçında, Vüsal İbrahimov və Elgiz İsmayılzadə Ağdərədə, Pərviz Quliyev, Əhəd Xəlilzadə, Murad Xəlilov, Nəsib Ələkbərov Kəlbəcərdə Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələrinin açdıqları atəşlər nəticəsində yaralandıqlarını bildiriblər.

Məhkəmə prosesində, zərərçəkmiş şəxslərin barələrində keçirilmiş məhkəmə-tibbi ekspertizasının rəyləri də elan edilib.

Məhkəmənin növbəti iclası iyunun 17-nə təyin olunub.

***XQ***

# Zəngəzur dəhlizi – İran kimin tərəfindədir?

## *Vilayətinin qürrələnməsi və...*

**İran rəsmilərinin indiyədək Azərbaycanın 44 günlük müharibədən sonra irəli sürdüyü Zəngəzur dəhlizi ideyasına qarşı çıxdıqlarını görmüşük. Hazırda bununla bağlı mövqeyini açıqlayan ölkənin Ali dini liderinin beynəlxalq məsələlər üzrə müşaviri, keçmiş xarici işlər naziri Əli Əkbər Vilayətinin də vaxtilə sözügedən ideyanı, bir növ, süngü ilə qarşıladığı məlumdur. Ancaq hesab edirik ki, hazırda cənab Vilayəti, necə deyərlər, barıtı daha çox edib. Yazımız bu barədədir. Amma əvvəlcə Cənub qonşumuzun Zəngəzur dəhlizinə zidd mövqeyinin məğzində dayanan bəzi məqamlara nəzər salaq.**




İlk məqam regionda sərhədlərin toxunulmazlığının yolverilməzlidir. İran rəsmiləri bölgədə, xüsusən Ermənistanla sərhəddə hansısa geosiyasi dəyişikliyə, yeni dəhlizə və ya sərhəd korreksiyasına qarşıdırlar. Mövcud xüsusda üzərində dayanılmalı ikinci məqam bilavasitə İran-Ermənistan sərhədinin əhəmiyyətinin vurğulanmasıdır. İslam respublikası təmsilçiləri sərhəd toxunulmazlığını "qırmızı xətt" adlandırıblar. Onlar hesab edirlər ki, vəziyyətin dəyişməsi İranın strateji maraqlarına ziddir. Xatırladaq ki, cənab Vilayəti 2023-cü ildə qələmə aldığı məqaləsində də bunu bildirmişdi. "Yavaş-yavaş reallıqlar bəlli oldu. Naxçıvanı Azərbaycan Respublikasına bağlayan bu geniş ələqələrin arxasında məqsəd, birincisi, Ermənistanı iki yerə bölmək, ikincisi, İran və Ermənistanı bir-birindən ayırmaq, iki ölkə arasında Əhəmənilər və Parfiya imperiyaları dövründə aid olan əlaqəni kəsməkdir. Üçüncüsü, İranın xaricilə əlaqəsini məhdudlaşdıracaq və bundan sonra biz 15 ölkə ilə deyil, 14 ölkə ilə qonşu olacağıq. Nəticədə, İranın Şimali Qafqaz, Rusiya və Avropa qitəsi ilə sərbəst əlaqəsi pozulacaq".

Daha bir məqam regional sabitliyin pozulması riski ilə bağlıdır. İran tərəfi dəhliz layihəsinin bölgədə yeni qarşıdurmalara və xarici müdaxilələrə yol aça biləcəyindən narahatlığını ifadə edib. Yeri gəlmişkən, vaxtilə, yəni iki il əvvəl cənab Vilayətinin bununla əlaqədar anti-Türkiyə motivli fikirləri olub: "Hazırda Ukrayna müharibəsinin qızğın çağında özünü Rusiyaya yaxın kimi təqdim edən Türkiyənin siyasətində daha bir dəyişiklik tərzinin şahidi oluruq. Türkiyənin İsveçin NATO-ya üzvlüyünü təsdiqləməyə razı olduğu artıq bəllidir. Eyni zamanda, Azov döyüşçülərinin bir qismini Ukraynaya verdi. Bu mövqe dəyişikliyi baş verdiyi dönəmdə isə başqa bir hadisə diqqəti çəkməyə başlayıb. Bu da Türkiyə ilə Azərbaycanı birləşdirəcək Zəngəzur dəhlizi məsələsi aktiv şəkildə gündəmə oturub".

Növbəti vurğulanmalı məqam İranın həmişə bölgədə Türkiyənin və Azərbaycanın roluna ehtiyatla yanaşmasıdır. İran bəzi hallarda açıq şəkildə bildirir ki, Türkiyə və Azərbaycanın dəhliz təşəbbüsləri Cənubi Qafqazda balansı poza bilər. Hətta, Vilayəti bu məsələni "böyük geosiyasi oyun" kimi də dəyərləndirib və əslində, onun indi ölkəsinin "Tasnim" İnformasiya Agentliyinə verdiyi müsahibədə vurğuladıqlarını əvvəlki mövqeyinin təkrarı olaraq qiymətləndirmək mümkündür. Ancaq bir qədər fərqli formada. Fərq nədədir, onu yazının sonunda bildirəcəyik.

Beləliklə, cənab Vilayəti deyib ki, Zəngəzur dəhlizi layihəsi regionun bütövlüyünə və Tehranın strateji maraqlarına təhlükə yaradırdı: "O dəhlizin yaradılması adı altında, guya Naxçıvanı Ermənistan əraziləri vasitəsilə Azərbaycanın əsas hissəsi ilə birləşdirmək planı gerçəkdə regionun parçalanması və İranın Avropaya quru çıxışının bloklanması ssenarisi idi".

Əlbəttə, cənab Vilayəti kimi təcrübəli şəxsin diplomatiyanın dili ilə deyil, konspriologiyanın diktəsi ilə fikir bildirməsi həm təəccüblüdür, həm də təəssüf doğurur. Görəsən, Tehran rəsmisinin yadına nəyi salaq? Çox da uzaq keçmişə ekskurs ehtiyacı yoxdur. Sadəcə, sual edək: sabiq SSRİ zamanında İran-Ermənistan yolu işləyirdimi? Xeyr! Vilayətinin təbirincə desək, Əhəmənilər və Parfiya imperiyaları dövrünə aid olan əlaqə harda qalmışdı?! İran buna qarşı çıxa bilmişdimi? Yox! Bəs SSRİ-nin süqutundan sonra İran-Ermənistan yolu necə işlədi? Bəlkə, o yol, həqiqətən, böyük dividend gətirdi?

Azərbaycan torpaqları otuz ilə yaxın müddətdə işğalda qaldı. Bu, regionda sərhədləri dəyişdirmək istəyi, avantürist niyyət deyildimi? İrana buna qarşı çıxdımı? Xeyr! Ölkənin qazancı nə oldu? Ermənistana bağlı separatçılar ərazilərimizi narkotik plantasiyalar düzəninə, narkotrafik məkanına çevirdilər. Nə deyək, inana bilmərik ki, İranın narkotik işi ilə yaxından-uzaqdan hansısa əlaqəsi olsun. Çünki İslam respublikasıdır. Loru dildə desək, günah məsələlər onluq deyil. Elə isə Qarabağın Azərbaycanın nəzarətinə keçməsini İranın strateji maraqlarına zərbə kimi qiymətləndirənlərin də yumşaq desək, səfeh olduqlarını vurğulayaq...

Bəli, İran müsəlman Azərbaycanının ərazisinin erməni işğalına məruz qalmasına göz yummuş qonşu və müsəlman ölkədir. O ölkə ki, özünün regional iddiaları var. Yeri gəlmişkən, Azərbaycan həmin iddiaların mövcudluğu reallığını qəbul edib və həmişə də belə olub. Ölkəmiz İrana qarşı qlobal koalisiyalarda yer almayıb. Halbuki sırf işğal amili səbəbindən, daha doğrusu, təcavüzü aradan qaldırmaq, öz haqqına çatmaq naminə buna gedə bilərdi. Ancaq Bakı dəyər və prinsipləri gözləməyə üstünlük verib.

Ümumən, ölkəmiz müstəqillik dövründə hər zaman balanslı siyasət yeridib, qonşularının maraq və mənafelərini nəzərə alıb, heç bir avantürist oyunlarda olmayıb. Məhz buna görə də cənab Vilayətinin söylədikləri qəribə gəlir. Həm də ona görə qəribə gəlir ki, Ermənistanın 44 günlük müharibəyə rəvac verməsinin özü də regiondakı sərhədləri dəyişdirmək niyyətinə hesablanmış əməl idi. Özü də İranı bəyənməyən Qərbin əməli. Bu gün də Qərb dünyası Ermənistan üzərində oyunlar qurmaqda israrlıdır. Görəsən, cənab Vilayətini Azərbaycan-Ermənistan şərti sərhədinin Ermənistan tərəfində Avropa İttifaqının mülki müşahidə missiyasının keşik çəkməsi heçmi narahat etmir?..

Nə isə, Ə.Vilayəti onu da bildirib ki, guya ABŞ-ın sabiq Prezidenti Co Bayden Zəngəzur dəhlizinin işə salınması üçün infrastruktur və siyasi əsasların artıq hazır olduğunu qəbul etmişdi. Məhz Tehranın, heç bir şəkildə Moskvaya arxalanmayan, sərt mövqeyi layihənin reallaşmasına imkan verməyib. Görəsən, cənab Vilayətinin Bayden-Blinken administrasiyasının anti-Azərbaycan yönümlü fəaliyyətindən xəbəri olmayıb? Həmin administrasiyanın Ceyms Obrayn adlı təmsilçisi var idi. Birləşmiş Ştatların Dövlət Departamenti rəhbərinin köməkçisi statusunda olan bu şəxs Azərbaycanı ittiham etmişdi. Əlbəttə, onun ittihamı Azərbaycanın Naxçıvana yolun "Azərbaycandan Azərbaycana yol" kimi fəaliyyət göstərməsi baxışından qaynaqlanmışdı. Ancaq burada bir incəlik var idi.

Məlum olduğu kimi, Ermənistan Azərbaycanın Naxçıvana yolun maneəsizliyi – heç bir gömrük və sərhəd nəzarəti olmadan fəaliyyət göstərməsi ilə razılaşmırdı. O zaman ölkəmiz Naxçıvana yolun İrandan keçməsi üzərində dayandı və bu mövqe indi də aktuallığını qoruyur. Başlıca məqam isə onda idi ki, Bayden administrasiyası Obraynın dili ilə Azərbaycan məhz İran variantına üstünlük verdiyi üçün hədələmişdi. Hər halda, cənab Vilayətinin məsələdən xəbərsizliyi mümkünsüzdür. Elə isə onun indi bildirdiyi nədir?

Digər tərəfdən, həmin Bayden administrasiyası idi ki, Ermənistanı əlinə düşən hər fürsətdə qoruyurdu. Görəsən, nə üçün İran bu ilin yanvarında, yəni Trampın prezidentlik vəzifəsinin icrasına cəmi 6 gün qaldığı bir müddətdə imzalanmış ABŞ-Ermənistan Strateji Tərəfdaşlıq Xartiyasına reaksiya vermirdi? O xartiya icra olunsa, Ermənistan üçün İran qonşu statusunda qalacaqmı? Təbii ki, yox!

Əlqərəz, cənab Vilayəti, eyni zamanda, vurğulayıb ki, Zəngəzur dəhlizi ideyasında söhbət sadəcə nəqliyyat dəhlizindən getmir. Məqsəd İranın Cənubi Qafqazdan sıxışdırılması, Rusiyanın cənubdan mühasirəyə alınmasıdır və bu, genişmiqyaslı geosiyasi oyundur. Əlbəttə, razıyıq ki, Qərbin regionda Rusiyaya qarşı ikinci cəbhə açmaq planları olub və var. Bunu Gürcüstanda da gerçəkləşdirmək niyyətlərini ölkədə ötən il keçirilmiş parlament seçkiləri zamanı yaxşı gördük.

Onu da yaxşı başa düşürük ki, Cənubi Qafqazda anti-Rusiya davranışları anti-İran perspektivinə söykənir. Təəccüblü məqam İranın Qərbin Ermənistan kimi ruporunu bir kənara qoyub Azərbaycana və Türkiyəyə köklənməsidir. Bu köklənmə köhnə klişeləri gündəmə gətirməkdən başqa bir şey deyil. Vilayətinin söylədiklərinə mövcud bu prizmadan yanaşmaq mümkündür: "İranın bölgədəki varlığı təkcə milli təhlükəsizlik məsələsi deyil. Bu, xarici müdaxilələrin, o cümlədən NATO-nun genişlənməsinin qarşısını alan strateji sipərdir. Cənubi Qafqazdakı fəaliyyətimiz regionun sabitliyinə töhfədir".

Sonda gələk haqqında söz açdığımız fərq məsələsinə. Yəni, cənab Vilayətinin timsalında İranın Zəngəzur dəhlizinə qarşı dirənişinin əvvəlki illərdəkindən fərqli seqmentinə. Deməli, cənab müşavirin sözlərindən belə çıxdı ki, sən demə, Zəngəzur dəhlizi də NATO planı imiş. Vilayətinin fikrincə, planın iflasa uğraması açıq məsajdır - Tehran regionda suverenliyə, güc balansına və kommunikasiya azadlığına təhdid yaradan heç bir layihənin həyata keçməsinə imkan verməyəcəyini göstəribmiş. "Biz baş verənlərin mahiyyətini vaxtında anladıq və bu planın həyata keçməsinin qarşısını aldıq", - deyən İran rəsmisinin sözlərinə görə, İslam respublikası siyasi, hərbi və diplomatik baxımdan heç vaxt olmadığı qədər güclüdür və Zəngəzur dəhlizinə maneçilik törətmək də bu gücün nəticəsində imiş.

Bəli, cənab Vilayətinin İranın Zəngəzur dəhlizi məntiqinə meydan tanımayan ölkə olmasını açıq şəkildə bəyan edib qürrələnirmiş kimi fikir bildirməyi, ümumən, Orta Dəhliz ideyasına qarşı demarşdır. Vilayətinin Qərb və NATO təhlükəsini önləməklə bağlı dedikləri isə keçmişin daxili auditoriyaya hesablanmış klişelərini təzələməkdən, mənasız konspriologiyadan başqa bir şey deyil. Mövcud dolaşıq labirintdə İranın "körpüləri yandıran" leksikona keçməsi düşündürücüdür. Hər halda, bu yazıda Orta Dəhlizin mahiyyətini, xüsusən, Çinin maraqlarını vurğulamağa ehtiyac duymuruq. Onu da demək istəmirik ki, Tehranın Pekinə meydan oxuyacaq potensialı ola bilməz. Çünki Qərbpərəst Ermənistanın Zəngəzur dəhlizinə müqaviməti reallığını nəzərə alsaq, ortaya daha böyük suallar çıxır: İran kimin tərəfindədir? Bəlkə, pisləndiyi Qərbin? Bəlkə, Vilayəti iz azdırmaqla məşğuldur?

***Ə.RÜSTƏMOV***
***XQ***

---

# Medinski və "purqu" təfəkkürü



(əvvəli 1-ci səhifədə)

Qeyd edək ki, Putin sözügedən müsahibəsində Peskovun bəzən absurd fikirlər səsləndirdiyinə dair düşüncəsini "purqu" ifadəsi ilə diqqətə çatdırmışdı. "Гнать пургу" rus dilindən birbaşa tərcümədə "qar fırtınası yaratmaq" kimi səslənsə də, əslində, boş və absurd fikir bildirmək anlamı daşıyır. Tam əminliklə deyə bilərik ki, Rusiya Prezidentinin köməkçisi Vladimir Medinskinin söylədiklərinə də eyni prizmadan yanaşmaq mümkündür. Çox guman, cənab Putin müşahidə təcrübəsinə əsasən vaxtilə Peskov barədə dediklərini indi Medinskiyə münasibətdə də dilə gətirə bilər. Ancaq Rusiya liderinin səmimiyyət damarının tutacağına, onun nə zamansa köməkçisini məzəmmət edəcəyinə ümid bəsləyə bilmərik. Ona görə Azərbaycan dövlətinin yanaşması konkret və adekvatdır.

"Təəssüf ki, Rusiya Prezidentinin köməkçisi Rusiya Ukrayna müharibəsini Qarabağda mövcud olmuş vəziyyətlə müqayisə edir. Azərbaycan heç zaman heç bir ölkənin ərazi bütövlüyünü pozmadığına görə və heç bir ölkəyə qarşı aqressiv müharibə aparmadığına belə müqayisə yersizdir". Bu fikirlər ölkəmizin Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin V.Medinskinin "Russia Today" telekanalına iyunun 9-da verdiyi müsahibəsi zamanı bildirdiklərinə cavabın bir parçasıdır. Cənab Hacızadənin başqa hansı məqamları qabartdığından söz açacağıq. Hələlik isə...

Əlbəttə, Putinin 2018-ci ildə "Miraparyadok 2018" sənədli filmində yayımlanmış jurnalist Vladamir Solovyovla müsahibəsində "Rusiyanın olmadığı dünya bizim nəyimizə lazımdır?" şəklində ritorik sual verdiyini bilirik. Nəzərə alaq ki, bu fikirdə daha çox ölkənin milli maraq və mənafelərinin qorunması əzmi var. Yəni Putinin mesajı şantaj yox, eyham kimi səslənir və dünyanın anti-Rusiya köklənişindəki müxtəlif boz çalarların mövcudluğu səbəbindən belə bir eyhama bəraət var. Yəni Kreml rəhbəri beynəlxalq aləmi ölkəsinə münasibətdə həssas davranmağa, "qırmızı cizgiləri" aşmamağa çağırır. Bəs Medinski nə etmək istəyir? Ortada olan onun Roma Papasından daha çox katolikliyə can atmasıdır. Görəsən, diplomat Rusiya-Ukrayna müharibəsinin qlobal görkəmini vurğulamaq üçün "nəhəng Qarabağ"dan başqa müqayisə tapa bilmədimi?

Bəli, Medinskinin Qarabağı mübahisəli ərazi kimi təqdim etməsinin heç bir bəraəti yoxdur və ola bilməz. Ən azından ona görə ki, beynəlxalq hüquq var və beynəlxalq hüquqa görə, Qarabağ və Ermənistanın otuz ilə yaxın işğal altında saxladığı digər ərazilər Azərbaycana məxsus olub və məxsusdur. Bunu Rusiyanın ali rəhbərliyində də yaxşı bilirlər. Məsələn, Putin 2020-ci ilin noyabrın sonlarına doğru "Rossiya" telekanalında yayımlanan "Moskva. Kreml. Putin" teleproqramında Moskvanın Qarabağ münaqişəsinə münasibətindən danışıb və mövqeyini dəqiq şəkildə ifadə edib. "Qarabağın, o cümlədən Ermənistan tərəfindən də tanınmaması faktının özü hadisələrin gedişatına və onun qavranılmasına əhəmiyyətli dərəcədə təsir göstərirdi", – deyən Putin Rusiyanın vaxtilə Cənubi Osetiyanı və Abxaziyanı tanıdığını xatırlatmış, bunun həmin ərazilərdə yaşayan insanların və bütövlükdə Rusiyanın maraqları naminə edildiyini, Qarabağla bağlı belə bir durumun olmamasının bütün hadisələrə əhəmiyyətli dərəcədə təsir etdiyini vurğulamışdı: "Heç kim, hətta Ermənistan belə Qarabağın müstəqilliyini tanımayıb. Bu, nə deməkdir beynəlxalq hüquq baxımından? O deməkdir ki, Azərbaycan özünə məxsus hesab etdiyi əraziləri qaytarırdı. Həmçinin, bu əraziləri bütün dünya ictimaiyyəti Azərbaycan ərazisi kimi qəbul edirdi".

Cənab Medinskinin diqqətinə Putinin 2020-ci ilin dekabrında illik mətbuat konfransı zamanı TASS-ın sualına cavabını da çatdıra bilərik. "Beynəlxalq-hüquqi baxımdan, mən də bu barədə danışmışam — bu ərazilərin hamısı Azərbaycan Respublikasının ayrılmaz hissəsidir" – deyən Rusiya lideri əlavə etmişdi ki, "Ermənistanın özü belə Dağlıq Qarabağın müstəqilliyini tanımayıb və bu faktı nəzərə alaraq, Dağlıq Qarabağ da beynəlxalq hüquq baxımından Azərbaycandır".

Əlbəttə, Rusiyanın beynəlxalq hüquqa öz yanaşmasının olduğunu yaxşı bilirik. Heç şübhəsiz, diqqətə çatdırdığımız iqtibaslarda da bunu gördünüz. Yəni, Putinin istər Cənubi Osetiyadan və Abxaziyadan söz açması, istərsə də Ermənistanın özünün qondarma "Dağlıq Qarabağ Respublikası"nı tanımadığına dair fikir bildirməsi, loru dildə desək, əl yeri qoymaqdır. Axı Rusiyanın "erməni sevdasının" bütün beynəlxalq hüquq normalarını ikinci plana atmaq əzmindən xəbərdarıq.

Ancaq cənab Medinskinin rahat olması üçün növbəti məqamdan söz açaq. Daha doğrusu, Azərbaycan XİN rəsmisi A.Hacızadənin onun dediklərinə münasibətindən bir fikri diqqətə çatdıraq: "Azərbaycan heç zaman heç bir ölkənin ərazi bütövlüyünü pozmadığına görə və heç bir ölkəyə qarşı aqressiv müharibə apardığına görə belə müqayisə yersizdir. Azərbaycan 2020-ci və 2023-cü illərdə öz suveren və beynəlxalq birlik tərəfindən tanınmış ərazilərində Vətən müharibəsi və antiterror tədbirləri həyata keçirib. 44 günlük Vətən müharibəsi və 1 gündən az olaraq davam etmiş 2023-cü il antiterror tədbirləri Azərbaycanın tam qələbəsi və Ermənistanın məğlubiyyəti ilə nəticələnib və beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq Ermənistanın işğalına son qoyulub".

Belə qənaətə gəlmək mümkündür ki, Qarabağ münaqişəsi ilə Ukraynadakı vəziyyət arasında yalnız bir oxşarlıq var. Söhbət hər iki halda ortada işğal faktının mövcudluğundan gedir. Elə Cənubi Osetiya və Abxaziya da Rusiyanın işğal etdiyi ərazilərdir və onlar beynəlxalq hüquqla Gürcüstana məxsusdur. Yəni, reallıqlar və ədalət interpreativ yanaşmaların, siyasi manipulyasiyaların üzərində dayanır. Heç şübhəsiz, Qarabağda olduğu kimi, bu bölələrdə də haqq öz yerini tutacaq.

Sonda isə cənab Medinskinin həm də Rusiyanın Tarix Təhsili üzrə Qurumlararası Komissiyasının sədri olması faktı üzərində dayanaq. Dayanaq və bildirək ki, Rusiya iki yüz il əvvəl erməni varlığının Cənubi Qafqaza köçürülməsini həyata keçirməklə, bu qövmü bəlaya çevirməklə bölgədə təkcə ərazi mübahisəsinin deyil, həmçinin, tarixi düşmənçiliyin, ziddiyyətlərin və təfriqələrin əsasını qoymuşdu. Ölkəmiz 44 günlük müharibə və lokal xarakterli antiterror tədbirləri ilə təkcə özünün olanını özünə qaytarmadı, eyni zamanda, Rusiyanın vaxtilə həyata keçirdiyi imperialist siyasətin məhsulu olan "erməni kitabını" bağladı, böyük ədalətsizliyi aradan qaldırdı. Özü də birdəfəlik. Yəni, yaxşı olar ki, Medinski "purquologiya" ilə məşğul olmasın.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Kövrək sülh və sərt silahlanma

(əvvəli 1-ci səhifədə)

*

...Beləliklə, modernləşdirilmiş təyyarələrin saysız-hesabsız döyüş əməliyyatları, ən müasir, dağıdıcı gücə malik raket buraxılışları həyata keçirilir ki, bu da minlərlə günahsız qurbanlara səbəb olur. Bəli, bu gün planetdə baş verənləri Maltusun məşhur nəzəriyyəsinin reallaşmasının məxrəcinə qədər azaltmaq olar. Yəni, dünya əhalisinin sürətlə artması, qidanın tədricən azalması sonda insanlığın məhvinə gətirib çıxara bilər. Bu yaxınlarda “Time” jurnalının köşə yazarlarından biri “Maltus nəzəriyyəsi”nə haqq qazandırıb, hətta onu peyğəmbər adlandırıb.

Amma düzünü demək lazımdır ki, dünyada silah biznesinə yatırılan milyardlarla dollar maliyyənin dörddə biri ərzaq təhlükəsizliyi sahəsinə yönəldilsəydi, müsbət nəticələr əldə etmək olardı. O zaman dünyanın müxtəlif yerlərində içməli su problemi və ya buzlaqların əriməsi təhlükəsi öz həllini tapardı. Amma nə yazıq ki, ölkələr, təşkilatlar və çoxlu insanlar məqsədlərinə çatmaq üçün istənilən üsuldan istifadə edərək “metal uğrunda mübarizəni” davam etdirirlər. Təəssüflər olsun ki, məhz bu yanaşma öz xalqının yaradıcılıq potensialını səmimiyyətlə reallaşdırmaq istəyən ayrı-ayrı dövlətləri, sözün əsl mənasında, təkcə dinc təşəbbüslər kontekstində deyil, başqa addımlara da sövq edir.

Prezident İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, Azərbaycan həmişə sülhün tərəfdarı və regionda sülh təşəbbüslərinin müəllifi olub, Cənubi Qafqazı əməkdaşlıq məkanına çevirmək istəyir. Lakin dövlət başçısının qeyd etdiyi kimi, Ermənistanın kütləvi silahlanmasını nəzərə alan Bakı cari ildə hərbi xərclərini xeyli artırmağa məcbur olub. (Cənubi Qafqazda Ermənistanın başlatdığı silahlanma yarışında geri qalmağın mümkünsüzlüyünə görə - red.). Bunlar olmasaydı, dövlət başçımızın dediyinə görə, müdafiəyə ayrılan büdcə vəsaitinin yarısı, digər məsələlərlə yanaşı, Qarabağın və Şərqi Zəngəzurun bərpasına yönəldiləcəkdi. Prezident İlham Əliyevin açıqladığı kimi, 2025-ci ildə bu regionların inkişafına 4 milyard manat vəsait ayrılıbsa, büdcənin 8,4 milyard manatı hərbi xərclərə yönəldilib. Baxmayaraq ki, onun sözlərinə görə, “hər şey tam əksinə ola bilərdi, amma Ermənistan və onun arxasında duran ölkələr ona pis məsləhətlər verərək, buna imkan vermirlər”. Büdcə vəsaitinin quruculuğa deyil, silahlanmaya xərclənməsinin səbəbi Ermənistan hakimiyyətinin hələ də davam edən yarıtmaz siyasətidir...

***

Beləliklə, göründüyü kimi, qlobal hərbi paradiqma öz mövqelərini gücləndirməkdə davam edir, “plankasını” inamla yuxarıda saxlayır. Amma bütün bunlarla yanaşı, Azərbaycan kimi ölkələrin təcrübəsi kifayət qədər aydın göstərir ki, bir ölkənin, hətta öz hərbi potensialını artırmağa məcbur olan dövlətin siyasəti, eyni vaxtda sülhpərvər proqramların həyata keçirilməsinə də yönələ bilər. Buna ədəbiyyatda olduğu kimi, diplomatiyada da “yaradıcı yanaşma” deyilir. Əlbəttə ki, bu yanaşma xalqın arzularını həyata keçirmək baxımından perspektivlidir. Buna görə də, dünyanın “silah elitası”nın gec-tez silahlanma yarışında qaliblərin olmayacağını anlamağa başlayacağına ümid etməsi qalır.

Necə deyərlər, pisdən daha pisə doğru yuvarlanan Ermənistanın sonda hansı quyuya düşəcəyi kənardan aydın görünür. Fəqət, özləri bunu görmək istəmirlər. Əgər bu gün Ermənistanda depopulyasiya prosesi gedirsə, bizdə, əksinə, əhali ildən-ilə artır. Bu, həm də düzgün qurulmuş siyasətin, deməli, inkişafın göstəricisidir. İndi Azərbaycana kövrək də olsa, sülh lazımdır. Doğrudur, onun kövrəkliyinin incəliyini İrəvan anlamır, ya da anlamaq istəmir. Amma Bakı bu sülhü daha etibarlı və uzunömürlü etməkdən ötrü əlindən gələn hər şeyi edir.

***İmran BƏDİRXANLI***
***XQ***



## Ekspert rəyi



**Fərhad MƏMMƏDOV,**
**politoloq**

– Bu gün hərbi xərclərin digər sahələrə ayırmaları üstələməsi heç də qeyri-adi hadisə sayılmır. Dünyanın əksər ölkələrində hərbi xərclərin artımı ilə müşayiət olunan trend yaranıb. Çünki beynəlxalq hüququn zəiflədiyi indiki dönəmdə təhlükəsizlik məsələsi hərbi quruculuqla birbaşa bağlılıq təşkil edir. İkinci məsələ ondadır ki, bölgəmizə həm Şimal, həm Cənub, həm də Yaxın Şərq istiqamətlərindən müdaxilə ehtimalı hələ də var. Yəni, hazırda sadaladığımız bölgələrdə fəal hərbi münaqişələr davam edir. Belə olan təqdirdə regionun qonşu ölkələri özlərinin təhlükəsizlikləri ilə bağlı reallığın tələb etdiyi müvafiq addımları atmaq məcburiyyətində qalıblar.

Cənubi Qafqaz regionundan danışsaq, qeyd etməliyik ki, bölgədə qarşılıqlı münasibətlər hələ sistemli formaya düşməyib. Konkret olaraq, Ermənistanla sülh sazişi imzalanmayıb və qonşu ölkədə revanşist qüvvələrin mövcudluğu heç kəsə sirr deyil. Digər tərəfdən, həmin qüvvələrdən üçüncü dövlətlər tərəfindən istifadə olunması da danılmaz faktdır. Məhz bu səbəbdən Azərbaycanın öz təhlükəsizliyi ilə bağlı hərbi xərcləri artırması, ilk növbədə, gələcəkdə güman edilən münaqişələrin, silahlı qarşıdurmaların qarşısını almağa hesablanıb.

Yeri gəlmişkən, mayın sonlarında İrəvanda keçirilən diplomatik forumda yaşanan ən gərgin anlardan biri Ermənistanın Avropa Sülh Fondundan aldığı 20 milyon avro ilə bağlı məsələ oldu. Moderator bu mövzunu qəsdən gündəmə gətirərək vəsaitin guya “erməni xalqı üçün xəstəxanaların inşasına” ayrıldığını iddia etdi. Amma Macarıstanın xarici işlər naziri Peter Siyarto bu yalanı dərhal təkzib edərək vəsaitin Ermənistan ordusuna ayrıldığını, bu yanaşmanın isə birtərəfli olduğunu bildirdi. Siyarto 2023-cü ildə Ermənistan üçün nəzərdə tutulan 10 milyon avronun fonunda Budapeştin eyni məbləğin Azərbaycana da ayrılması üçün çalışdığını xüsusi vurğulayıb. Bu, Macarıstanın balanslı və prinsipial mövqeyinin göstəricisidir.

## Ekspert rəyi



**Tofiq ABBASOV,**
**siyasi icmalçı**

– Əgər ötən əsrin 80-ci illərinin sonları, 90-cı illərinin əvvəllərində Ermənistanın təcavüzkar siyasəti olmasaydı, bu gün bölgənin tamamilə fərqli mənzərəsini görərdik. İrəvan enerji layihələrində, inteqrasiya proseslərində özü oyunçu kimi çıxış edərdi. Cənubi Qafqazın bütün ölkələri böyük imkanlara sahib olardı. Amma biz nə görürük? Müharibələr infrastrukturu dağıdır. Xüsusilə, Ermənistan kimi vəhşi işğalçının ölkəmizə qarşı apardığı hərbi kampaniyaların nə ilə nəticələndiyini gördük. Azərbaycan kənardakı dəstəkçilərə deyil, öz gücünə arxalanaraq, ərazilərini işğaldan azad etdi. İndi isə o torpaqlarda bərpa-quruculuqla məşğuldur. Əgər Ermənistan militarist siyasətindən əl çəksə, büdcəmizdə əsaslı dəyişikliklər edərik. Təbii ki, təhlükəsizlik sisteminin təkmilləşdirilməsi, bu məqsədlə müasir silah-sursatın alınması ordunun döyüş qabiliyyətinin yüksək səviyyədə saxlanılmasına xidmət edir. Bunlar isə böyük vəsait tələb edir.

Əminliklə deyə bilərik ki, məhz İrəvanın ucbatından Bakı öz üzərinə düşən təhlükəsizlik yükünü çəkməyə məcburdur. Sanki, bunu Ermənistanda başa düşmürlər. İstər rəsmi dairələrin, istər daşnak-revanşistlərin, istərsə də terror qruplaşmaların hamısı qan-qan deyir. Xarici borc içində çapalayan bu ölkə hələ də militarizmdən əl çəkmək istəmir. Bəli, bu, bizim milli mənafeyimizə toxunan məsələdir. Amma Azərbaycanın gücü və sözü, qalib statusu regionun qayğılarını öz üzərinə götürməyə sövq edir. Bakı bunu böyük məmnuniyyətlə həyata keçirir. Həm də xarici qüvvələrə bel bağlamadan. 44 günlük müharibə bitən kimi Prezident İlham Əliyev bölgədə kommunikasiyaların açılması, yolların bərpası ilə bağlı sərəncamlar imzaladı və İrəvanı bu inteqrasiya prosesində iştirak etməyə çağırdı. Anlamadılar, dəyərləndirmədilər. Bəli, sülh bizə baha başa gəlir. Fəqət, bu yükün altından qaçmaq niyyətimiz yoxdur.

# Paşinyan kilsəni “dövlətsizləşdirə” biləcəkmi?

(əvvəli 1-ci səhifədə)

Qeyd edək ki, N.Paşinyan mayın 30-dan başlayaraq erməni apostol kilsəsinin qanunsuz əməlləri ilə bağlı “Facebook” sosial şəbəkəsindəki hesabında paylaşımlar edib. İyunun 9-da Paşinyan sosial şəbəkədə bütün ermənilərin katolikosu II Qareginin könüllü olaraq subaylıq andını pozduğunu və övladının olduğunu yazıb: “Bu, faktdır və əgər II Qaregin bunu inkar etməyə cəhd göstərsə, mən bunu lazımi formatda sübut edəcəm. Bununla əlaqədar olaraq, erməni apostol kilsəsinin qaydasına görə, II Qaregin nə yepiskop, nə arxiyepiskop ola, nə də seçilə bilər. O, katolikos ola bilməz. Ktriç Nersisyan patriarx iqamətgahını boşaltmalıdır.

Erməni apostol kilsəsinin inanclı davamçısı, mənəvi irsimizin hər bir dəyərinə, hər bir əşyasına, hər bir surətinə və daşına hörmətlə yanaşan bir şəxs kimi bəyan edirəm: erməni apostol müqəddəs kilsəsinin yeni seçilmiş katolikosu olmalıdır. Bu şəxsin nüfuzu, mənəvi təmizliyi katolikosluq seçkilərinə qədər yoxlanmalı və təsdiqlənməlidir. Mən müqəddəs erməni apostol kilsəsinin inanclı davamçılarını patriarx iqamətgahının sevgi və xristian ruhunda azad olunması və bütün ermənilərin katolikosu vəzifəsinə həqiqətən müqəddəs bir din xadiminin seçilməsi gündəliyi ətrafında birləşməyə çağırıram”.

Beləliklə, Paşinyan kilsə ilə bağlı qəti və konkret mövqe ortaya qoyub. Bu mövqe həm daxili siyasi auditoriyaya, həm də kilsənin xarici havadarlarına ünvanlanmış mesaj xarakteri daşıyır. Aydın görünür ki, Nikol kilsənin siyasi proseslərə müdaxiləsini məhdudlaşdırmaqla dövlətin suveren qərarvermə mexanizmini qorumağa çalışır. Eyni zamanda, görünən odur ki, Ermənistan hökumətinin rəhbəri kilsənin Qarabağ klanının siyasi oyunlarına alət olmasından, müxtəlif hoqqabazlığından bezib və necə deyərlər, bu işin axırına çıxmaq istəyir.

Paşinyanın bu mövqeyi cəmiyyətin müxtəlif təbəqələri arasında da ciddi müzakirələrə səbəb olub. Bəzi kilsə “təəssübkeşləri” bunu dini dəyərlərə hörmətsizlik kimi qəbul etsə də, digərləri onun modern və sekulyar idarəetməyə üstünlük verdiyini düşünür.

Qarabağ klanı indiki məqamda belə “kilsə təəssübkeşliyi” rolunda çıxış edən əsas qüvvədir. Hazırda kilsə və müxalifət Paşinyana qarşı birləşib desək, yəqin ki, yanılmarıq. Revanşistlərə yaxınlığı ilə seçilən media orqanları Ermənistan parlamentindəki “Şərəfim var” müxalifət fraksiyasının başlanmış impiçment prosesi çərçivəsində Masis icmasının rəhbəri David Ambarsumyanın baş nazir postuna namizədliyinin irəli sürülməsi barədə məlumat yayıb. Fraksiya rəhbəti Ayk Mamicanyan sosial şəbəkədə yazıb: “Ermənistan “Respublikaşəlar” Partiyasının icra orqanının bəyanatını nəzərə alaraq, “Şərəfim var” fraksiyası iyunun 7-də keçirilən iclasında “Milli Assambleyanın reqlamenti” konstitusiya qanununa uyğun olaraq, baş nazirə etimadsızlıq nümayiş etdirmək, David Ambarsumyanın namizədliyini irəli sürmək barədə yekdilliklə qərar qəbul edib”.

Qeyd edək ki, Ermənistan qanunlarına görə, impiçment prosesinə başlamaq üçün onun təşəbbüskarlarından baş nazirliyə namizədliyini təqdim etmələri tələb olunmaqla yanaşı, 107 deputatdan azı 54-ü hökumət başçısına etimadsızlıq göstərməlidir. Amma parlamentin hazırkı çağırışında mütləq çoxluq “Mülki müqavilə” partiyasında qalmaqdadır. Bu isə o deməkdir ki, real nəticə əldə etmək üçün müxalifətin ya iqtidar daxilində parçalanma yaratması, ya da bir sıra deputatları öz tərəfinə çəkməsi zəruridir. Hazırkı siyasi reallıq isə belə bir ssenarinin reallaşma ehtimalının olduqca aşağı olduğunu göstərir. Bu səbəbdən impiçment çağırışları daha çox siyasi təzyiq vasitəsi kimi qiymətləndirilir.

“Respublika” partiyasının bu mövqeyi isə sabiq prezident, Xocalı soyqırımının bilavasitə iştirakçısı Serj Sarkisyanın baş nazirlə kilsə arasındakı qarşıdurmaya “töhfəsi” kimi qiymətləndirilə bilər. Bu qarşıdurmaya Ermənistanın ikinci prezidenti, Qarabağ klanının “xaç atası” Robert Koçaryan da qoşulub. Onlar beyinlərindəki əbədi revanşist ideyaların təsiri altında ölkədə gərginliyi artırmaq üçün hər şeyə hazırdırlar. Hələ aprel ayında S.Sarkisyan jurnalistlərlə söhbətində Paşinyanın qarşıdan gələn seçkilərə qədər duruş gətirməyəcəyini əminliklə bəyan etmiş və müxalifətin onun hakimiyyətdən uzaqlaşdırılması üçün konkret proqramının olduğunu gizlətməmişdi. Sarkisyan həmin vaxt istehza ilə bildirmişdi ki, nə qədər istəsə də, hakimiyyətin konstitusiyanı yenidən yazmağa və Müstəqillik bəyannaməsi ilə bağlı müddəaları çıxarmağa vaxtı olmayacaq.

Məlumdur ki, Sarkisyan və Koçaryan Ermənistan konstitusiyasına Azərbaycana ərazi iddialarını istisna edən dəyişikliklərin qəti əleyhdarlarıdır və Paşinyan Qarabağı Azərbaycanın bir hissəsi kimi tanıyanda onu ilk tənqid edənlərdən olublar. Beləliklə, 2026-cı il iyunun 7-nə təyin edilmiş parlament seçkilərində hakim partiyanın qalib gəlməsi üçün baş nazir və komandası ən azı iki mühüm vəzifəni həll etməli olacaq. Bunlardan biri xaricdəki nüfuzlu diaspor timsalında güclü dəstəyə malik “döyüşkən” erməni ruhanilərini susdurmaqdan, digəri isə əsas siyasi rəqiblərini zərərsizləşdirməkdən ibarətdir. Ancaq belə bir siyasi qarışıqlıq şəraitində, yəni, Paşinyanın erməni kilsəsi ilə ona qənim kəsilmiş müxalifət qüvvələri arasında qaldığı şəraitdə baş nazirin vəziyyətinin yumşaq desək, asan olmadığı aydınlaşır. Bu mürəkkəb situasiyada Paşinyan həm daxili, həm də xarici təzyiqləri balanslaşdırmağa məcburdur. O, bir tərəfdən erməni cəmiyyətinin sülh və sabitlik arzularını təmin etməli, digər tərəfdən isə radikal qrupların təzyiqinə müqavimət göstərməlidir. Kilsənin və müxalifətin birgə ritorikası Paşinyanı milli maraqlara xəyanətdə ittiham etməyə yönəlir ki, bu da onun ictimai dəstəyinə mənfi təsir göstərə bilər. Üstəlik, xaricdəki erməni diasporunun, xüsusən də ABŞ və Fransadakı güclü lobbi qruplarının münasibəti seçkilər öncəsi ciddi əhəmiyyət daşıyır. Paşinyanın gələcək siyasi taleyi məhz bu çətin tarazlığı necə qoruyacağından birbaşa asılı olacaq.

***Səxavət HƏMİD***
***XQ***



## Ekspert rəyi

**Fuad ABDULLAYEV,**
**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin aparıcı məsləhətçisi, hərbi-siyasi ekspert**



– İlk olaraq qeyd etmək lazımdır ki, erməni kilsəsi tarixən ölkə hakimiyyətinin siyasi fəaliyyətində aktiv iştirak edib. Bu, indi də belədir. Hətta, qeyd edim ki, erməni kilsəsi Azərbaycan ərazilərində erməni dövlətinin yaradılmasında müstəsna rol oynayıb. Bu, danılmaz faktdır. Kilsə daim irridentist düşüncələrin əhali arasında təbliğatı ilə məşğul olub. Terror təşkilatlarının yaradılması, terror aktlarının planlaşdırılması, onların həyata keçirilməsi kilsə tərəfindən icra edilən fəaliyyətlər olub.

Hazırkı vəziyyətə gəldikdə isə Paşinyanla kilsə arasında yaranmış mübahisənin əsas predmeti ondan ibarətdir ki, kilsə bəzi üçüncü ölkələrin də dəstəyi ilə Ermənistanda hakimiyyəti dəyişmək istəyir. Paşinyan da bunu çox yaxşı başa düşür və bu barədə məlumatlıdır. Parlament sədrinin müavini Ruben Rubinyan təzəlikcə mətbuata müsahibəsində bildirib ki, kilsələrdə dini liturgiya ilə yanaşı, siyasi təbliğat da aparılır. Bu, özü ciddi bir faktdır və onu deməyə əsas verir ki, kilsə həqiqətən də seçkilər öncəsi əhalinin hakimiyyətə qarşı çıxmasına çalışır.

Əlbəttə, müxalifətlə erməni apostol kilsəsi birgə fəaliyyət göstərirlər. Xüsusilə, kilsə ikinci prezident Robert Koçaryana daha çox dəstək verir. Son vaxtlar kilsə nümayəndələri iki-üç dəfə öz açıqlamalarında Koçaryana dəstəkçi olduqlarını açıq şəkildə bəyan ediblər. “Müqəddəs mübarizə” hərəkatının lideri də birbaşa Koçaryanın partiyasının nümayəndələri tərəfindən dəstəklənir. Bir məqamı yaddan çıxarmaq olmaz. Xatırlayırsınızsa, 2021-ci ildə Koçaryan belə bir açıqlama vermişdi ki, hakimiyyətə dini liderlərdən biri də gələ bilər. Əlbəttə, burada belə bir qənaət formalaşır ki, Koçaryanla, onun tərəfdarları ilə erməni apostol kilsəsi əlaqələndirilmiş şəkildə fəaliyyət göstərirlər. Onların əsas məqsədi Ermənistan hakimiyyətini dəyişməkdir. Əlbəttə, bu, üçüncü ölkələr tərəfindən də dəstəklənir. Son vaxtlar artan bu dəstək erməni kilsəsinin fəaliyyətinin də aktivləşməsinə səbəb olub.

Paşinyan isə kilsənin Ermənistanın daxili ictimai-siyasi həyatına qarışmamasını istəyir və din xadimlərini bu prosesdən kənarlaşdırmağa çalışır. Bu istiqamətdə atdığı addımların nə dərəcədə effektiv olacağı, yəni buna nə dərəcədə nail olub-olmayacağı barədə bu gün fikir söyləmək çətindir. Ona görə ki, Ermənistanda Paşinyan iqtidarına nə qədər rəğbət olsa da, kilsənin cəmiyyət arasında kifayət qədər nüfuzu var. Əhalinin xeyli hissəsi mütəmadi olaraq kilsələri ziyarət edir. Bu istiqamətdə atılacaq addımların vətəndaşlar arasında necə qarşılanacağı ilə bağlı fikir söyləmək hazırda müşküldür. Amma ehtimal etmək olar ki, əgər Paşinyan bununla bağlı qəti mövqe nümayiş etdirsə, bəlkə də kilsənin Ermənistanın daxili ictimai-siyasi həyatına və xarici siyasətinə qarışmasının qarşısını müəyyən qədər ala bilər.

# Azərbaycan xalqının siyasi identikliyi: azadlıqsevərlik




**V məqalə**

## Liderin cəmiyyət identikliyində rolu

Mövzuya aid öncəki məqalədə Azərbaycan cəmiyyətinin özünüidentifikasiyasında yeni mənəvi impulsun parametrləri kimi milli ideyanı, siyasi dövlətçilik tarixinin dövrləşdirilməsini, regional-regionlararası-qlobal miqyasların ahəngdarlığını və regional sülhyaratmadan regionlararası əməkdaşlığa keçid özəlliklərini vurğulamışdıq. Bu parametrlərin toplumun özünü identikləşdirməsində əhəmiyyətli rolunu heç bir halda arxa plana atmaq olmaz. Lakin onlar real mahiyyətlərini yalnız siyasi liderin fəaliyyəti fonunda ala bilərlər.

Uğurlu liderlik mövzusuna həsr edilmiş müasir fəlsəfi və politoloji araşdırmalar göstərir ki, liderin dövlətin və cəmiyyətin həyatının bütün sferalarında rolu yeni səviyyəyə yüksəlmişdir. Bunun səbəbi kimi tədqiqatçılar çağdaş dünyanın faktiki olaraq dərin böhran keçirməsini, onun xaotiklik, qeyri-müəyyənliklə xarakterizə olunmasını və çətin proqnozlaşdırılan sistem halına gəlməsini görürlər. Tarixi təcrübə göstərir ki, hər bir cəmiyyəti və dövləti belə kəskin böhran vəziyyətindən uğurlu çıxarmaq üçün uyğun lider olmalıdır. Burada "uyğun" sözü həqiqi mənada cəmiyyətini, dövlətini, xalqını, millətini dərindən sevən və yüksək liderlik qüdrətinə malik olan dövlət başçısını ifadə edir.

Bundan başqa, liderliklə dövlət başçısı olmanın vəhdətdə götürülməsi də təsadüfi deyildir. Çünki təcrübə onu da təsdiq edir ki, XXI əsrdə o dövlətlər və cəmiyyətlər uğurla inkişaf edə bilirlər ki, orada real birlik, sosial-siyasi, mənəvi, ideoloji, mədəni monolitlik mövcud olur. Burada heç bir liberal və ya kommunist, sağ və ya sol, demokratik və ya avtoritar, "yaşıl" və ya "qeyri-yaşıl", "humanitar" və ya "qeyri-humanitar" parametrlər üzrə təsnifat keçmir. Onların hər biri o zaman nəticəverici olur ki, toplumun sosial-siyasi və ideoloji-mənəvi birliyi yerli ənənəyə zidd olmayaraq təmin edilir. Və eyni zamanda, XXI əsrin çağırışlarına uyğun yeni sosial, siyasi, mənəvi, mədəni və ideoloji inkişaf şərtləri ödənir. Fəlsəfi olaraq bu məqamı belə ifadə etmək olar: cəmiyyətin birlik şərtləri ilə lider-toplum həmrəyliyi bir-biri ilə ahəngdar olmalıdır. Burada aparıcı rolu lider oynamalıdır. Hansı səbəbdən?

## Liderlik missiyası və məsuliyyəti

İndi hər bir ölkə üçün liderin missiyası ilə məsuliyyəti bir-birini tamamlamalıdır. Total xaos durumunda kütlənin gələcəyi düzgün görməsi demək olar ki, imkansızdır. XXI əsrdə bu məsələ daha çox mürəkkəbləşmişdir. Cəmiyyətlərin özü substantiv və funksional olaraq daha mürəkkəb struktura malikdir. Bundan başqa, qloballaşma çoxlu sayda cəmiyyətləri bir-birindən qarşılıqlı asılı hala gətirmişdir. Bu cür ierarxik xarakterli mürəkkəb vəziyyətdə düzgün təhlil və proqnozlaşdırma liderllik üçün zərurətə çevrilir. Liderin məsuliyyəti isə ölkəni idarəetmək vəzifəsini yerinə yetirməsi ilə bağlıdır.

İndi vurğuladığımız bütün bu parametrlərin və faktorların prizmasında Azərbaycan Prezidenti İlham Əliyevin liderlik fəaliyyətinin bir sıra mühüm aspektlərinə baxaq.

## Siyasi varislik

Siyasi varislik Azərbaycan xalqının siyasi identikliyində əsas faktorlardan biri rolunu oynamışdır. İlham Əliyevin lider kimi məharəti və situasiyaya yaradıcı yanaşmasının əsas məqamlarından biri olan siyasi varisliyin gözlənməsi prinsipi mühüm məqamdır. Burada liderlik baxımından həlledici faktorlar Heydər Əliyevin müəyyən etdiyi müstəqil dövlət quruculuğu kursu daxilində azərbaycançılıq, multikulturalizm və milli maraqlara bağlılığın davam etməsindən ibarətdir. İlham Əliyev fəaliyyəti müddətində həmin faktorlara tam əməl edən yenilikçi lider kimi özünü təsdiq etdi.

Azərbaycançılıq, multikulturalizm və milli maraqlara bağlılıq siyasi varislik kontekstində cəmiyyətin həmrəyliyi üçün ciddi faktorlardır. Çünki onların hər birinin özünəxas birləşdirici məqamları vardır. Prezident İlham Əliyev 2003-2020-ci illərdə vurğulanan üç istiqamətdə möhtəşəm proqramlar həyata keçirdi və artıq cəmiyyət Vətən Müharibəsinə tam hazır hala gəlmişdi. 2020-ci ildən sonra isə azərbaycançılıq, mültikulturalizm və milli maraqlara bağlılıq yeni tarixi mərhələnin şərtlərinə uyğun məzmun çalarları almağa başladı. Bu baxımdan siyasi varislik də özünün yeni məzmun və funksiya səviyyəsinə yüksəldi.

Yeni mərhələdə siyasi varislik Azərbaycan Respublikası dövlətinin regional lider kimi regionlararası miqyasda yeri və rolunu müəyyən etməsinə xidmət edir. Bu miqyas əvvəlkindən xeyli mürəkkəbdir. Lakin İlham Əliyevin fəaliyyəti göstərir ki, Azərbaycan Respublikası dövləti Türk Dövlətləri Təşkilatının (TDT) lideri və Qoşulmama Hərəkatının əsas üzvlərindən biri kimi çox uğurlu addımlar atır. İndi bütün istiqamətlərdə, o cümlədən, informasiya savaşı aspektində Azərbaycanın dəyərinin nə dərəcədə yüksəldiyini, son zamanlar ölkəmizə və Türkiyəyə qarşı atılan böhtan, şantaj və şər kampaniyasının vüsət almasını göstərir. Bu, iki qardaş dövlətin dünya miqyasında rolu, yeri və təsirinin yeni səviyyəyə qalxmasının təsdiqlərindən biridir.

## Enerji strategiyası yeni mərhələdə

Prezident İlham Əliyev XXI əsrdə uğurlu lider nümunəsi kimi enerji strategiyasında çox çevik addımlar atır. Burada möhtəşəm bir transformasiyanın şahidiyik. XX əsrin son onilliyində Ulu öndərin hazırladığı neft strategiyası (və ya yeni enerji strategiyası) özünün üçüncü mərhələsinə "yaşıl enerji" sahəsində Azərbaycanın Avropa ilə imzaladığı Əməkdaşlıq Memorandumu (İlham Əliyev-Ursula fon der Lyayen) və BP ilə imzalanan "Əsrin yeni müqaviləsi" ilə qədəm qoydu. Avropa İttifaqı ilə imzalanan Əməkdaşlıq Memorandumu (memorandum hər hansı məsələyə baxışların ifadə edildiyi informasiya-ayarış xarakterli sənəddir) "yaşıl enerji" sferasında gələcək əlaqələrin ümumi istiqamətini müəyyən edirsə, BP ilə imzalanan müqavilə onun müddətini göstərir. Deməli, Azərbaycan real olaraq özünün eneji strategiyasını XXI əsrin çağırışlarına cavab kontekstində uğurlu nəticələrə aparan xətt üzrə qurmaqda davam edir.

Bu uğurlu enerji strategiyası transformasiyası Azərbaycan Prezidentinin yeni tarixi mərhələdə liderliyinin çox əhəmiyyətli göstəricilərindən biridir. Dövlət başçısının "Bakı enerji həftəsi"ndə neft strategiyasının Azərbaycanın milli inkişaf modelində fundamental rol oynadığı ilə bağlı ifadə etdiyi tezis dünyaya böyük mesajdır. Bakı rəqiblərindən və həm də onunla dost olmaq istəməyənlərdən bir addım irəlidədir və şərtləri o diqtə edir!

## Regional təhlükəsizlik

"3+3" Azərbaycanın postmüharibə mərhələsində milli təhlükəsizliyinin əsas regional formuludur. Burada təhlükəsizlik haqqında siyasi təsəvvürdən cəmiyyətin təhlükəsizlik təsəvvürlərinə incə bir psixoloji keçid vardır. Hər bir cəmiyyət mütləq surətdə özünün təhlükəsizliyinin təminini yaşamın fundamental şərti kimi qəbul edir. Əgər sosiumda təhlükəsizliyin təmininə etibar və etimad varsa, orada inkişaf paradiqması aparıcı olur. Bu cür təminat olmadıqda cəmiyyət kollektiv surətdə özünün inkişafını deyil, hardan təhlükə gələ biləcəyini daha çox düşünür. Bu da davamlı olduğu halda kollektiv psixologiyada özünü qorumaq hissini inkişafdan öndə tutan durum yaradır.

Prezident İlham Əliyev "3+3" formatı ilə yanaşı, təhlükəsizliyin təmininə istiqamətlənmiş digər formulları davamlı olaraq siyasi-diplomatik gündəmə gətirir. Artıq Azərbaycan cəmiyyətində postmüharibə mərhələsində təhlükə riskinə qarşı immunitet formalaşmışdır. Toplum liderini dövlətin, millətin və hər bir vətəndaşın təhlükəsizliyinin etibarlı təminatçısı kimi qəbul edir. Yəni İlham Əliyevin təhlükəsizliyin təmini ilə bağlı həyata keçirdiyi proqramları cəmiyyətin tam legitimliyini qazanmışdır.

## Strateji inkişafa inam

Məsələnin bu tərəfi cəmiyyətin indiki reallıqlarla gələcək taleyi arasında nisbəti müəyyən etməkdə ciddi rol oynayır. Cəmiyyətdə gələcək inkişafa inamın olması onun siyasi identikliyində nikbinlik faktorunun əsaslı yer tutduğunun əlamətidir. Hazırda toplum strateji inkişaf kursunu müxtəlif aspektlərdə geniş müzakirə edir. Bura milli maraqların gözlənməsi, mədəni özünəməxsusluğun qorunması, dil, din, adət-ənənə kimi faktorların cəmiyyətdəki yeri və rolunun yenidən qiymətləndirilməsi, vətəndaş-dövlət münasibətlərinin inkişaf dinamikası, siyasi institutlaşmanın optimal modelinin axtarışları və s. daxildir. Bu prizmada cəmiyyət dövlətin daxili və xarici siyasətinin əsas məqamlarını diqqətlə izləyir.

Müşahidələr göstərir ki, aparıcı məqam bu prosesdə cəmiyyət və hakmiyyət tərəfindən milli maraqların gözlənməsindən ibarətdir. Müstəqil bir dövlət üçün bu faktor çox ciddi rol oynayır.

## Ümumtürk identikliyinə keçid

Buradan Azərbaycan cəmiyyətinin siyasi identikliyi ilə Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində ümumtürk identikliyinə maraqlı keçid etmək olar. Həmin kontekstdə "cəmiyyət identikliyi" və "siyasi identiklik" daha ümumi "sosial identik"liyin atributları kimi təsəvvür edilir. Çünki istənilən halda cəmiyyət identikliyi cəmiyyətlər və dövlətlərarası münasibətlər miqyasına proyeksiya olunanda siyasi və geosiyasi çalar almalıdır. Bu məsələ hansı halda aktualdır? Onun çox aspektlərdə aktuallıq çalarları mövcuddur. Bizi bu məqalədə dövlətin müstəqilliyi ilə onun təşkilatın üzvü kimi siyasi və mədəni kimliyinin məzmunu arasındakı nisbət maraqlandırır.

Bir qədər də konkret ifadə etsək, Azərbaycan cəmiyyətinin siyasi identikliyi ümumtürk kontekstində (TDT çərçivəsində) hansı məzmunu ala bilər? Sirr deyil ki, hazırda bu istiqamətdə türk cəmiyyətlərində ciddi müzakirələr aparılır. Dil, mədəniyyət, hüquq və s. aspektlərdə bəzən fikir ayrılığı özünü göstərir. Kənardan qaynaqlanan və ya daxildə yanlış təsəvvür edilən məqamlar sayəsində bir sıra hallarda vəziyyəti dramatikləşdirməyə çalışanlar meydana çıxırlar. Bütün bunlar üç aspektdə normal hallar kimi görünür.

Birincisi, TDT, xüsusilə Azərbaycan böyük uğurlar qazanır. Azərbaycan faktiki olaraq türk dünyasını dünyanın ən inkişaf etmiş kəsimi ilə birləşdirici addımlar atır ki, müsbət nəticələri dərhal hiss edilir. Son iki nümunəni göstərə bilərik.

Azərbaycanın təşəbbüsü ilə Laçında Azərbaycan-Türkiyə-Pakistan yeni geosiyasi güc oxu formalaşdı. Eyni zamanda, Laçın MDB-nin mədəniyyət paytaxtı elan edildi, tədbirlər keçirildi. Diqqət edək: bir addımla Azərbaycan üç istiqamətdə əhəmiyyətli gediş etdi.

## TDT+Pakistan: yeni güc oxu

Birincisi, TDT ilə onun üzvü olmayan Pakistanı birgə geosiyasi fəaliyyət müstəvisinə gətirdi. Bu mənada artıq Pakistan da "qardaş" səviyyəsində strateji müttəfiq dövlətdir. Azərbaycan, Türkiyə və Pakistanın dövlət, cəmiyyət, mədəniyyət. iqtisadiyyat və hərbi potensial baxımından imkanlarına baxsaq, söhbətin son dərəcə əhəmiyyətli yeni geosiyasi güc oxundan getdiyini anlaya bilərik.

Eyni zamanda, Laçında nümayiş etdirilən geosiyasi motiv müasir Avrasiya tarixində bir regional təşkilatın böyük uğurla özünə etibarlı tərəfdarlar cəlb edə bilməsi imkanının göstəricisidir. Bir çoxlarının barmaqarası baxdığı TDT, qısa tarixi zamanda Azərbaycanın xüsusi fəallığı ilə təşkilatın funksional və nüfuz imkanlarını genişləndirir.

Etiraf edək ki, XXI əsrin çağırışları fonunda bu, olduqca ciddi siyasi, geosiyasi və uğurlu təşkilatlanma nümunəsidir. Bunları bəlkə də, bizdən çox bizimlə son bir neçə əsrdir ki, dost olmaq istəməyən dairələr daha dərindən anlayırlar. Sizcə, onların reaksiyası necə olmalıdır?

Məncə, əsasən pozucu təsirlərə əl ata bilərlər. Türk cəmiyyətlərini daxildən parçalamağa çalışarlar. Müxtəlif qondarma "tarixi faktlar"ı "etibarlı mənbələr"dən (Avropa, fars, rus və s.) "eşələyib" bizə dost və düşmənimizi düzgün müəyyən etməyi məsləhət görərlər (bu yaramaz niyyət indi açıq görünür). Onlar azərbaycanlı təfəkkürünü Səfəvi-Osmanlı imperiyaları arasında olmuş münasibətlərin dixtomiyasına salıb, neqativ məqamları "əsl reallıq" kimi beynimizə yeritməkdən çəkinmirlər. Halbuki biz o zərərli dixotomiyanın fövqündə duraraq müasir türk dövlətçiliyi (ilk növbədə Azərbaycan) kontekstində azərbaycanlılıq, müstəqillik və davamlı müasir inkişaf kursu aspektində düşünməliyik.

Biz tariximizi qətiyyən unutmuruq və unutmarıq. Lakin o tarixə münasibəti Azərbaycanın müstəqil dövlətçiliyi fonunda öz parlaq gələcəyimiz naminə daim qiymətləndirməliyik. Bizim imperiya keçmişimiz çox qiymətlidir, lakin gələcək daha önəmlidir. Yəni imperiyaların çəkdiyi "ayırıcı xətlər" üzrə hərəkət etməməliyik. Onu dövlət və cmiyyət kimi uzun illər gördük. Yetərli deyilmi? Bir daha siyasi, ideoloji, mənəvi, mədəni və asılı ölkə halına düşməmək naminə məhdud dixotomiyaların fövqünə yüksəlməliyik.

Məncə, Ulu öndər bizlərə bunları öyrədirdi və tövsiyə edirdi – "fəxr edirəm ki, azərbaycanlıyam" və "bir millət, iki dövlət"!

Prezident İlham Əliyevin liderlik təcrübəsi və postmüharibə mərhələsində fəaliyyəti də daha geniş prizmada tarixi olaylara yanaşmağın doğru olduğunu təsdiqləyir – "bizim ailəmiz Türk Dünyasıdır"! Tarixi unutmamaqla, milli maraqları üstün tutmaqla güclü, demokratik, hüquqi, milli ilə bəşəriliyi vəhdətdə görə bilən Azərbaycan vətəndaşı olmaq zəruridir!

**(ardı var)**

*__Füzuli QURBANOV,__*
*__XQ-nin analitiki,__*
*__fəlsəfə elmləri doktoru__*

# Mediada saxta xəbər və dezinformasiya ilə mübarizə



**İyunun 10-da Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi və Diasporla İş üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə "Saxta xəbər və dezinformasiyaya qarşı mübarizədə jurnalistikanın gücü" mövzusunda təlim təşkil olunub.**

Medianın İnkişafı Agentliyində keçirilən təlimi Birləşmiş Millətlər Təşkilatının Nyu-York şəhərindəki Baş Qərargahında akkreditə olunmuş, BMT Müxbirlər Assosiasiyasının üzvü olan jurnalistlər – Stefano Vakkara və Cordan Dakamseh aparıblar.

Otuz illik jurnalist təcrübəsinə malik, İtaliya xəbər agentliyi "İtalpress"in ABŞ-dakı müxbiri Stefano Vakkara "Faktlar unudularsa, jurnalistika öz mahiyyətini qoruyurmu?" mövzusunda təqdimatla çıxış edib.

Uzun illər BMT-nin müxtəlif missiyalarında ictimaiyyətlə əlaqələr üzrə mütəxəssis kimi çalışan, "Jordan Report Media and Entertainment" şirkətinin prezidenti Cordan Dakamseh isə "Necə nüfuzlu jurnalist olmaq olar?" və "Misinformasiyanın qarşısının alınması üçün sosial mediadan istifadə" mövzularında fikirlərini iştirakçılarla bölüşüb.

Təlim zamanı etibarlı və araşdırmaya əsaslanan jurnalistikanın cəmiyyət üçün niyə vacib olduğu vurğulanıb, faktların yoxlanılması (fact-checking) mədəniyyətinin təşviqi, media savadlılığının artırılmasında jurnalistlərin rolu, sosial mediada və peşəkar platformalarda jurnalistin öz etibarlı imicini yaratmasına dair fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, təlimdə 20 nəfərə yaxın ingilisdilli media nümayəndəsi iştirak edib.

***XQ***

# Milli Məclis komitəsində 3 qanun layihəsinə baxılıb



**Dünən Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin növbəti iclası keçirilib. Komitənin sədri Sadiq Qurbanov gündəliyə 3 məsələnin - "Qaz təchizatı haqqında" yeni qanun layihəsinin, "Elektroenergetika haqqında" Qanunda dəyişiklik edilməsi barədə (birinci oxunuş) və Torpaq Məcəlləsində və "Balıqçılıq haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihələrinin daxil edildiyini söyləyib.**

Sadiq Qurbanov "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası qanununun layihəsi barədə fikirlərini açıqlayıb. Sonra energetika nazirinin müavini Samir Vəliyev çıxış edərək təqdim olunan qanun layihəsinin ölkə Prezidentinin "Azərbaycan Respublikasının energetika sektorunda islahatların sürətləndirilməsi haqqında" müvafiq Sərəncamına uyğun olaraq hazırlandığını söyləyib.

Energetika Nazirliyinin şöbə müdirləri İbrahim Ağayev və Rahid Əsədov, Enerji Məsələlərini tənzimləmə Agentliyinin direktor müavini Rövşən İsmayılov, "Azəriqaz" İstehsalat Birliyinin Baş direktoru Azər Məmmədov, SOCAR-ın Qaz paylanması departamentinin rəisi Orxan Səlimov layihədə təsbit olunan qaz təchizatı, qazdan istifadə, qaz təchizatı obyektlərinin istismarı və onların təhlükəsizliyinin təmin edilməsi ilə bağlı qaydalar, qaz təchizatı sektorunda insanların sağlamlığının, əmlakının və ətraf mühitin qorunmasına dair tələblər barədə mülahizələrini söyləyiblər.

Sonra iclasda "Elektroenergetika haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə (birinci oxunuş) baxılıb. Komitədə, habelə Torpaq Məcəlləsində və "Balıqçılıq haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi nəzərdən keçirilib.

Müzakirəyə çıxarılan hər 3 qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə edilib.

***XQ***

# Əsrin çağırışlarına cavab axtarışı

**Dünyamız dərin transformasiya mərhələsinə qədəm qoyub. Qlobal pandemiyalar, iqlim böhranları, münaqişələrin yeni texnoloji formaları, nüvə təhlükəsi və ərzaq çatışmazlığı fonunda beynəlxalq təhlükəsizlik sisteminin ürəyində dayanan Birləşmiş Millətlər Təşkilatı (BMT) bu çağırışlar qarşısında cavabdeh aktor kimi çıxış edir. Amma bu cavablar yetərlidirmi? BMT, onun Təhlükəsizlik Şurası günün mürəkkəb reallıqlarına cavab vermək üçün kifayət qədər çevik və effektivdirmi?**



Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin "The Hill"ə müsahibəsində irəli sürdüyü tənqid və təkliflər mövzuya yeni impuls verir. Eyni zamanda, Azərbaycan Prezidenti İlham Əliyevin Qoşulmama Hərəkatı çərçivəsində səsləndirdiyi fikirlər BMT islahatlarının regional deyil, ümumbəşəri ehtiyac olduğunu göstərir. İki liderin çağırışı əslində qlobal miqyasda artan narazılıqların səsi, beynəlxalq münasibətlər sisteminin yeni quruluşuna tələbatın göstəricisidir.

Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası (BMT TŞ) bu gün dünya nizamını qorumaq və beynəlxalq təhlükəsizliyi təmin etmək məqsədilə fəaliyyət göstərən ən mühüm instansiya kimi tanınır. Ancaq bu "nizamın keşikçisi" funksiyası getdikcə daha çox sual doğurur. Səbəb isə çox sadədir: Təhlükəsizlik Şurasının quruluşu və fəaliyyət prinsipləri XXI əsrin reallıqlarından çox uzaqdır.

Hazırda Şura 5 daimi üzvün – ABŞ, Böyük Britaniya, Fransa, Rusiya və Çinin veto hüququ ilə faktiki nəzarətindədir. Beşliyin qərarları qlobal gündəmi müəyyən edir, onların vetosu isə dünyanın taleyini dəyişə bilir. Belə arxitektura 1945-ci ildə, İkinci Dünya müharibəsinin nəticələrindən çıxış edilərək, qalib dövlətlərin maraqlarına əsasən qurulmuşdu. İntəhası, 1945-ci ilin dünyası ilə 2025-ci ilin mürəkkəb, çoxtərəfli və sürətlə dəyişən geosiyasi mənzərəsi arasında dərin və keçilməz bir uçurum yaranıb. Bu gün dünya əhalisinin əhəmiyyətli hissəsini təşkil edən Afrika qitəsinin, Latın Amerikasının, İslam dünyasının Təhlükəsizlik Şurasında daimi təmsilçiliyi yoxdur. Halbuki bu regionlar yalnız əhali baxımından deyil, həm də qlobal problemlərin – silahlı münaqişələr, iqlim dəyişiklikləri, enerji təhlükəsizliyi, miqrasiya axınları və sosial qeyri-bərabərlik – episentrində dayanırlar. Onların susqun müşahidəçi statusu isə beynəlxalq legitimlik, ədalət və bərabərlik prinsiplərinə ziddir.

Daha faciəlisi isə odur ki, Təhlükəsizlik Şurası çox zaman münaqişələrin qarşısının alınmasında yox, onların dondurulmasında və ya geosiyasi maraqlar çərçivəsində "idarə olunmasında" vasitəyə çevrilir. Ədalətin deyil, maraqların dominantlıq etdiyi bu yanaşma dünya miqyasında BMT-yə olan inamı sarsıdır.

Azərbaycanın təcrübəsi bu baxımdan acı, lakin çox aydın nümunədir. 1990-cı illərdə Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamənin heç biri onillərlə icra olunmadı.



Beynəlxalq hüququn pozulması faktı təsdiqlənsə də, real tədbir görülmədi və qətnamələr kağız üzərində qaldı. Azərbaycan özü öz gücü ilə bu vəziyyətə son qoydu. Bu fakt BMT-nin ciddi struktur böhran yaşadığını və Təhlükəsizlik Şurasının yalnız müəyyən güclərin maraqlarına uyğun hərəkət etdiyini açıq şəkildə göstərdi. Əgər beynəlxalq hüquq yalnız supergüclərin "rahatlığı" çərçivəsində işləyirsə, deməli, burada hüquqdan deyil, güc balansından danışmaq lazımdır.

*

BMT Nizamnaməsinin 1-ci maddəsi açıq şəkildə göstərir ki, təşkilatın başlıca məqsədi beynəlxalq sülh və təhlükəsizliyi qorumaq, xalqlar arasında dostluq münasibətlərini inkişaf etdirmək və beynəlxalq əməkdaşlığı təşviq etməkdir. Bu ali məqsəd, əslində, BMT-nin mövcudluq səbəbini təşkil edir. 2-ci maddədə isə bu prinsiplərin həyata keçirilməsinin təməl şərtləri kimi dövlətlərin suveren bərabərliyi, qarşılıqlı hörmət və daxili işlərə qarışmama prinsipləri qeyd olunub. Ancaq kağız üzərində mövcud olan bu nəcib prinsiplər Təhlükəsizlik Şurasında praktikada ciddi şəkildə pozulur. Səbəb isə bəllidir: veto hüququ.

Beş daimi üzv dövlətə – ABŞ, Rusiya, Çin, Fransa və Böyük Britaniyaya – təqdim olunmuş veto imtiyazı, faktiki olaraq, bu ölkələri digər 188 üzv dövlətin iradəsindən üstün mövqeyə gətirir. Onlar istənilən qətnamənin qəbulunu təkcə bir "əleyhinə" səsi ilə əngəlləyə bilirlər. Bu da beynəlxalq hüququn özəyini təşkil edən bərabərlik prinsipini fundamental şəkildə pozur. Bəli, hüquqi baxımdan paradoksal vəziyyətdir. Əgər BMT Nizamnaməsinin 2-ci maddəsi dövlətlərin suveren bərabərliyini təsbit edirsə, eyni təşkilatın daxilində müəyyən dövlətlərə üstün hüquqlar tanınması necə əsaslandırıla bilər? Bu, hüquqi baxımdan normativ təzad və prinsipial ziddiyyət yaradır. Başqa sözlə, hüquqi müstəvidə eyni ailənin üzvləri olan dövlətlər faktiki olaraq ayrı-ayrı kateqoriyalara bölünür: "veto sahibləri" və "digərləri"...

Ayrı-seçkilik yalnız hüquqi deyil, eyni zamanda etik və siyasi legitimlik problemi yaradır. BMT-yə üzv ölkələrin əksəriyyəti qərarların qəbulunda real söz sahibi ola bilmədikdə, bu təşkilata olan inam azalır, onun nüfuzu zəifləyir. Nəticədə, beynəlxalq sistemdə ədalətsizliyin institutlaşdırılması baş verir – və bu da qlobal idarəçiliyin böhranını daha da dərinləşdirir. Bu səbəbdən, veto hüququnun islahatı və ya məhdudlaşdırılması təkcə siyasi deyil, həm də beynəlxalq hüququn prinsiplərinə hörmətin bərpası baxımından mütləq zərurətdir.

*

Bu gün bir veto hüququ bütöv bir qitənin iradəsini susdura bilir. Yəni, bir dövlətin marağı milyonlarla insanın həyatı və bütöv regionların taleyindən üstün tutulur. Belə bir vəziyyətdə həm hüquqi legitimlik, həm də siyasi etimad sarsılır. Artıq dövlətlər BMT-nin deyil, onun ətrafında yaranan güc balanslarının diktəsi ilə hərəkət etməyə başlayır. Reallıq budur ki, dünya artıq birqütblü deyil. XXI əsrin beynəlxalq münasibətlər mənzərəsində çoxqütblü güc balansı formalaşıb. Regional aktorlar – Türkiyə, Braziliya, Cənubi Afrika və digərləri – təkcə öz regionlarının deyil, qlobal gündəmin formalaşmasında mühüm rol oynayırlar. Lakin bu ölkələr BMT Təhlükəsizlik Şurasında daimi təmsilçilik hüququna malik deyillər. Onların iştirakı olmadan qəbul edilən qlobal qərarlar həm ədalətlilik prinsipinə, həm də qərarların səmərəliliyinə kölgə salır.

Təmsilçilik boşluğu beynəlxalq sistemə olan inamın fundamental şəkildə sarsılmasıdır. Mövcud sarsıntı isə boşluqda yeni alternativlərin yaranmasına şərait yaradır. Məsələn, regional ittifaqlar, yeni koalisiya formatları, çoxtərəfli platformalar getdikcə daha funksional görünür. Əgər BMT islahatlara getməzsə, bu alternativ qurumlar zamanla daha cəlbedici, daha effektiv və daha legitim görünə bilər. Nəticədə, BMT öz liderlik mövqeyini tədricən itirə və qlobal idarəetmədə, sadəcə, formal tribunaya çevrilə bilər.

Artıq sual bu deyil: "BMT-də islahat olmalıdırmı?" Bu sual çoxdan arxaikləşib. Sual budur: "İslahatlar niyə bu qədər gecikib?". XXI əsrin mürəkkəb çağırışları artıq mövcud institutların sərhədlərini aşır. Bugünkü reallıqda BMT-nin hələ də II Dünya müharibəsi sonrası düzənə əsaslanan strukturla fəaliyyət göstərməsi dövrə uyğun gəlmir. Təşkilatın hüquqa, ədalətə və qlobal həmrəyliyə sadiqliyini qoruması üçün köklü struktur dəyişikliyi zərurətdən doğur. BMT islahatı bəşəriyyətin gələcəyi üçün alternativsiz bir yoldur. Əgər dünya XXI əsrin problemlərini XX əsrin institutları ilə həll etməyə çalışarsa, onda uğursuzluq zolağı uzanacaq.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Gürcüstan – Aİ: "Molotov kokteyli"nə fərqli baxış

## *Qərb ilə sıx əməkdaşlıq niyə ziddiyyətlərə yön aldı?*

**Gürcüstanın Avropa İttifaqı ilə münasibətləri son illərin gərginlik və təzyiqləri nəticəsində daha da mürəkkəbləşib. Bu ölkənin Qərb dəyərlərinə inteqrasiya etmək istəyi, xüsusilə Aİnin ölkənin daxili məsələlərinə müdaxiləsi ciddi problemlərə yol açdı. Qərbin Gürcüstanda qəbul olunan və LGBT təbliğatını qadağan edən qanunla bağlı narahatlığı münasibətlərdəki ilk ciddi böhranı yaratdı.**

Aİ bir tərəfdən Gürcüstanda demokratiyanın inkişafını dəstəkləmək və insan hüquqları məsələsində daha müasir dəyərləri təşviq etmək istəyir, digər tərəfdən Gürcüstandakı siyasi müxalifətə açıq dəstək verərək, ölkənin daxili işlərinə müdaxilə edir. Bu cür yanaşma Gürcüstanın hökuməti tərəfindən ölkənin suverenliyinə və siyasi müstəqilliyinə qarşı təzyiq kimi qiymətləndirilir. Gürcüstan, xüsusən, Aİyə üzv olan bəzi ölkələrin siyasi maraqlarını daha çox təmin etməyə çalışması fonunda Avropanın siyasi təzyiqlərinə qarşı sərt mövqe tutur. Avroparlamentin üzvlərinin bəyanatları bu gərginliyi artırır. Məsələn, deputat Naço Sançes Amor qeyd edib ki, Gürcüstanın hakim partiyasının liderləri Aİ-nin tətbiq etdiyi sanksiyaların təsirini narahatlıqla izləyir və bu sanksiyalarla bağlı yollar axtarırlar.

Aİ-nin genişlənmə üzrə komissarı Marta Kosun bəyanatında isə deyilir ki, Gürcüstanın quruma üzvlük prosesinin dayandırılmasının səbəbi bu ölkənin Avropaya qarşı mənfi mövqeyindən irəli gəlir. Bu, Tbilisiyə qarşı daha sərt addımların atılmasına səbəb olacaq.

Rəsmi Tbilisi isə Aİ əməkdaşlarının açıqlamalarını təzyiq kimi qəbul edərək, onları kəskin tənqid edir. Hakim partiya nümayəndələri, xüsusən də deputat İrakli Kadagişvili Brüsselin Tbilisiyə qarşı sərt münasibətini ziyanlı və mənasız kimi qiymətləndirir. Kadagişvili belə bəyanatların Gürcüstan üçün heç bir dəyəri olmadığını, əksinə, cəmiyyətin Aİ-yə inamını sarsıtdığını vurğulalayıb: "Bu, heç bir dəyəri olmayan, sadəcə şantaj vasitəsi kimi istifadə edilən bəyanatlardır. Avropa İttifaqının bu cür davranışı cəmiyyətin ona olan etibarını zədələyir". Onun sözlərinə görə, Aİ öz bürokratik strukturları vasitəsilə, sadəcə, "gözə toz üfürmək" məqsədi güdür və sanksiyalar yalnız siyasi səbəblərlə tətbiq edilir: "Gürcü arzusu"nda adını sanksiyalar siyahısından çıxarılmasını xahiş edəcək adamlar yoxdur. Zənglər və geri çağırışlar barədə danışmaq ciddi deyil".

Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin son bəyanatları da ölkənin Aİ ilə münasibətlərindəki gərginliyi və qarşılıqlı anlaşılmazlıqları bir daha ortaya qoyur.



Hökumət başçısı bildirib ki, son illərdə bir neçə dəfə dövlət çevrilişinə, hökuməti devirməyə cəhdlər olub: "Bütün bunlar xaricdən maliyyələşdirilib. Müxalifətin Gürcüstanda hakimiyyəti dəyişmək istəyən himayədarları var. Çünki ölkədə xalqın maraqlarını müdafiə edən vətənpərvər hakimiyyət var. Bu, onların xoşuna gəlmir".

O, xarici agentlər haqqında qanunla bağlı Avropa rəsmilərinin tənqidlərinə də münasibət bildirib: "Onlar bizim qanunumuzun demokratik prinsipləri pozduğunu deyirlər, halbuki Brüsseldə özləri analoji qanun layihəsinin qəbulu imkanlarını müzakirə edirlər".

Gürcüstanın baş naziri daha sonra deyib: "Kimsə Gürcüstanda inqilabları kənardan maliyyələşdirmək istəyirsə, bunu heç olmasa, şəffaf şəkildə etməlidir. Bu prinsip şəffaflıq qanununda öz əksini tapıb".

Bununla yanaşı, Brüsselin Gürcüstan müxalifətini demokratik mübarizə aparan qüvvə kimi təqdim etməsi Tbilisi tərəfindən "kənardan müdaxilə" kimi qəbul olunur.

Bəli, durum Aİ-nin uzun müddətdir vurğuladığı "qarşılıqlı hörmət və daxili işlərə qarışmama" prinsipinə uyğun deyil. Göründüyü kimi, Aİ Gürcüstanın suverenliyinə və daxili siyasətinə hörmət edilməli olduğunu təbliğ edərkən, eyni zamanda, ölkə müxalifətini "demokratiya fədailəri" kimi qələmə verir, bir növ daxili işçilərə müdaxiləyə cəhdlər edir.

Bu arada Fransanın Nant şəhərinin Tbilisi ilə qardaşlaşmış şəhər münasibətlərini dayandırması da təzyiqin daha açıq və konkret formasıdır. Bu addım, həmçinin Fransanın Qərb perspektivindən Gürcüstanın daxili siyasətinə təsir etməyə çalışmasının göstəricisidir.

Gürcüstan isə, xüsusilə, son illərdə öz müstəqilliyini və milli maraqlarını qorumağa çalışır, buna görə də xarici təzyiqlər qarşısında sərt mövqe nümayiş etdirir. Tbilisi bu cür təzyiqləri və müdaxilələri ölkənin suverenliyini təhdid sayan addımlar kimi qəbul edir. Eyni zamanda, Aİ-nin özünün müəyyən etdiyi demokratiya və hüquqi dəyərləri necə tətbiq etdiyi və bu prinsiplərin müxtəlif kontekstlərdə fərqli təfsir edildiyi barədə ciddi suallar ortaya çıxır. Bu vəziyyət həm də Qərbin öz dəyərlərini və prinsiplərini tətbiq edərkən ikiüzlü yanaşma sərgilədiyini ortaya qoyur. Bu, həm də Gürcüstanın və digər oxşar ölkələrin daha müstəqil xarici siyasət formalaşdırmağa çalışarkən qarşılaşdıqları çətinliklərin bir nümunəsidir.

*

**Bu barədə XQ-yə danışan Milli Məclisin deputatı Elşad Musayev dedi:**



Avropa Gürcüstana qarşı siyasətində "ikili standartlar"a yol verir. Bir tərəfdən Gürcüstanda insan hüquqlarının müdafiəsinə, demokratiyanın təşviqinə çağırır, digər tərəfdən isə müxalifətə dəstək verərək, siyasi proseslərə müdaxilə edir. Bu yanaşma, Gürcüstan hakimiyyəti tərəfindən məntiqsiz və ziddiyyətli olaraq qiymətləndirilir. Əgər seçkilər saxta olaraq göstərilirsə, o zaman bu sistemdə müxalifətə hansı mövqedə dəstək veriləcəyinin qərarlaşdırılması zərurəti yaranır. Avropanın Gürcüstan müxalifətinə verdiyi dəstək ölkənin daxili siyasətini daha da mürəkkəbləşdirir. Bu addım bəzən "rəngli inqilablar" adlandırılan prosesləri xatırladır və müxalifətin siyasi məqsədlərinə uyğun hərəkət etməsi üçün təzyiq göstərir. Bu isə ölkənin siyasi müstəqilliyinə və suverenliyinə təhdid yaradır.

Müsahibimizin dediyindən əlavə, Qərbin tətbiq etdiyi sanksiyalar və təzyiqlər yalnız siyasi səbəblərlə bağlıdır və heç bir hüquqi əsası yoxdur. Gürcüstanın Baş naziri İrakli Kobaxidze dəfələrlə bildirib ki, ölkə Qərbin tətbiq etdiyi bu təzyiqləri qəbul etməyəcək və onların Gürcüstanın daxili məsələlərinə müdaxiləsini rədd edəcək.

Eyni zamanda, Gürcüstanın Avropa ilə münasibətləri artıq təkcə siyasi müstəvidə deyil, həm də dəyərlər müstəvisində gedən bir mübarizəyə çevrilib. "Molotov kokteyli" hadisəsi yalnız bir etirazın və ya zorakılığın simvolu olmaqdan daha çox Brüssellə Tbilisi arasında dəyərlər qarşıdurmasının metaforası kimi qiymətləndirilir.

Yada salaq ki, Gürcüstanda baş vermiş etiraz aksiyaları zamanı bir nümayişçinin – Lazar Qriqoriadisin "Molotov kokteyli" atması və bu hadisəyə görə azadlıqdan məhrum edilməsi, daha sonra isə prezident tərəfindən əfv olunması ətrafında yaranan diskussiya artıq rəmzi xarakter alıb. Parlamentin sədri Şalva Papuaşvili Brüssel dairələrini "Molotov kokteyli"nə haqq qazandırmaqda" günahlandıraraq bəyan edib: "Siz bizimlə dəyərləri paylaşmaq əvəzinə, küçə zorakılığını legitimləşdirirsiniz".

Beləliklə, Gürcüstan həm daxili sabitliyi qorumağa, həm də beynəlxalq münasibətlərdə balansı saxlamağa çalışır. Baş nazir Kobaxidze dəfələrlə bildirib ki, Gürcüstanın daxili məsələlərində Qərbin təzyiqləri yalnız siyasi səbəblərə əsaslanır və buna müqavimət göstərilməlidir. Bu yanaşma Gürcüstanın yalnız suverenliyini deyil, həm də siyasi gələcəyini təyin edəcək ən vacib məsələyə çevrilib. Son zamanlar Gürcüstanda ictimai rəydə baş verən dəyişikliklər də bunu göstərir. "Eurobarometr"in son hesabatına görə, gürcü vətəndaşlarının Aİ-yə olan etimadı bir ildə 66 faizdən 49 faizə düşüb. Bu, cəmiyyətin əhəmiyyətli bir hissəsinin Qərbin Gürcüstandakı siyasi proseslərə müdaxiləsinə qarşı çıxış etdiyini və yerli hökumətə inamın artdığını göstərir. Gürcüstanın öz suverenliyini qorumaq üçün cəhdləri, postsovet məkanında Qərbin təsirinin və müdaxiləsinin necə qiymətləndirildiyi ilə bağlı daha geniş bir sual doğurur.

Gürcüstanın Avropa ilə yaxınlaşma istəyinin, eyni zamanda, öz siyasi müstəqilliyini qoruma arzusu arasında gedən mübarizə ölkənin gələcəyini müəyyən edəcək mühüm amildir. Bu mübarizə yalnız Gürcüstanın deyil, həm də digər postsovet ölkələrinin Qərblə münasibətlərinin necə inkişaf edəcəyini və beynəlxalq siyasətdə hansı mövqeləri tutacaqlarını göstərəcək.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Orta Dəhliz regional əməkdaşlığa geniş meydan açır

**İqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev Bakıda keçirilən "Türkiyə –Azərbaycan İş Adamları və Sənayeçiləri" İctimai Birliyinin 6-cı yığıncağındakı çıxışında Asiya və Avropanı birləşdirən Orta Dəhlizin regional əməkdaşlıq, korporativ həllər, ticarət və investisiyaları təşviq etdiyini bildirib.**

Onun sözlərinə görə, Azərbaycan bu nəqliyyat dəhlizinin tranzit potensialının genişləndirilməsində maraqlıdır. Bu kommunikasiya respublikanın regional tərəfdaşları, o cümlədən Türkiyə və Mərkəzi Asiya ölkələri ilə iqtisadi-ticarət əlaqələrini gücləndirir. Azərbaycan öz ərazisindən keçən nəqliyyat dəhlizlərinin və Xəzər dənizinin nəqliyyat-tranzit potensialının artırılmasına böyük önəm verir.

E.Əliyev qeyd edib ki, Azərbaycanın Türkiyə ilə nəqliyyat-logistika sahəsində əlaqələri strateji xarakter daşıyır. Bu sahədə tərəfdaşlığın inkişaf etməsi məmnunluq doğurur. Orta Dəhliz boyu ölkəmizdən keçən nəqliyyat dəhlizləri, Bakı Dəniz Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu xətti və digər layihələr Azərbaycandan, Türkiyə vasitəsilə Avropaya və əks istiqamətdə yüklərin daşınması üçün ən qısa və səmərəli nəqliyyat marşrutlarını formalaşdırır.

Azərbaycan bu çərçivədə Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin fəal iştirakçısı kimi, öz hesabına dəmir yolu, avtomobil nəqliyyatı və hava nəqliyyatı ilə bağlı infrastruktur layihələrinə investisiya yatırıb. Eyni zamanda, Qars-Naxçıvan dəmir yolu layihəsini isə Orta Dəhlizin yeni bir qolunun yaranması kimi qiymətləndirib.

Yeri gəlmişkən, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev bu günlərdə ölkəmizdə səfərdə olan Almaniya İqtisadiyyatının Şərq Komitəsinin sədri Mixael Harms ilə görüşündə ölkəmizdən keçən nəqliyyat dəhlizləri, xüsusilə Orta Dəhlizin inkişafı və əhəmiyyəti barədə fikir mübadiləsi apardığını qeyd edib. Rəşad Nəbiyev Mixael Harms ilə söhbətində alman logistika şirkətlərinin Orta Dəhlizin potensialından yararlanması imkanlarını müzakirə etdiyini də bildirib.

Yuxarıda vurğulanan fikirlərə əlavə olaraq qeyd edək ki, Azərbaycan son illərdə geostrateji mövqeyindən səmərəli istifadə edərək özünü regional və qlobal nəqliyyat – tranzit mərkəzinə çevirmək istiqamətində mühüm addımlar atır. Ölkənin Avropa ilə Asiya arasında yerləşməsi, həmçinin Xəzər dənizinə çıxışı bu sahədə təbii üstünlüklər yaradır. Bu kontekstdə Orta Dəhliz, yəni Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu Azərbaycanın strateji baxışında mühüm yer tutur.

Orta Dəhliz Çin, Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan və daha sonra Avropa ölkələrinə qədər uzanan mühüm nəqliyyat arteriyasıdır. Bu marşrut, xüsusilə Şimal və Cənub dəhlizlərinə alternativ kimi çıxış etməklə yükdaşıma müddətini və məsafəsini əhəmiyyətli dərəcədə azaldır. Ənənəvi Şimal marşrutundan fərqli olaraq, Orta Dəhliz daha sabit və təhlükəsiz alternativ kimi aktuallıq qazanır.

Azərbaycan bu dəhlizin əsas halqalarından biri kimi infrastrukturun modernləşdirilməsinə və beynəlxalq əməkdaşlığa ciddi yatırım edir. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı –Tbilisi – Qars dəmir yolu, eləcə də yeni avtomobil magistralları ölkənin tranzit imkanlarını genişləndirir. Bu layihələr Orta Dəhlizin buraxıcılıq qabiliyyətini artırmaqla yanaşı, Azərbaycan iqtisadiyyatının şaxələndirilməsinə də töhfə verir.

Xəzər dənizində daşımaların təşkili də Azərbaycanın nəqliyyat siyasətində prioritet istiqamətlərdəndir. Bakı limanı artıq təkcə ölkədaxili deyil, regional yük dövriyyəsinin də əsas mərkəzinə çevrilib. Dənizdə konteyner daşımalarının genişlənməsi, logistik xidmətlərin təkmilləşdirilməsi və rəqəmsallaşdırılması regional




tranzitdə Azərbaycanın mövqeyini daha da gücləndirir.

Beynəlxalq tərəfdaşlarla əməkdaşlıq, o cümlədən Türkiyə, Qazaxıstan, Gürcüstan və Avropa İttifaqı ilə əlaqələrin dərinləşdirilməsi də Orta Dəhlizin uğurla inkişaf etdirilməsində mühüm rol oynayır. Azərbaycanın təşəbbüsü ilə keçirilən Bakı Prosesi və digər regional forumlar dəhlizin inkişafında koordinasiyanı gerçəkləşdirir.

Beləliklə, Orta Dəhlizin inkişafı təkcə Azərbaycan üçün deyil, bütün region üçün iqtisadi inteqrasiya, ticarətin artması və nəqliyyat təhlükəsizliyi baxımından böyük əhəmiyyət daşıyır. Azərbaycanın bu sahədə həyata keçirdiyi məqsədyönlü siyasət respublikamızı Avrasiya məkanında etibarlı tranzit ölkəsi kimi möhkəmləndirir və milli maraqlara xidmət edən strateji mövqe qazandırır.

Prezident İlham Əliyevin sözlərinə görə, Azərbaycan bağlantı layihələrindən böyük həcmdə mənfəət əldə olunacağına ümid edir. Şimal–Cənub və Şərq–Qərb nəqliyyat dəhlizlərindən Azərbaycan ərazisindən keçən, müxtəlif istiqamətlərə daşınan 10 milyonlarla ton əlavə yükün respublika büdcəsinə böyük həcmdə gəlir gətirəcəyi proqnozlaşdırılır. Bu, həm də məşğulluq, əlavə vəsait və Azərbaycanın geosiyasi əhəmiyyəti deməkdir.

Bu məqamda Orta Dəhlizin də respublikamız üçün mühüm önəm daşıdığını qeyd etmək istərdik. Xatırladaq ki, Rusiya – Ukrayna müharibəsi və Qərbin Moskvaya qarşı sanksiyaları Rusiyanın tranzit ölkə kimi, xüsusən də Avropa İttifaqı ilə Çin arasında quru əsaslı ticarət əlaqələrində səmərəliliyini məhdudlaşdırıb. Bu kontekstdə Orta Dəhliz dəmir yolu ticarəti üçün potensial alternativ marşrut kimi Çin, Avropa İttifaqı və daha geniş regionda şirkətlər və hökumətlərin diqqətini çəkməyi bacarıb.

Orta Dəhlizi bir dəyər zənciri də adlandırmaq olar. Amma daha geniş anlamda bu dəhlizin üstünlükləri və əhatə coğrafiyası Türk Dövlətləri Təşkilatının əsas əlaqələndiricisi kimi çıxış etməyə zəmin yaradır. Dəhlizin trayektoriyası da onun 1 trilyon ABŞ dollarından çox ümumi daxil məhsula malik Türk dövlətlərini birləşdirən bir layihə olduğunu deməyə tam əsas verir.

Beləliklə, Çin–Qazaxıstan sərhədindən başlayan Orta Dəhliz Mərkəzi Asiya ölkələri və Xəzər dənizi üzərindən, Azərbaycan, Gürcüstan və Türkiyə ərazisindən keçərək Asiyanı Avropa ilə birləşdirən marşrutdur. Regionda yaranmış münbit geosiyasi şəraitdə, Avropa və Asiya arasında ən qısa və rahat marşrut olan bu dəhlizə maraq getdikcə artır. Şimal dəhlizinə əsas alternativ olan Orta Dəhlizlə Çindən Avropaya 7 min kilometr məsafə qət etməklə daşınmalar mümkündür. Avropa ölkələri ilə Çin arasında illik ticarət dövriyyəsi 600 milyard dolların üzərindədir.

Orta Dəhliz Çindən gələn yüklərin Qazaxıstandan keçərək Xəzər dənizinə, Azərbaycana və oradan da Gürcüstan və Türkiyə üzərindən Avropadakı son təyinat ölkələrinə çatmasına imkan yaradır. Bu baxımdan dəhlizin və bu infrastrukturun bir hissəsi kimi Bak – Tbilisi – Qars dəmir yolu böyük əhəmiyyətə malikdir.

Azərbaycan ilə Çin arasında iqtisadi – ticari sahədə də əməkdaşlıq üçün olduqca böyük potensial var. Azərbaycan Çini təkcə dost ölkə deyil, həm də bilik, təcrübə və texnoloji tərəqqi mənbəyi kimi dəyərləndirir. İki ölkənin iqtisadi-ticari münasibətlərində davamlı inkişaf nəzərə çarpır. Azərbaycan milli prioritetlərdən biri olan rəqəmsal və "yaşıl" keçid sahələrində Çini tərəfdaş kimi görür. Bu istiqamətdə əməkdaşlıq çərçivəsində Azərbaycanda bərpa-olunan enerji avadanlığı və elektrik avtomobillərinin birgə istehsalı mümkündür. Çinin ölkəmizdə günəş elektrik stansiyası üçün panellər hazırlaması da bu fikrin parlaq nümunəsidir. Məsələn, Qaradağ Günəş Elektrik Stansiyasında 550 hektar ərazini əhatə edən elektrik stansiyasında 570 min günəş paneli quraşdırılıb. Bu panellər Çinin "Longi" şirkəti tərəfindən hazırlanıb. Ümumiyyətlə, Çində günəş panellərinin kütləvi istehsalı qlobal panel qiymətlərinin 80 faiz azaldılması və bu enerji növünün milyonlarla insan üçün əlçatanlığının gerçəkləşməsi ilə nəticələnib.

# Almaniya şirkəti ilə qaz satışı müqaviləsi imzalanıb




**Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) ilə Almaniyanın SEFE (Securing Energy for Europe) dövlət enerji şirkəti arasında təbii qaz alışı üzrə 10 illik müqavilə imzalanıb. Sənədə əsasən, SOCAR tərəfindən qaz həcmləri Avropada SEFE-yə təchiz ediləcək.**

Qurumdan verilən məlumata görə, llik tədarük həcmi isə mərhələli şəkildə artırılaraq 15 terevatt–saat, yəni təxminən 1,5 milyard kubmetrə çatdırılacaq. Bildirilib ki, bu əməkdaşlıq hasilat və infrastruktur, o cümlədən qaz kompressorları sahəsində investisiyaları dəstəkləməklə Avropaya daha çox boru xətti qazının çatdırılmasını təmin edəcək və qitənin enerji təhlükəsizliyinə töhfə verəcək.

Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Rövşən Nəcəf deyib: "Bu razılaşma SOCAR-ın Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsi istiqamətindəki fəaliyyətində növbəti önəmli mərhələdir. SEFE-yə etibarlı və iri həcmdə təbii qaz təchiz etməklə biz Azərbaycan ilə Almaniya arasında mövcud tərəfdaşlığı daha da möhkəmləndiririk, Avropanın enerji şaxələndirməsi və dayanıqlı inkişaf hədəflərinə töhfə veririk. SOCAR bundan sonra da infrastruktur və hasilat üzrə layihələrə sərmayə qoyaraq tərəfdaşlarımız üçün təhlükəsiz və fasiləsiz enerji təchizatının təmin olunmasını davam etdirəcək".

SEFE-nin baş icraçı direktoru Egbert Laege deyib: "Bu uzunmüddətli müqavilə Almaniya ilə Azərbaycan arasında mövcud olan güclü münasibətlərin bariz nümunəsidir. Bu tərəfdaşlıq sayəsində Avropaya əhəmiyyətli həcmdə təbii qaz çatdırmaq üçün yeni bir marşrut formalaşdırılır, bu isə bizim portfelimizi şaxələndirməyə və müştərilərimizin enerji təchizatının təhlükəsizliyini artırmağa xidmət edir".

# Ölkəmizə Çin yatırımı 900 milyon dollara çatıb

**Çinin Azərbaycandakı səfiri Lu Mey Azərbaycan – Çin (Quandonq) İqtisadi və Ticarət Əməkdaşlığı Konfransındakı çıxışında ölkəsinin indiyədək respublikamıza 900 milyon dollar investisiya yatırdığını, Azərbaycanın Çinə qoyduğu investisiyanın məbləğinin isə 300 milyon dollar çatdığını bildirib. Səfir 2024-cü ildə iki ölkə arasında ticarət dövriyyəsinin 43,3 faiz artdığını qeyd edib.**



İqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev isə Azərbaycan – Çin (Quandonq) İqtisadi və Ticarət Əməkdaşlığı Konfransında çıxışında bu ölkənin respublikamızın 4-cü ən böyük ticarət tərəfdaşı olduğunu, cari ilin yanvar-aprel aylarında iki dövlət arasında ticarət dövriyyəsinin 37 faiz artaraq 1,4 milyard dolları üstələdiyini vurğulayıb. O qeyd edib ki, Azərbaycanın ticarət və şərab evləri artıq Çinin Pekin, Şanxay, Urumçi, Tsindao, Çendu, Nankin və Çjantszyatsze şəhərlərində fəaliyyət göstərir. Azərbaycan Ticarət Evi Çinin məşhur e-kommersiya platforması olan "JD"ə də fəaldır. Bu mərkəzlər ikitərəfli ticari münasibətlərimizin inkişafına töhfə verirlər.

Çin şirkətləri ölkəmizdə geniş miqyasda təmsil olunurlar. Cari il may ayının 1-nə olan məlumata görə, Azərbaycanda 320-yə yaxın Çin şirkəti sənaye, kənd təsərrüfatı, nəqliyyat, tikinti, ticarət və xidmət sektorlarında fəaliyyət göstərir. Hazırda Azərbaycanla Çin arasında qeyri – neft sektorunda, xüsusən yüksək texnologiyalara və innovasiyalara, alternativ və bərpa edilən energetikaya yönələn birbaşa investisiyaların cəlb olunması sahəsində birgə əməkdaşlığa dair danışıqlar aparılır.

Nazir müavini daha sonra qeyd edib ki, göstərilən səylər nəticəsində Çin şirkətləri ilə sənaye, yaşıl enerji, nəqliyyat, kənd təsərrüfatı, İKT və ipəkçilik kimi sahələrdə birgə layihələr həyata keçirilir. Azərbaycan bərpa olunan enerji mənbələri üzrə yüksək potensiala malik ölkələrdəndir. Belə ki, ölkəmizin bərpa olunan enerji mənbələrinin texniki potensialı quruda 135 QVt, dənizdə 157 QVt-dır.

Ölkəmizin günəş və külək enerjisi potensialı ilə Çinin "yaşıl" texnologiyalar sahəsindəki təcrübəsi sinerji yaradaraq birgə layihələrin reallaşdırılması üçün əlverişli mühit formalaşdırıb. Bakıda keçirilən COP29 tədbiri çərçivəsində Azərbaycan aparıcı Çin şirkətləri ilə genişmiqyaslı günəş və külək enerjisi layihələri, enerji saxlama sistemləri və "ağıllı" şəbəkə infrastrukturunun inkişafını əhatə edən mühüm sazişlər imzalayıb. Həmçinin Prezident İlham Əliyevin Çinə dövlət səfəri çərçivəsində Azərbaycanla Çin şirkət və qurumları arasında bərpaolunan enerji sahəsində əməkdaşlığa dair 6 sənəd imzalanıb.

# Milli süni intellekt standartları



**Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin tabeliyində olan Azərbaycan Standartlaşdırma İnstitutu (AZSTAND) tərəfindən AZS ISO/IEC 23894:2025 "İnformasiya texnologiyaları – Süni intellekt – Risklərin idarə edilməsi üzrə təlimat", AZS ISO/IEC 23053:2025 "Maşın öyrənməsindən istifadə edən süni intellekt sistemləri üçün çərçivə sənədi", AZS ISO/IEC 24029-2 2025 "Süni intellekt – Neyron şəbəkələrinin dayanıqlılığının qiymətləndirilməsi" dövlət standartları qəbul edilib.**

AZSTAND-dan redaksiyamıza verilən məlumata görə, sözügedən dövlət standartları süni intellekt sistemlərinin etimadı doğrultma mövzularını, o cümlədən bu sistemlərin əsas hesablama xüsusiyyətlərini, onlarda istifadə olunan vacib alqoritmlər və yanaşmaları müəyyənləşdirir.

Yeni dövlət standartlarının tətbiqində məqsəd süni intellekt sistemlərinin müxtəlif platformalarda və sahələrdə düzgün işləməsi üçün ümumi qaydalar və təlimatların yaradılmasını, həmçinin qarşılıqlı şəkildə işləməsini gerçəkləşdirməkdir.

Yeni dövlət standartları "İnformasiya-kommunikasiya texnologiyaları" standartlaşdırma üzrə Texniki Komitədə müzakirəyə çıxarılıb və institut tərəfindən təsdiqlənərək Standartlaşdırma üzrə normativ sənədlərin Dövlət Fonduna daxil edilib.

Qeyd edək ki, yeni dövlət standartları Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 mart tarixli 530 nömrəli sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt strategiyası"nın həyata keçirilməsi üzrə Tədbirlər Planının 8.1.5-ci yarımbəndinin icrası məqsədilə qəbul edilib.

# Qeyri-neft-qaz daxilolmaları da çoxalıb

**Cari ilin yanvar-may aylarında Azərbaycanda İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xəttilə dövlət büdcəsinə 7 milyard 843,3 milyon manata yaxın vergi daxil olub. Bununla da, proqnoza 105,7 faiz əməl edilib. Bu barədə Dövlət Vergi Xidmətindən məlumat verilib.**



Qeyd edilib ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə vergi daxilolmaları 344,2 milyon manat və ya 4,6 faiz artıb. Hesabat dövründə qeyri-neft-qaz sektorundan daxilolmalar 5 milyard 716,2 milyon manata yaxın təşkil edib. 2024-cü ilin eyni dövrü ilə müqayisədə bu sektordan vergi daxilolmaları 9,1 faiz çox olub. Ödənilən vergilərin 72,9 faizi qeyri-neft-qaz sektorunun, 27,1 faizi isə neft-qaz sektorunun payına düşüb.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Bakı beynəlxalq səhiyyə məclisləri mərkəzinə çevrilib

## *Bugünlərdə keçiriləcək Türkdilli Dövlətlər Birliyi Onkoloqlarının I Konqresində sahənin önəmli problemləri müzakirə ediləcək*

**Son illərdə ölkəmiz mühüm beynəlxalq məclislərə ev sahibliyi edib. Onkologiya ilə bağlı ötən ilin 4–10 iyulunda ilk Türk Dövlətləri Kardionkoloji Konqresinin, 29–30 noyabrında isə III Beynəlxalq Süd vəzi Xərçəngi Konqresinin keçirilməsi ölkəmizə göstərilən böyük etimadın göstəricisidir. Türkdilli Dövlətlər Birliyi Onkoloqlarının Birinci Konqresinin də bu il 13–14 iyunda Azərbaycan paytaxtında keçirilməsi planlaşdırılır.**



**Bununla bağlı Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Milli Onkologiya Mərkəzinin baş direktoru, akademik Cəmil Əliyevdən "Xalq qəzeti" üçün müsahibə aldıq. Akademik öncə konqres və onun Bakıda keçirilməsinin əhəmiyyətindən söz açdı:**

– Bizim üçün çox fərəhli haldır ki, belə mötəbər bir məclis ilk dəfə məhz ölkəmizdə – Bakı şəhərində keçirilir. Konqresdə türkdilli dövlətlərdən Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan və Şimali Kipr Türk Cümhuriyyətindən dəvət olunan konqres iştirakçıları – onkoloqlar iştirak edəcək, öz ölkələrində onkoloji xidmətin təşkili, onkologiya sahəsində olan problemlər, əhali arasında bədxassəli şişlərin rastgəlmə tezliyi, müayinə və müalicəsinə müasir yanaşma və sair mövzularda çıxışlar edəcək, fikir, təcrübə mübadiləsi aparacaqlar.



Qeyd etmək lazımdır ki, Azərbaycanda onkologiya sahəsində əhaliyə tibbi xidmət ölkə Prezidenti İlham Əliyevin təsdiq etdiyi "Onkoloji yardım haqqında" Qanun (23 may 2006-cı il), eyni zamanda, "Əhalinin sağlamlığının qorunması haqqında" (26 iyun 1997-ci il) Azərbaycan Respublikasının Qanunu və digər rəsmi sənədlərlə yanaşı, Ümumdünya Səhiyyə Təşkilatı, Xərçəng xəstəliyinin tədqiqi Beynəlxalq agentlik (The International Agency for Research on Cancer – IARC) və digər müvafiq beynəlxalq təşkilatların tövsiyə etdiyi proqramlar əsasında həyata keçirilir. Digər türkdilli dövlətlərdə bədxassəli şişlərlə mübarizə proqramlarının hansı hüquqi dövlət sənədləri əsasında həyata keçirildiyi, onların müsbət və ya mənfi nəticələri, əhalinin və ilk növbədə xəstələrin bütün təbəqələrinin müasir müayinə, müalicə metodlarına əlçatanlıq problemləri müzakirə ediləcək, fikir mübadiləsi aparılacaqdır. Ümid edirik ki, toplantımız yüksək işgüzarlıq şəraitində keçəcək, qarşımıza qoyduğumuz məqsədlərimizə uğurla nail olacağıq. Konqresin nəticələrinin bizi onkologiya sahəsində beynəlxalq əməkdaşlığa daha bir addım da yaxınlaşdıracağına əminik.

**– Beynəlxalq səhiyyə təşkilatları ilə bu sahədə əməkdaşlığın mütəxəssis – onkoloqlarımızın ən son elmi yeniliklərdən istifadə etməsinə nə kimi təsiri var?**

– Milli Onkologiya Mərkəzinin əməkdaşları vaxtaşırı olaraq ABŞ, Avropa, qardaş Türkiyə Cümhuriyyəti və digər ölkələrin aparıcı onkoloji klinikalarında peşəkarlıqlarını yüksəldirlər. Onkologiyada müasir müayinə, müalicə üsulları ilə tanış olur, onların tətbiqini daim izləyir, həmin klinikalarda təlim və təcrübə keçir, kurslarda iştirak edirlər. Milli Onkologiya Mərkəzinin dünyanın bir çox aparıcı klinikaları – İtaliya Cancer Aid International Onlus (2010), Milan Milli Xərçəng İnstitutu və Milan San Raffaele Xəstəxanası (2011), ABŞ MD Anderson Xərçəng Mərkəzi (2015), Türkiyə Respublikası Qazi Universiteti (2015), Hacettəpə Universiteti (2018), Ege Universiteti (2022), Fransa Beynəlxalq Profilaktika Tədqiqat İnstitutu (International Prevention Research Institute, 2018), Rusiya Federasiyası "Санкт-Петербургский клинический научно-практический центр специализированных видов медицинской помощи (онкологический) имени Н.П. Напалкова" (2024), Qazaxıstan Onkologiya və Radiologiya Elmi-Tədqiqat İnstitutu (2024) və digərləri ilə imzalanan elmi-praktik əməkdaşlıq haqqında müqavilələr bu işləri həyata keçirməyə imkan və şərait yaradır. Əməkdaşlarımız onkologiya sahəsində beynəlxalq elmi forumların – konfrans, konqres və digər toplantıların fəal iştirakçıları, Bakı şəhəri isə bu forumların təşkil olunduğu müasir, aktiv platformadır. Yeni, proqressiv bilgilər imkan daxilində bizim klinikada tətbiq edilir, elmi tədqiqatlar həyata keçirilir.

Digər türkdilli dövlətlərdə onkologiya sahəsində aparılan kadr hazırlığı, elmi işlərin aparılması, yeni texnologiyaların alınması, onlardan və o cümlədən, süni intellekt proqramlarından klinikada istifadə olunması və digər çoxsaylı problemlərin müzakirə edilməsi optimal həll yollarının təklif olunmasına şərait yaradacaqdır. Məsələn, son illərdə immunoonkologiya sahəsində aparılan elmi tədqiqatların nəticələri bədxassəli şişlərin müayinə və müalicəsində pozitiv sıçrayışlar olmasını proqnozlaşdırmağa əsas verir. İnnovativ, qeyri-invaziv, az vaxt, zəhmət tələb edən və xəstənin sağlamlığı üçün təhlükə yaratmayan, orqanizmdə xərçəng hüceyrələrinin mövcudluğunu göstərə biləcək DNT və RNT-dəki mutasiyaların axtarışına əsaslanan maye biopsiyanı (qan, limfa, onurğa beyini mayesi, ağız suyu, sidik, tər və s.) misal göstərə bilərik. Bu tədqiqat üsulu, xərçəngi erkən mərhələdə təyin etməyə kömək edir. Erkən aşkarlanan xəstəliyin müalicəsi də daha yüksək müsbət nəticə almağa və həyat qurtarmağa imkan verir.

Digər misal, xərçəng kök hüceyrələri markerlərinin öyrənilməsidir. Şiş kök hüceyrələri kök hüceyrə xüsusiyyətlərinə malikdirlər, yəni özlərini yeniləyə və diferensiasiya edə bilirlər. Onlar şişin böyüməsində və metastaz verməsində, həmçinin müalicəyə qarşı davamlılığın inkişafında mühüm rol oynayırlar. Şiş kök hüceyrələri markerlərinin tədqiqi radikal müalicə nəticəsində tam remissiyada (şişin tam sorulması) olan pasientlərdə residiv, metastazlar olmasını proqnozlaşdırmağa, onlara əlavə şiş əleyhinə müalicənin, o cümlədən hədəf preparatların təyin edilib-edilməməsinə göstərişləri təyin etməyə imkan verə bilər.

**– Konqresdə müzakirə olunan mövzular türkdilli dövlətlər arasında tibbi əməkdaşlığın gücləndirilməsinə, xəstəliklərin müalicəsində uğurlu nəticələr əldə olunmasına, problemlərin həll yollarına necə təsir edəcək?**

– Türkdilli Dövlətlər Birliyi Onkoloqlarının Birinci Konqresində müxtəlif mövzulu məruzələrdə qeyd olunan problemlərin müzakirəsində əsas məqsəd bu ölkələrin vətəndaşları arasında onkoloji xəstəliklərin profilaktikası, onların ilkin mərhələlərdə diaqnostikası, xəstələrin müalicəsində yüksək effektli, müasir, səmərəli üsulların tətbiqi və xəstəliyin son mərhələlərində olan pasiyentlərə optimal tibbi, sosial və psixoloji yardımın necə təşkil olunması və onların nəticələri ilə tanış olmaqdır.

**Qarşıya qoyulan məqsədə uyğun olaraq aşağıdakı vəzifələri xüsusi qeyd etmək lazımdır:**

**– Onkoloji xəstələrə tibbi yardım sahəsində qanunvericiliyin təkmilləşdirilməsi;**

**– mərkəzi, regional və hospital xərçəng registrlərin yaradılması;**

**– onkoloji xəstəliklərin epidemioloji aspektlərinin tədqiqi;**

**– onkoloji xəstəliklərin profilaktikası, müayinəsi, müalicəsi, palliativ yardım və reabilitasiya sisteminin təkmilləşdirilməsi;**

**– onkoloji xəstəliklərə qarşı mübarizədə ailə həkimlərinin digər mütəxəssis-lərlə birgə rolunun yüksəldilməsi;**

**– bu mübarizənin müasir səviyyədə həyata keçirilməsi üçün kadrların peşəkarlığının artırılması və tibb müəssisələrinin maddi-texniki imkanlarının gücləndirilməsi;**

**– onkoloji xəstəliklərə qarşı dövlət proqramının digər milli proqramlarla əlaqələndirilməsi;**

**– Türkdilli Dövlətlər Birliyi onkoloqlarının bədxassəli şişlərin müxtəlif aspektlərinin tədqiqinə həsr edilmiş birgə elmi işlərinin planlaşdırılması və həyata keçirilməsi.**

Qeyd etmək lazımdır ki, elmi-texniki tərəqqinin, rəqəmsal texnologiyaların, süni intellektin kliniki təbabətə inteqrasiyası, bazar iqtisadiyyatı, humanist təbabətin kommersiya təbabətinə keçidi ənənəvi, klassik tibbi deontologiyanın insanlara qayğı, sevgi prinsipini dəyişməməlidir. Həkimlik yalnız bilik, təcrübə, müalicə prosesi, onlara nəzarət deyil, xəstələrlə səmimi ünsiyyətə girmək, çətinliklərini anlamaq və onları öz doğma problemləri kimi hiss etməkdir (empatiya). Əfsuslar olsun ki, sürətlə və fəal "qloballaşan" dünyada öz peşələrini yüksək səviyyədə bilən həkimlərdə empatiya məsələlərində anlaşılmazlıqlar müşahidə edilir. Məhz bu səbəbdən biz öz toplantılarımızda tibbi etika problemlərinin zaman müstəvisi kontekstində həmişə geniş müzakirəsini vacib hesab edirik.

Digər prioritet məsələ süni intellektin onkologiya sahəsində tətbiqidir. Məsələn, Avropa səhiyyə sistemində süni intellektin dəyəri 2016-cı ildə 270 milyon dollar təşkil edirdisə, bu rəqəm 2025-ci ilin sonuna 28 milyard dollara qədər yüksələcəkdir. ABŞ maliyyə bazarında süni intellektin tibbə tətbiqi 2022-ci ildə 15,1 milyard dollar olmuşdursa, 2030-cu ildə bu rəqəmin 187,95 milyard dollara qədər yüksəlməsi proqnozlaşdırılır. Məhz bu səbəbdən göstərilən problemin onkoloqlar tərəfindən öyrənilməsi və klinikada tətbiqi vacib faktordur.

Yuxarıda göstərilən elmi-praktiki işlərin həyata keçirilməsi üçün əlaqələndirici şuranın yaradılmasını məqsədəuyğun hesab edirik. Eyni zamanda, Türkdilli Dövlətlər Birliyi onkoloqlarının 6 ayda bir dəfə çap olunan elmi-praktiki jurnalının təsis edilməsi təklifi ilə həmkarlarımıza müraciət etmək fikrindəyik.

Bütün göstərilən problemlərin təhlili, alınmış nəticələr əsasında praktiki addımların atılması onkoloji xəstəliklərin rastgəlmə tezliyinin azalması, onların diaqnostika və müalicəsinin nəticələrinin və xəstələrin yaşama, həyat keyfiyyəti göstəricilərinin xeyli yüksəlməsinə səbəb ola bilər.

**– Cəmil müəllim, Azərbaycanda ilk dəfə sizin rəhbərliyinizlə Uşaq Onkoloji Klinikası yaradılmışdır. Konqresdə uşaqlarda rast gələn bədxassəli şişlərin diaqnostika və müalicə problemləri də müzakirə olunacaqmı?**

– Biz Uşaq Onkoloji Klinikasını yaradan zaman ölkədə müvafiq ixtisaslı kadrların və bu sahədə təcrübəmizin olmaması səbəbindən bir çox çətinliklərlə üzləşmişdik. Qısa zaman ərzində dünyanın aparıcı klinikalarında yerli pediatr onkoloq kadrları hazırlandı. Klinikanın fəaliyyətə başladığı ilk vaxtlarda işlərin daha professional həyata keçirilməsi və yerli kadrların işlərinə nəzarət üçün xaricdən ixtisaslı kadrlar dəvət edildi.



Qeyd etməliyəm ki, Uşaq Onkoloji Klinikasının yaradılmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın böyük əməyi var. 2012-ci il martın 7-də Milli Onkologiya Mərkəzinin nəzdində regionda ilk olan Uşaq Onkoloji Klinikası fəaliyyətə başladı. Hazıda klinikada uşaq cərrahiyyə, uşaq kimyaterapiya, uşaq şüa terapiya şöbələri fəaliyyət göstərir. Hər il ölkədə 300-ə yaxın uşaqda onkoloji patologiya aşkar edilir və onlarda şiş əleyhinə müalicənin bütün üsulları mükəmməlliklə icra edilir.

Qeyd etmək lazımdır ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, Leyla xanım Əliyeva Uşaq Onkoloji Klinikasında uşaqların gözlədiyi sevimli qonaqdır. O, ayda bir neçə dəfə klinikanı ziyarət edir, uşaqları maraqlı hədiyyələrlə sevindirir, orada həyata keçirilən müayinə, müalicə prosedurlarının müasir səviyyədə aparılması üçün müvafiq yardımlar edir.

Konqresdə ayrı bir bölmədə pediatrik onkologiyada rast gəlinən bədxassəli şişlərin diaqnostika və müalicəsinə həsr edilmiş çıxışlar, müzakirələr həyata keçiriləcək.

**– Dünyada əhali arasında xərçəng xəstələrinin sayında ildən-ilə yüksəlmə tendensiyası müşahidə edilir. Bizim ölkəmizdə bu göstəricilərin dinamikası necədir?**

– Xərçəng xəstəliyinin tədqiqi Beynəlxalq agentlik (The International Agency for Research on Cancer- IARC) GLOBOCAN-ın məlumatına görə, dünyada insanların bədxassəli şişlərlə xəstələnmə göstəriciləri ildən-ilə artır. 2022-ci ildə dünyada 100 min nəfər əhalidən 196,6-sında (yaşa görə standartlaşdırılmış xəstələnmə göstəricisi) bədxassəli şiş təyin edilmişdir və dünya üzrə birincili xəstələrin sayı 20 milyona yaxın olmuşdur. ABŞ-da bu göstərici daha yüksək – 367, Hindistanda isə aşağı – 98,5 təyin edilmişdir. Müraciət edənlərdə ən çox ağciyər, süd vəzi, yoğun bağırsaq, prostat və mədə xərçəngi müşahidə edilmişdir. Son illərdə Azərbaycanda bədxassəli şişlərlə standart xəstələnmə göstəricisi 150–160 arasında dəyişir, nəzərəçarpaçaq yüksəlmə təyin edilmir. Kişilərdə daha çox ağciyər, mədə, kolorektal, qadınlarda isə süd vəzi, mədə, uşaqlıq boynu və kolorektal xərçəng aşkar edilir.

**– Bütün onkoloji xəstələri narahat edən vacib sual dəfələrlə Milli Məclisdə də səsləndirilib. Onkoloji xəstəliklərin müayinə və müalicə xərcləri nə vaxt icbari tibbi sığorta zərfinə daxil ediləcək? Aztəminatlı təbəqə üçün müayinə və müalicənin əlçatanlığı üçün hansı işlər görülür?**

– Müasir təbabətdə bədxassəli şişlərin profilaktikası, erkən mərhələlərdə təyini, pasientlərin müayinə və müalicəsi, reabilitasiya tədbirləri, xəstələrə palliativ yardımın təşkili çox spektrli metodları əhatə edən uzunmüddətli mürəkkəb bir proses, olduqca geniş bir sahədir. Müalicə çoxprofillidir və bura cərrahiyyə, şüa terapiyası, kimyaterapiya, immunoterapiya, hədəf terapiyası və s. daxildir və onlar ayrılıqda və ya birlikdə, müəyyən ardıcıllıqla aparılır. Eyni zamanda, diaqnozun dəqiqləşdirilməsi üçün bir çox hallarda "ikinci tibbi rəy" alınmasına ehtiyac yaranır. Xəstələrin müalicəsi, reabilitasiya tədbirləri də daxil olmaqla aylar və hətta illərlə davam edə bilər. Klinikada xərçəng xəstəliyinin mərhələsi, patoloji prosesin xüsusiyyətləri, xəstənin ümumi sağlamlıq durumundan asılı olaraq aparılan müalicə və müalicə prosesində yaranan reaksiya, fəsadların qarşısının alınması üçün müvafiq yanaşma strategiyaları, protokolları mövcuddur.

Son illərdə fərdi tibbin inkişafı xərçəng xəstəliyinin müalicəsini daha da mürəkkəbləşdirib və bu müalicə artıq xəstənin şişinin genetik tərkibinə əsaslanan fərdi terapiya ilə həyata keçirilir. Bu yanaşma yüksək səviyyəli diaqnostika imkanlarının və o cümlədən, molekulyar biologiya metodlarının klinikaya tətbiqini tələb edir. Bir çox hallarda konkret xəstənin müalicəsinin nəticələri – öncədən düşünülmüş proqnoz gözlənilməz ola bilər ki, bu da risklərin qiymətləndirilməsini çətinləşdirir. Nəhayət, müalicə prosesini çoxprofilli komanda həyata keçirir və onların əlaqələndirməsi vacib şərtdir. Bu koordinasiya çətin olsa da, xərçəngin kompleks müalicəsi üçün həlledici əhəmiyyətə malikdir.

Xərçəng xəstələrinin yuxarıda qeyd etdiyim müayinə və müalicə problemlərinin icbari tibbi sığorta zərfinə daxil edilməsi sualına gəlincə, burada öncə çətinliklərin mövcudluğunu deyə bilərik. Onkologiyada sığorta tibbinin təşkilində əsas çətinliklərdən biri müayinə və müalicənin yüksək maliyyə vəsaiti tələb etməsi və uzunmüddətli olmasıdır. Bu amillər sığorta şirkətlərinin xərc öhdəliklərini qarşılamaqda çətinlik yaranmasına səbəb ola bilər. Digər ölkələrdə sığorta sisteminin onkologiyada tətbiqinin təhlili göstərir ki, bütün amillər – müalicə protokollarının fərqliliyi və pasiyentlərin ehtiyaclarının dəyişkənliyi standart sığorta mexanizmlərini bu sahədə qeyri-effektiv edə bilər və bu səbəbdən sistemin optimal və dinamik olması vacibdir.

Qəzetiniz vasitəsi ilə vətəndaşlarımızı əmin edirəm ki, ölkəmizdə göstərilən problemin həlli üçün müvafiq dövlət strukturları birlikdə intensiv çalışırlar və yaxın gələcəkdə bu problem yüksək keyfiyyət kriteriyalarını əsas götürməklə öz həllini tapacaq.

*Müsahibəni hazırladı:*
***Zərifə HÜSEYNOVA***
***XQ***

# Əqidə yolçusunun “Azərbaycannaməsi”

## *Sabir Rüstəmxanlının əsərlərinin 15 cildliyi ictimaiyyətə təqdim olunub*

**Xəbər verildiyi kimi, Xalq şairi, Dünya Azərbaycanlıları Konqresinin həmsədri, tanınmış ictimai-siyasi xadim Sabir Rüstəmxanlının əsərlərinin 15 cildliyi nəşr edilib. 1970-ci ildə “Gənclik” nəşriyyatında “Tanımaq istəsən” adlı 40 səhifəlik ilk kitabı 4500 tirajla çıxan müəllif bu gün ölkənin ən ünlü qələm sahiblərindəndir.**

Sabir müəllimin ilk kitabı ilə bağlı maraqlı xatirəsi var: “Bu, şəhərli bir qıza sevgi ünvanı idi. 24 yaşım vardı. Deyirdim ki, əgər məni tanımaq istəyirsənsə, doğulduğum kəndə, dağlara gəlməlisən, böyüdüyüm mühiti görməlisən. Onda məni duya bilərsən. Şeirin məzmunu budur. Kitabın ümumi məzmunu isə bir vətəndaşlıq səciyyəsi daşıyır. Cavan söz adamı, şeir həvəskarı kimi gəlmişəm bu meydana. Əgər məni tanımaq istəyirsənsə, bu kitabı oxu – kitabın qayəsi budur. Bu kitab şeirə bir vəsiqəm, ədəbiyyata bir vətəndaşlıq pasportum idi”.

**Gəl tutub əl-ələ qaçaq bu gündən,**
**Qayıdaq öz uşaq keçmişimizə.**
**Utancaq, mehriban, dəli, qüssəli,**
**Yolları dolaşıq keçmişimizə...**

Ardınca şairin bir neçə il fərqlə “Sevgim, sevincim”, “Xəbər gözləyirəm”, “Gəncə qapısı”, “Sağ ol, ana dilim”, “Qan yaddaşı” kitabları çıxıb. Sonra Sabir Rüstəmxanlı “Ömür kitabı”nı vərəqləyib, “Bütövlük həsrəti” ilə qovrulub, “Xətai Yurdu”nda “Bu, sənin xalqındır”, “Sağ ol, ana dilim” söyləyib, “Atamın ruhu”na, “Göy tanrı”ya üz tutub, “Tanrının elçisi” Oğuz xanla ucalıb, “Ömür kitabı”nda “Əbədi sevda”sına qovuşub, “Difai fədailəri”nə qoşulub, taleyimizin “Astar”ını üzünə çevirib və dünyanın bir çox ölkəsində çap olunan 50-dən yuxarı kitabın yazarı kimi tanınıb, sevilib. Bu yolda “Sunami”yə də düşüb, “Sənsizliyi yaşamaq” da yazılıb qismətinə. Və nə xoş ki, Azərbaycanın Müstəqillik Aktına imza atanlardan olub, 44 günlük Vətən müharibəsindən sonra “Qarabağa dönüş” (poema) edib.

Çoxcildliyinin çapı ilə əlaqədar redaksiyamızın qonağı olan görkəmli ziyalı ilə söhbəti oxuculara təqdim edirik.

**– Sabir müəllim, 60 illik bədii, elmi-publisistik yaradıcılığınızın yekunu olan çoxcildliyin işıq üzü görməsi münasibətilə sizi təbrik edirik. AMEA-nın Mərkəzi Elmi Kitabxanasında da sanballı bir təqdimat oldu. “Akademikin son əsəri” adlı maraqlı romanı olan müəllifin külliyatının məhz orada təqdim edilməsi, bəlkə də bir qanunauyğunluq idi. Tədbirə akademiklər, professorlar, şair və yazıçılar toplaşmışdı. Hamı da ürəkdən danışırdı...**

– Çox sağ olun. 15 cildlik əsərlərimin çapından sonra sanki çiynimdən bir yük götürülüb. O mənada yox ki, daha yazı-pozu işlərinə nöqtə qoydum. Əksinə, iş daha da artıb. Sadəcə olaraq, 2021-ci ildə seçilmiş əsərlərimin nəşrinə başlayanda bunun belə ağır bir iş olduğunu bilmirdim. Yazıların tarixini müəyyənləşdirmək, xronologiya üzrə düzmək, yenidən gözdən keçirmək xeyli vaxt və qüvvə istəyir. Nəşr prosesinə də gərək nəzarət edəsən. Bu mənada, sonda dərindən bir nəfəs aldım. Hələ də yarımçıq yazılarım qalır, tamamlaya bilməmişəm. İndi buna bir qədər imkan var. Düşünürəm ki, şükür, bir iş başa çatdı, amma yol hələ başa çatmayıb, qüvvə də tükənməyib. Mərkəzi Elmi Kitabxanadakı təqdimat isə unudulmaz oldu. Düzdür, bütün yaradıcılıq gecələrim gur keçib, amma bu təqdimat – alim, yazıçı dostlarımın çıxışları, ordakı insanların münasibəti məni çox sevindirdi.

**– Bu görüşümüz həm də Şairlər Gününə (5 iyun) təsadüf edir. Buna görə də təbriklərimizi qəbul edin. Bu günlər, eyni zamanda, Mikayıl Müşfiqin və Vaqif Səmədoğlunun dünyaya gəldikləri tarixlə əlamətdardır. Bir qədər də bu barədə danışardınız.**

– Deyirlər ki, dünyada əvəzolunmaz adam yoxdur, amma mənə görə, heç kim heç kimi əvəz eləmir. Hər kəsin öz yeri var. Dünya elə qəribə yaranıb ki, 2 qum dənəsi də, iki insan da bir-birinə oxşamır və gedənin yerini gələn doldurmur. Hər kəs öz həyatını, öz taleyini yaşayır. Müşfiq Azərbaycan şeirində qeyri-adi, sel kimi bir ilham sahibi olan şair olub, acı tale yaşayıb – 29 yaş nədir ki... Onun haqqında görkəmli bəstəkar Cavanşir Quliyev bir oratoriya yazıb, sözləri mənə aiddir. O zaman Müşfiqin həyatını daha dərindən öyrənməyə çalışdım, sonda baxdım ki, yazdığım, əslində, bir pyesdir: Müşfiq, dostları, onun sevgisi, Səməd Vurğun, Gəncəyə getmələri, taleyinin sonrakı günləri... Düşündüm ki, teatrların birinə təqdim edim, amma Dövlət Akademik Milli Teatrında Müşfiq haqqında bir tamaşa getdiyini bilincə fikrimdən daşındım. Hər halda, oratoriyanın sözlərinin müəllifi olmağım məni sevindirir.

O gün böyük şairimiz Rəsul Rzanın ev-muzeyinin açılışında da dedim ki, Müşfiqin adına layiq bir muzey yaradılmalıdır. Bəzən bizdə belə məkanların açılmasına qısqanc yanaşılır, deyirlər çoxdur. Amma nə edək ki, istedadlı adamlarımız da çoxdur. Ulu öndər Heydər Əliyev azərbaycanlı şairlərə Sosialist Əməyi Qəhrəmanı adları veriləndə Moskvada deyiblər ki, çoxdur. Cavab verib ki, neyləyək, parlaq istedadı olanlarımız çoxdur. Ev-muzeyləri həm tarix üçündür, həm də yeni nəsil, məktəblilər ev-muzeylərinə getməklə yarım ildə, bir ildə oxuduqlarından daha çox bilgi əldə edirlər. Bu mənada ev-muzeyləri vacibdir.

Bir daha deyirəm, Müşfiqin Xızı yolundakı muzeyinə baxanda ürəyim ağrıyır. Orda balaca bir ev tikiblər. Yalnız sırf Müşfiqə aid olan əşyalar qoyulub. Amma, axı, bu, çox azdır. Nə masası qalıb, nə qələmi. Bununla belə, Müşfiq muzeyinin olması vacibdir. Yadıma Qabdulla Tukayın Tatarıstandakı ev muzeyi düşür. 24 il yaşayıb, buna baxmayaraq, muzeyi üçün 3 mərtəbəli gözəl bir buna ayrılıb. Onun dövrünə aid, onunla bir vaxtda yaşamış qələm dostlarına, tatar ziyalılarına aid şəkillər, hətta Qabdulla Tukayın oxumuş olduğu “Molla Nəsrəddin” jurnalının da şəkli var orda. Yaxud, Almaniyada “Höte Evi”ni görmüşəm. 18–19-cu əsrlər alman mədəniyyətinin bütün görkəmli simaları orda təqdim olunur. Əslində, Müşfiq muzeyi repressiya dövrünün muzeyi olmalıdır. Müşfiqlə yanaşı, acı tale yaşamış insanların tale yadigarları orda toplanmalıdır. Adamlar tez-tez ora getməlidirlər. Unudulmuş, cığırlarını kol-kos, ətrafını toz basmış o yeri görəndə adam utanır. Yəqin ki, Rəsul Rza muzeyinin açılışında dediklərim nəzərə alınar.

Vaqif Səmədoğlu isə dostumuz, əzizimiz idi. Azərbaycan şeirinin ayrı bir hadisəsi idi. Atasına bənzəməyən, fərqli və öz dövrünün ruhunun ifadəçisi idi. Bilirsinizmi, sanki Vaqif öz yaradıcılığı ilə, sovet dövrünə düşdüyü üçün kimlərə isə mədhiyyə yazmağa məcbur olan Səməd Vurğunun qisasını alıb. Elə “Qətl günü”nün müəllifi olan Yusif Səmədoğlu da. Onlar öz varlıqları ilə həm də Səməd Vurğunun tale qoruyucusu olublar, onun deyə bilmədiklərini demələri, meydanda milli azadlıq hərəkatına qoşulub hayqırmaları, atalarının çəkdiyi mənəvi əzabların intiqamını almaları üçün Allah bu 2 övladı yaratmışdı.

**– Sabir müəllim, qayıdaq akademiyanın mərkəzi elmi kitabxanasındakı çoxcildlik təqdimatına. Mən də orda idim. Tədbiri akademik İsa Həbibbəyli açaraq sizin çoxşaxəli bədii-publisistik yaradıcılığınızı geniş təhlil etdi və dedi ki, Azərbaycanın dövlət müstəqilliyinin bərpasında, inkişafında rolunuz, xidmətiniz böyük olub və canlı korifeysiniz. Sitat: “Sabir Rüstəmxanlının poeziyası ilə bərabər, publisistikası milli fikir müstəvisində xüsusi istiqamət açıb, nəsri də yetərincə güclüdür. Ötən əsrin son onilliyində onun təsis etdiyi ilk müstəqil mətbu nəşr – “Azərbaycan” qəzeti 100 minlərlə tirajla çıxırdı. Sabir Rüstəmxanlı bir alim kimi də nümunə sayıla bilər. Onun namizədlik dissertasiyası olan “Molla Nəsrəddin və folklor” mövzusu bu gün də aktualdır. Şairin əsərlərinin cildlərinə görkəmli alimlərin geniş ürəklə “Ön sözlər” yazması da onun yaradıcılığına necə yüksək dəyər verildiyinin bariz göstəricisidir”. Bəs, nədən doktorluq dissertasiyası yazmadınız?**



– Macalım, imkanım olmadı. Hey işləyirdim, vaxt çatdıra bilmirdim. Amma bir maraqlı psixoloji məqam da var. 1971-ci ildə Vyetnam birləşəndə mən “Bütövlük” adlı poema yazmışdım. Vyetnam xalqının mübarizliyinin qələbəsi idi o birləşmə. Vyetnamlıları təbrik edirdim, amma içimdə Azərbaycanı nəzərdə tutub yazmışdım:

**Müstəqillik ilk inamım, ilk həsrətim,**
**Müstəqillik xalqın qeyrət bayrağıdır.**
**Müstəqillik hər ölkənin, məmləkətin**
**Zülm, əsarət orbitindən çıxmağıdır.**

Yəni tam öz dərdimizi dilə gətirmişdim. Poemamı “Ədəbiyyat” qəzeti qoşa səhifədə çap elədi. Onda cəmi 20 günə yazdığım namizədliyimi yenicə müdafiə etmişdim. Dissertasiyam yüksək qarşılanmışdı. İnstituta gedəndə gözəl ailm, akademik Məmməd Cəfərlə rastlaşdım. Məni otağına dəvət elədi. Orada gördüm ki, həmin “Ədəbiyyat” qəzeti stolunun üstündədir. Özü də qırmızı karandaşla haşiyəyə aldığı yerləri, qeydləri var. Dedi ki, bu poemanı yazan adamın ədəbiyyatşünaslıqla məşğul olmağa vaxt sərf etməyinə dəyməz. Get, şairliyi davam elətdir. O kişi sanki mənim yolumu kəsdi (gülür). Amma sonra institutun direktoru Yaşar Qarayev dedi ki, namizədlik dissertasiyan elə doktorluq səviyyəsindədir, bir az da artır, elmi hesabat yaz və biz kitablarını da nəzərə alıb, ona əsasən sənə elmlər doktoru adı verək. O vaxt attestasiya komissiyasının sədri Azad Mirzəcanzadə artıq həmin formada doktorluq müdafiələrini ləğv etdiyi üçün daha arxasınca getmədim. Düzdür, sonra Əlyazmalar İnstitutu mənə fəxri doktor adı verdi. Bir qeyri-dövlət Milli Elmlər Akademiyası da vardı, oranın da fəxri akademiki idim və sair. Yarımca il vaxt ayırsaydım, elmlər doktoru olardım, amma nəsə, etmədim. Sonra siyasət, Milli Məclisdə deputatlıq oldu. Nə isə... 1984-cü ildə mən polyak Adam Mitskeviçi tərcümə edəndə dəfələrlə vaxtilə yaşamış olduğu Litvaya getdim, litvaşünasların dünya qurultayında, oranın diasporu ilə görüşlərdə SSRİ-nin dağılmasının qaçılmaz olduğu qənaətim gücləndi. Qayıdandan sonra dərnəklərdə daha cəsarətli çıxışlar elədim, artıq biz özümüzü müstəqilliyə hazırlayırdıq və mən də elmi yox, ayrı yol seçdim.

**– Siz, əslində, doktor olmayan böyük alimsiniz. O qədər elmi titullu tanınmayan alimlər var ki...**

– O vaxt akademiya yarananda Səməd Vurğuna, Mirzə İbrahimova (düzdür, Mirzə müəllim Cəlil Məmmədquluzadə haqqında “Böyük demokrat” adlı bir elmi iş yazmışdı), digər ədəbiyyatçılara, görkəmli qələm sahiblərinə akademik adı verilmişdi. Hesab edirəm ki, indi də bunu edə bilərlər. Ədəbiyyatşünaslar öz yerində, ədəbiyyatın özünün də akademikləri ola bilər. Özüm üçün demirəm. Məsələn, Anar hansı cəhəti ilə akademiklərdən, ədəbiyyatşünaslardan geridir? Yaxud da Elçin. Kifayət qədər yüksək elmi sayılan əsərləri var.

**– Elə sizin 15 cildliyinizin 2 cildi tam ədəbiyyatşünaslıqdır, 3 cildi publisistikadır. Ədəbiyyatşünaslıqla bağlı külliyata düşməyən digər əsərləriniz də var. Məsələn, “Hüseyin Arifin lirikası”, “Aşıq poeziyasında realizm”, “Ədəbiyyatımız müstəqillik yollarında” və bu tipli çoxlu araşdırma yazılarınızı yada sala bilərik. Sabir müəllim, Anarın adını çəkdiniz, 15 cildliyinizin təqdimatında o sizin “Ömür kitabı”nızı ədəbiyyatımızın inkişafında yeni bir mərhələ kimi dəyərləndirdi və dedi ki, istedad, iradə və zəhmətlə hasilə yetirdiyiniz bu külliyatın təqdimatı Azərbaycan mədəni aləmində əlamətdar hadisədir. Anar həmişə sizinlə sarsılmaz dostluğunu da qeyd edib. Şahidəm ki, Yardımlıda, doğma kəndiniz Hamarkənddə olan 50 illik yubileyinizdə də bu barədə ürəkdən danışıb.**

– Mənim üçün Anar Azərbaycanın bir dəyəridir. Qələmi ilə, sözü ilə, həyatı ilə bir dəyərdir. Rəsul Rza və Nigar Rəfibəylinin ocağından çıxıb. Artıq özü də mənim təsəvvürümdə bir klassikdir. Təkcə “Dədə Qorqud dünyası” adlı yazısı Azərbaycan tarixşünaslığı üçün bir örnəkdir. “Molla Nəsrəddin – 66” satirik hekayələrini oxuyandan Anarı sevməyə başlamışam.

Yadıma gəlir, AYB-nin qurultaylarından birində məruzəçi idim. Sədr Anara dedim ki, bu dəfə güzəştsiz danışacağam, kim nəyi haqq edir, onu deyəcəyəm. Dedi, bir-iki nəfər var, onları çox incitməyək. Düzdür, misallarım qaldı, amma adları çıxardım. Bütövlükdə ədəbiyyat haqqında fikirlərimi sonadək düzgün dedim.

Xatırladaq ki, istiqlal şairimiz Xəlil Rza bununla bağlı bir poema da yazmışdı:

**...Min dəfə gördüyümüz adicə yoldaşımız,**
**İndi söz kürsüsündə ucalmışdır dağ kimi.**
**Fikrinin alovundan neçin od tutmur kağız?**
**Fikir-dəmir sərkərdə, qəlbimizin hakimi.**

**Salonda sənət əhli-şairlər, tənqidçilər,**
**Cərrah kimi doğrayır, yarır tənqidimizi.**
**Doğru söz yanar qəlbə bəlkə sərin su çilər,**
**Büllur, cəsur sözüylə ovsunlayar o bizi.**

**...Kürsüdə bir gül qomu, - yoxsa Vətən gülzarı,**
**Nura dözməyib qaçan bəlkə bir yarasaydı.**
**Tahirzadə Sabirin od tutardı məzarı,**
**Yeni, kişi Sabirlər əgər yaranmasaydı.**

Sabir Rüstəmxanlı sözünə davam edərək dedi:

– Həmin axşam Anarla Yusif Səmədoğlu mənə zəng vurdular. Anar dedi ki, təbrik edirəm, o divarlar arasında çox çıxışlar dinlənilib, sənin məruzən ən yaxşılardan biri oldu. Yusif isə özünəməxsus şəkildə dedi ki, sən bundan sonra mənim qardaşımsan. Yəni belə əhvalatlar çox olub. Anara qarşı bəzi kobud tənqidləri, yersiz ittihamları qeyri-etik və gərəksiz sayıram. Bu barədə fikirlərimi bir neçə dəfə açıq yazmışam. Yadınıza gəlirsə, Bəxtiyar Vahabzadəyə də hücumlar vardı, onda da mən susmamış, cavab yazmışdım. Bax, indi Bəxtiyar yoxdur, min tərinamə yazsan da, qaytara bilməzsən. Qədirşünas olmaq lazımdır...

**– Siz həmişə həqiqəti demisiniz. Elə təqdimatda akademik Nizami Cəfərov da vurğuladı ki, sizin yazdıqlarınız milli təəssübkeşlik örnəyidir, ədəbi və əbədi səciyyəlidir. O sizi cəmiyyətin ruhunu bilən, qələmə alan cəsarət sahibi kimi xarakterizə etdi. Dedi ki, yazılarınızla zəkalarımıza, ürəklərimizə impuls verirsiniz, fundamentallığı qoruyub saxlaya bilirsiniz. Ana dilinin müqəddəsliyini, yaddaşı, milli ideya spektrlərini xalqa yaxın intonasiya ilə çatdıransınız.**

– Nizami Cəfərov ciddi alimdir, ondan belə sözlər eşitmək xoşdur. Onunla birlikdə işləmişik. Güclü ədəbiyyatşünas, alimdir. Dəb dalınca qaçmır, sözün mahiyyətini deməyə çalışır, türkologiya və digər sahələrdə dəyərli alim kimi tanınır. Düzdür, fikir ayrılıqlarımız, mübahisələrimiz də olub. Qısası, təqdimatda dostlarımızın hamısının çıxışları dəyərli idi və söylənənləri bir növ avans kimi qəbul edirəm. Baxmayaraq ki, bu yaşda avans olmaz, amma yenə də məclisin gətirdiyi hava adamı ruhlandırır. Mən 13 yaşımda ikən kənddən çıxmışam. Rayon mərkəzində oxuyub yataqxanada qalmışam. Sonra 17 yaşımda Bakıya gəlmişəm. O vaxtdan ömrüm Bakıda keçib. Amma bugünün özündə də hələ kənddən ayrılmamışam. Yəni sosial mənşəcə kəndliyəm. Ziyalıyam, amma o kənd ruhundan ayrı düşməmişəm.

O gün Dilçilik İnstitutunun 15 cildliyimin lüğəti ilə bağlı apardığı bir araşdırmanı çap ediblər. Bu, bir növ dil lüğətidir. Qeyd olunduğuna görə, orda 1 milyon 800 min söz var, ən çox işlənən sözlərin “Azərbaycan”, “ana”, torpaq”, “millət”, “vətən”, “ruh” olduğu qeyd edilib. Kəndin unudulmaqda olan həyat tərzi haqqında yazdığım silsilə də qeyd olunub. Məsələn, “Qocalar payızda taxıl əkərdi”, əl ilə elə səpərdilər ki, sanki günəşin şəfəqlərini yayardılar. Sonra ot yığardıq, biçin, xırman nəğməsi oxuyardıq, xırman qarovulçusunu anmışam, yaylaq yolu, el yolu ilə, sellərlə bağlı xatirələrim, at haqqında 2 əfsanə-şeirim lazımınca dəyərləndirilib:

**At cildində, quş cildində, ağac cildində,**
**Bu dünyada hərəmizin bir sehrimiz var.**
**Əgər tale qismətisə, qoymayın itə,**
**Bilmək olmaz, min il sonra gərəyin olar...**

Bir dəfə atımızı satmışdıq. Gecə şimşək çaxan yağışlı havada ikigünlük yolu qayıdıb gəlmişdi. O, bir uşaqlıq xatirəsi idi. Bəlkə də Nizami Cəfərov “yaddaş” deyəndə bunu nəzərdə tuturdu ki, gərək yaddaşımızı qoruyaq. Dilçilik İnstituna da təşəkkür edirəm.

**– Təqdimatda akademik Rafael Hüseynov da dəyərli bir ürək sözü dedi: “Sabir Rüstəmxanlının çoxcildliyini “Azərbaycannamə” adlandırmaq olar”. O, “Qan yaddaşı”nı da xatırlatdı. Bildirdi ki, unudulmaz Xudu Məmmədov “Qan yaddaşı” adını möcüzəli ad hesab edirdi (Çünki ona qədər yabançı “gen yaddaşı” ifadəsi işlənirdi). Sabirin əsərlərinin bütün cildləri məhz milli yaddaşın diqtəsi, duyğulu illüstrasiyalarıdır, janr və formasından asılı olmayaraq, sırf azərbaycançılıq məfkurəsinə xidmət edir. O, istedadı millətə necə sərf etməyi bilən ziyalıdır. Xalq hərəkatı dövründə “Azadlıq” meydanında şairin alovlu çıxışları yaxın tariximizin işıqlı anlarını təşkil edir.**

– Mən “Ədəbiyyat” qəzetində işləyəndə bugünün böyük ailmi Rafael Hüseynovun ilk yazılarını, Baba Tahirdən tərcümələrini çap eləmişik, dostlaşmışıq. Birgə səfərlərimiz olub. Mən haqqımda yüksək sözlər deyənlərin hamısına təşəkkür edirəm. İndiyədək haqqımda 12 kitab yazılıb, bunun 4-ü Türkiyəyə aiddir.

İlk dəfə Bakıdan çıxanda mənim getdiyim yer Başqırdıstan olmuşdu. Sonra dünyanın hər tərəfinə getdim, türk dünyasını bütöv gəzdim. Doğu Türküstanda oldum, Mahmud Kaşğarinin məzarını ziyarət elədim. Altaylardan üzübəri bütün türk ellərinə yolum düşdü, qədim mədəniyyət abidələrinə baş əydim. Bütün bunlar adamın içinə elə bir ruh doldurur ki, bu xalqın dünyanın sahibi olduğunu görürsən. Bizi ayırıblar, əziblər. Əvəzində biz də güclənməli olmuşuq. Buna görə də mən heç vaxt çəkinmədən, tərəddüd etmədən millətin sözünü cəsarətlə danışmışam. İçimdə bir azadlıq olub həmişə.

“Qan yaddaşı”na gəlincə, bir gün Bərdədə Nüşabə qalasının yanında gördüm ki, 6–7 yaşlı bir uşaq zoğal budaqlarını kəsib ox-yay düzəldə-düzəldə maraqlı tərzdə nəsə oxuyur. Əslində, o heç bilmirdi ki, bu, nə qalasıdır, burda nə zamansa savaş olub. Sadəcə, qanının diktəsi ilə orda ox-yay düzəldirdi. Görünür, tarixin də unutduğu həqiqət çıxmır qan yaddaşından. Və həmin vaxt o şeirimi yazdım:

**Nüşabə qalasının yarıuçuq bürcündə,**
**Boy atıb qalınlaşan zoğallığın içində**
**Bir uşaq oxuyurdu bu dünyadan ayrılıb...**
**...Soruşdum:”Oxuduğun mahnının adı nədir?”**
**Güldü, gözü qıyıldı, gülüşü də nəğməydi -**
**Yayıldıqca yayıldı...**
**Dedi bilmirəm, əmi, təkəm də, oxuyuram,**
**Heç sözünü bilmirəm, özümdən toxuyuram.**
**Özündən “toxuyurdu”, mahnısını o uşaq.**
**İçəridən gələn səs ona “oxu” deyirdi.**
**Qəhrəman bir torpaqdan gələn qəhrəman həvəs**
**Al əlinə bu yayı, at bu oxu deyirdi...**

Xudu müəllimin çox xoşuna gəlmişdi. O vaxt bilgisayarlar təzə çıxmışdı, üzünü köçürtdürüb divardan asmışdı. Demişdi, gedək, gör. Gedə bilməmişdim. Amma 1971-ci ildə, günün birində dedi ki, sən Yardımlıda doğulmusan, mənsə oranı görməmişəm, sizə getmək istəyirəm. Ona bildirdim ki, ay Xudu müəllim, kasıb bir evimiz var, sən orda gedib əziyyət çəkərsən, filan. Qayıtdı ki, sənin atanın da adı Xududur, mən gedib onunla tanış olmaq istəyirəm, ona deyəsi sözlərim var. Nə isə, getdik. O, Bakıdan bizim evə gedən ilk ziyalı dostlardan idi. Sonra çox dostlarım gedib bizim Hamarkəndə, amma Xudu müəllim birincisi idi. Ətrafa baxıb, söhbətlərə qulaq asıb soruşurdu ki, gen deyilən o qan yaddaşı budur?.. İndi Azərbaycan dilində, lüğətimizdə bu ifadə daha çox işlənir.

**– Sabir müəllim, suallar çoxdur, amma gələn dəfəyə də qalsın. Çünki gələn il sizin 80 yaşınız tamam olacaq. Allah ömür versin. Yubileyiniz Yardımlıda da keçirilsə, Savalan dağı da verdiklərinin itmədiyinə görə baxıb fərəhlənər.**

– İnşallah! Həmişə dostlarla Yardımlıya gedəndə onları elə bir yerə aparıram ki, ordan sərhədin yaxınlığından Savalan görünür. “Ömür kitabı”nda da Savalanla bağlı yer var – “Zərdüştlə söhbət”də. Orda torpaq şırımı var, indi də qalır, Azərbaycanın o tayı ilə bu tayını kəsib ayırıb. Əl uzatsan, çatar. İndi o tərəfə yol çəkilib, həmin yolla gedirəm. Yəqin ki, sən də getmisən, o yol ordan ta Cəlilabada qədər gəlir. Bizdən asılı deyil, orda doğulan uşaqlar hamısının içinə bütöv vətən ruhu dolub. Ayrılıq, üsyan ruhu hopub. “Sənə ucqar söylədilər” adlı şeir yazmışdım... Bir yandan itirmişik, kasıblıq, orta təhsilin çətinlikləri olub. Məsələn, mən musiqi təhsili almaq, xarici dillərdən bir-ikisini yaxşı öyrənmək istəmişəm, Yardımlıda mümkün olmayıb. Amma əvəzində o torpaqrda doğulmaq ayrı keyfiyyətlər verib bizə. Harda uduzmuşuq, harda qazanmışıq, bunu zaman deyər.

***Əli NƏCƏFXANLI***
***XQ***

Beynəlxalq həyat

# Kaliforniya Trampa qarşı?

## *Miqrasiya böhranı konstitusiya haqq-hesabına çevrilir*




**ABŞ-da federal və ştat hakimiyyətləri arasında yaranan gərginlik yeni mərhələyə qədəm qoyub. Belə ki, Kaliforniya ştatı və qubernator Kevin Nyusom ABŞ prezidenti Donald Trampı, Pentaqonu və müdafiə naziri Pit Heqseti məhkəməyə verib. İddianın səbəbi federal hökumətin Los-Ancelesdə miqrasiya əleyhinə etirazları yatırmaq məqsədilə Milli qvardiya qüvvələrini şəhərə yeritməsidir. Ştat rəhbərliyi bu addımı konstitusiyaya zidd və ştatın suverenliyinin pozulması kimi dəyərləndirir.**

Kevin Nyusomun bəyanatında vurğulanır ki, ABŞ konstitusiyası hökumətin xalq qarşısında məsuliyyət daşımasını və mülki idarəçiliyin hərbi nəzarətdən üstün olmasını nəzərdə tutur. Şikayətə əsasən, Trampın istinad etdiyi federal qanun yalnız üsyan və ya fövqəladə vəziyyət zamanı qüvvəyə minə bilər ki, bunun üçün də qubernatorun razılığı tələb olunur. Lakin bu razılıq verilməyib.

Xatırladaq ki, iyunun əvvəlində ABŞ İmmiqrasiya və Gömrük Mühafizə İdarəsinin (ICE) Los-Ancelesdə həyata keçirdiyi kütləvi reydlər (əsasən sənədsiz miqrantların saxlanılması) geniş etirazlara səbəb olub. ABŞ-ın qərbindəki ən böyük şəhərlərdən biri olan Los-Anceles onsuz da "sığınacaq şəhəri" kimi tanınır və demokratik dairələrdə prezidentin miqrasiya siyasətinə qarşı müqavimətin simvoluna çevrilib.

Etirazların gedişində gözyaşardıcı qaz və səs qumbaralarından istifadə olunub. Nəticədə, 170 nəfər saxlanılıb, bəzi nümayişçilər isə polislə qarşıdurmada beton parçaları atıblar. Federal hökumət hadisələri "zorakı üsyan" kimi qiymətləndirərək şəhərə 2000 nəfərlik Milli Qvardiya qüvvəsi göndərib. Pentaqon isə əlavə 700 dəniz piyadasının da hazır vəziyyətdə olduğunu bildirib.

Ağ ev bu addımı Kaliforniya rəhbərliyinin "səriştəsizliyi" ilə izah edir. Prezident Tramp sosial şəbəkədə qeyd edib ki, əgər ştat rəhbərliyi öz vəzifəsini yerinə yetirə bilmirsə, federal hökumət müdaxilə etməyə məcburdur. Prezident Tramp, eyni zamanda, etirazlarda maska taxılmasını da qadağan etdiyini elan edib: "Bu insanlar nəyi gizlədirlər və niyə?"

Qubernator Nyusom prezident Trampın addımını "planlaşdırılmış təxribat" və "xalqı qorxutma kampaniyası" adlandırıb. O bildirib ki, Kaliforniyada kifayət qədər yerli hüquq-mühafizə orqanı var və federal müdaxilə siyasi məqsədlərlə həyata keçirilir. Nyusom etirazçılara müraciət edərək zorakılıqdan çəkinməyə və dinc formada mövqelərini ifadə etməyə çağırıb.

Ümumiyyətlə, miqrasiya məsələsi ABŞ-da partiyalararası mübarizənin mərkəzində dayanır. Donald Trampın ikinci prezidentlik müddətində əsas hədəflərindən biri olan 1 milyon qanunsuz miqrantın deportasiyası, artıq ölkənin hüquqi və siyasi institutlarını qarşı-qarşıya qoyub. Bu fonda Kaliforniya rəhbərliyinin məhkəmə iddiası təkcə hüquqi mübahisə deyil, həm də dövlət idarəçiliyi sistemində balans və qarşılıqlı nəzarət prinsipinin sınağıdır.

ABŞ politoloqlarının fikrincə, Kaliforniyanın prezident Trampa qarşı məhkəmə iddiası ABŞ-da ştatların suverenliyi və mərkəzi hakimiyyətin səlahiyyətləri arasında sərhədlərin yenidən nəzərdən keçirilməsi üçün presedent yarada bilər. Əgər məhkəmə ştatın mövqeyini əsaslı sayarsa, bu, gələcəkdə digər ştatlara da oxşar hallar zamanı federal təzyiqlərə qarşı çıxmaq üçün hüquqi baza yaradacaq. Əks halda, federal hökumətin daxili təhlükəsizlik adı ilə müdaxiləsi legitimləşdirilə bilər. Amerikalı hüquqşünasların sözlərinə görə, mübahisə təkcə hüquq və siyasətin deyil, həm də Amerikanın gələcək idarəçilik modelinin konturlarını müəyyən edə bilər.

Bəs Kaliforniyada baş verən iğtişaşlar və prezident Trampın buna cavab olaraq atdığı addımlar Ağ ev sahibinin reytinqinə necə təsir göstərə bilər? Siyasi analitiklərin ehtimallarına görə, bu hadisələr onun reytinqinə həm müsbət, həm də mənfi təsir göstərə bilər və bu, auditoriyanın ideoloji baxışlarından, eləcə də hadisələrin davamından asılıdır.

Müsbət təsir ssenarisi ondan ibarətdir ki, Trampın əsas seçici bazası – miqrasiya ilə mübarizəni dəstəkləyən, hüquq-mühafizə orqanlarına önəm verən və "qanun-qayda" çağırışlarını qiymətləndirən elektorat Ağ ev sahibini dəstəkləyəcək. Bu qrupda Trampın reytinqi artmaqda davam edə bilər, xüsusən də o, hadisələri "nizam-intizamın bərpası" kimi çərçivələndirməyə davam edərsə, proses onun xeyrinə işləyəcək.

Mənfi təsir ssenarisi isə budur ki, daha liberal, insan hüquqları və ştat suverenliyini önə çıxaran seçicilər, eləcə də Kaliforniya kimi demokratik ərazilərdə yaşayanlar Trampın sərt addımlarını alqışlamayacaqlar. Prezident Tramp bu qrupda həm reytinq, həm də legitimlik baxımından ciddi zərbə ala bilər. Bu, xüsusən də məhkəmə prosesi Trampın əleyhinə nəticələnsə, daha da güclənəcək.

Bundan başqa, ABŞ mətbuatının yazdığına görə, həlledici qrup sayılan tərəddüdlü və müstəqil seçicilər hələlik qarışıq siqnallar verirlər. Bu qrup qayda-qanun istəyən, lakin sərt metodlardan ehtiyat edən vətəndaşlardır. Prezident Trampın reytinqi bu seçici qrupu üçün müvəqqəti düşə və ya yüksələ bilər, lakin əsas təsir məhkəmə qərarı və hadisələrin uzunmüddətli siyasi tezisləri ilə formalaşacaq.

Bir sözlə, son hadisələrin fonunda prezident Trampın reytinqində kiçik sıçrayış mümkündür, xüsusən də "FOX News" və sağ mərkəzçi mediada hadisələrin sərt təfsiri davam edərsə, bu tendensiyanı müşahidə edə bilərik. Əgər etirazlar uzanarsa və zorakılıq halları artarsa, bu, prezident Trampa siyasi qazanc gətirə bilər. Bundan başqa, məhkəmə Kaliforniya tərəfini haqlı çıxararsa, bu, prezident Trampın konstitusiya səlahiyyətlərdən sui-istifadə etdiyi fikrini gücləndirəcək. Nəhayət, uzunmüddətli perspektivdə miqrasiya böhranı Ağ ev sahibinin seçki kampaniyasındakı "qanun-qayda" şüarını gücləndirəcək, lakin bu, cəmiyyətdə daha dərin qütbləşməyə yol aça bilər.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

**"Gələn ildən başlayaraq, Gəncə şəhərində çox böyük təmir-bərpa işləri aparılacaq. Şəhər infrastrukturu yenilənəcək, şəhər nəqliyyatı tamamilə yenilənəcək. Tarixi binaların bərpası və digər infrastruktur layihələrimiz icra ediləcək ki, bizim qədim şəhərimiz olan, Nizami yurdu olan Gəncə bütün MDB məkanına və daha geniş coğrafiyaya öz gözəlliyini, eyni zamanda, tarixi simasını və müasirliyini təqdim etsin". Bu sözləri ölkə Prezidenti keçən il dekabrın 24-də ilin idman yekunlarına həsr olunmuş müşavirədə söyləyib.**

# Gəncə idman paytaxtı libası geyinir

## *Şəhərdə III MDB Oyunlarına genişmiqyaslı hazırlıq aparılır*

Aradan cəmi 5 ay keçib. Amma adam inana bilmir ki, belə qısa müddətdə böyük bir şəhərdə bu qədər iş görülə bilərmiş! Hara gedirsənsə, təmir-bərpa işləri ilə qarşılaşırsan. Binalar yeni görkəm alır, yollar asfaltlanır, park və xiyabanları gül-çiçək, yaşıllıqlar bəzəyir. Hazırda şəhərin bir sıra küçə, prospekt və məhəllələrində çoxmənzilli və fərdi yaşayış evlərinin fasadları təmir edilir. Eyni zamanda, bir sıra fərdi evlərin dam örtükləri də yenilənir.

Maraqlıdır ki, şəhərdə nəqliyyatın, sakinlərin gediş-gəlişində müvəqqəti çətinliklər yaransa da, adamlar bundan narahat olmurlar, əksinə, çox sevinir, ölkə başçı İlham Əliyevə cənab Prezidentimizin Gəncəyə göstərdiyi kömək bizi hədsiz ruhlandırır. Bu idman oyunlarının Gəncəyə həvalə edilməsi də sözsüz dövlət başçımızın öz sözü, müstəqil siyasəti olan Azərbaycanın nüfuzunun nəticəsidir. Biz bunu heç vaxt unuda bilmərik.

Niyazi müəllim bunları söyləyib aidiyyəti üzrə müvafiq tapşırıq və tövsiyələrini verdi.

Şəhər icra hakimiyyətindən bildirdilər ki, N.Bayramov həmin gün Gəncəçay Park-bulvar kompleksi və Bayraq meydanında aparılan yenidənqurma işləri ilə də yerində tanış olub. Xan bağı istirahət parkında görülən abadlıq işlərinə baxıb. Hazırda ümumi sahəsi



hədsiz minnətdarlıqlarını bildirirlər. Bilirlər ki, Gəncəyə daim diqqət göstərən ölkə Prezidenti bu dəfə də qədim Nizami yurduna öz qayğısını əsirgəməyib. Qədim şəhər daha da gözəlləşir, abad bir məkana çevrilir.

Bəli, Gəncə böyük imtahan qarşısındadır. Bu il sentyabrın sonu və oktyabrın ilk ongünlüyündə Gəncədə III MDB Oyunları keçiriləcək. Yəni Gəncə möhtəşəm bir tədbirin İdman Paytaxtı seçilib! Eyni zamanda bu oyunlar Azərbaycanın daha 6 şəhərində –

60 min kvadratmetr olan bu parkda ehtiyac duyulan ərazilərdə tamet daşları yenilənir.

Gəncənin "Süni göl"ü də əsaslı şəkildə yenidən qurulur. Ərazidə yerləşən "Yaşıl teatr"da təmir-bərpa işlərinin aparılması nəzərdə tutulur.

Niyazi Bayramov şəhər sakinləri ilə də görüşüb, görülən işlərlə bağlı onların fikirlərini öyrənib. Hamının fikri yekdil olub. Gəncəlilər, ilk növbədə, şəhərdə aparılan abadlıq və yenidənqurma işlərinə görə dövlət başçısı-



Yevlax, Mingəçevir, Qəbələ, Şəki, Göygöl və Xankəndidə də olacaq.

Amma gərək Gəncə İdman Paytaxtı adına layiq bir şəhər olsun. Binalarından, yollarından, mehmanxanalarından tutmuş, nəqliyyat vasitələrinə kimi.

Təbii ki, şəhər rəhbərliyinin, onun ayrı-ayrı strukturlarının üzərinə böyük məsuliyyət düşür. Bu baxımdan görülən nəhəng işlərə hər gün nəzarət etmək, qarşıya çıxan problemləri operativ həll etmək lazımdır.

Ona görə də Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramovu, demək olar ki, son vaxtlar kabinetində görmək qeyri-mümkündür. Görülən işlərin gedişatı ilə hər gün yerində tanış olmasan, sonradan ortaya çıxan problemləri həll etmək çətin olar. Şəhər rəhbəri ilə ayaqüstü söhbətimiz də Gəncənin Nəriman Nərimanov və Təbriz prospektlərinə baxış keçirərkən baş tutdu:

– Gəncədə belə bir yüksək səviyyəli yarışın keçirilməsi həm şəhərə olan böyük etimaddır, həm də bizim məsuliyyətimiz deməkdir. Cənab Prezidentimizin tapşırığı var: Gəncə şəhərə gələn qonaqları, idmançıları öz gözəlliyi, tarixiliyi, infrastrukturu ilə heyran etməlidir. Bunun üçün möhtərəm

na dərin təşəkkürlərini bildiriblər və öz təkliflərini də səsləndiriblər.

Qeyd edək ki, ümumilikdə, şəhərin 35 küçə və prospektində yerləşən çoxmənzilli və fərdi yaşayış evlərinin fasadlarının təmiri gedir. İstirahət parkları və meydanlarda görülən işlər çərçivəsində isə 175 min 900 kvadratmetr ərazinin abadlaşdırılması planlaşdırılır.

...4 ay da keçəcək, Gəncə al-əlvan libasa bürünəcək. Əminik ki, minlərlə qonaq bu şəhərin qədim, gözəl olması ilə yanaşı, onun sakinlərinin də necə qonaqpərvər, mehriban olduqlarını görəcəklər.

***Zöhrə təki ucalıb Mizan bürcünə Gəncə,***
***Onu belə ucaldan ülvi sözümdür, məncə.***

Bu, ulu şairimizin, Şeyx Nizaminin misralarıdır. Gəncəni zöhrəyə bənzədib. Zöhrə isə günəş sisteminə yaxın olan 7 ulduzdan biri və bütün görünən ulduzların ən parlağıdır. Görün Gəncəyə necə gözəl qiymət verilib. İnanırıq ki, Gəncəyə qonaq gələnlər böyük şairin yanılmadığını hiss edəcəklər...

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

# "Çiplərin savaşı"

## *Ağ evin texnologiya razılaşmaları ölkədə niyə narahatlıq doğurur?*



**Prezident Donald Trampın Yaxın Şərqə son səfəri ABŞ, Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) arasında süni intellektə dair bir sıra böyük investisiya müqavilələri ilə yadda qaldı. Səfər zamanı yüksək məhsuldar çiplərin satışı və Abu Dabidə ən böyük məlumat mərkəzinin yaradılması da daxil olmaqla, on milyardlarla dollar dəyərində sövdələşmələr imzalandı. Lakin bu razılaşmalar Vaşinqtonda narahatlıq yaradır. Tənqidçilər iddia edirlər ki, Yaxın Şərq ölkələrinə qabaqcıl texnologiyaların verilməsi süni intellektdə liderlik yarışında Çinə dolayı yolla kömək edə bilər.**

Ağ evin Səudiyyə Ərəbistanı və BƏƏ də daxil olmaqla müəyyən ölkələrə süni intellekt texnologiyasının satışını məhdudlaşdıran qərarı ləğv etməsi ABŞ qanunvericilərini əndişələndirir. Amerikalı qanunvericilər ehtiyat edirlər ki, sözügedən texnologiyalar Çinin əlinə düşə bilər. Bu narahatlıq onunla əlaqələndirilir ki, Çinin bölgədə dərin ticari və siyasi əlaqələri var və bəzi ekspertlər ABŞ-ın Səudiyyə Ərəbistanı və BƏƏ-yə satdığı çiplərin sonda Çin şirkətlərinin əlinə keçə biləcəyinə inanırlar. Bəzi mütəxəssislərin sözlərinə görə, Yaxın Şərq ölkələri süni intellektə sərmayələri sürətlə artırır ki, bu da qlobal texnologiya yarışında güc balansını dəyişə bilər. İddia olunur ki, ABŞ yüksək məhsuldar yarımkeçiricilər istehsalında liderliyini qorumağa çalışır, lakin bu cür sövdələşmələr onun mövqeyini zəiflədə bilər.

Səudiyyə Ərəbistanı və BƏƏ öz iqtisadiyyatlarını şaxələndirmək və neftdən asılılığını azaltmaq məqsədilə strateji sektor kimi süni intellekt sahəsini fəal şəkildə inkişaf etdirirlər. Hər iki ölkə investisiya cəlb edir və qlobal texnologiya yarışında güc balansını dəyişə biləcək dünyanın ən böyük məlumat mərkəzlərini yaradırlar. Xatırladaq ki, ABŞ hər iki ölkə ilə güc balansını əhəmiyyətli dərəcədə dəyişdirəcək iki mühüm saziş imzaladı. Bu razılaşmaların iqtisadi, geosiyasi və milli təhlükəsizliyə təsiri var və Ağ ev hesab edir ki, bu ikitərəfli razılaşmalar Amerikanın süni intellektdə liderlik iddiasını gücləndirir və ABŞ-ın hesablama resurslarının əlçatanlığını zəiflətmir, əksinə, gücləndirir.

ABŞ-ın Çinə qabaqcıl yarımkeçirici texnologiya və çiplərin ixracına ciddi məhdudiyyətlər qoyduğu məlumdur. Bu, hərbi və süni intellekt kimi ABŞ-ın milli təhlükəsizliyini təhdid edə biləcək sahələrdə Çinin texnoloji inkişafını ləngitmək üçün edilir. Çinin texnoloji sənayesi və hərbi proqramları üçün qabaqcıl çiplərə çıxışa ehtiyacı var. Birbaşa məhdudiyyətlər qarşısında Çin şirkətləri və dövlət qurumları bu texnologiyaları əldə etmək üçün fəal şəkildə həll yolları axtarırlar. Belə iddialar var ki, Yaxın Şərq ölkələrində ABŞ kimi sərt ixraca nəzarət və mühafizə sistemləri olmaya bilər. Bu da ölkələrə qanuni olaraq satılan çiplərin daha sonra vasitəçi şirkətlər, qaçaqmalçılıq və ya digər qeyri-qanuni sxemlər vasitəsilə Çinə yönləndirilə bilməsi ehtimalını yaradır.

Heç kimə sirr deyil ki, qlobal elektronika təchizat zəncirləri mürəkkəb və çoxqatlıdır, bu da hər bir komponentin son istifadəçisini izləməyi çətinləşdirir. Elektron komponentlər də daxil olmaqla, müxtəlif sanksiyaya məruz qalan mal və texnologiyaların üçüncü ölkələr vasitəsilə ötürüldüyünü təsdiqləyən hesabatlar və araşdırmalar var. Buna görə də, Birləşmiş Ştatlar və onun müttəfiqləri ardıcıl olaraq bu cür sızmalardan narahat olduqlarını bildirir və təkrar ixraca nəzarəti gücləndirməyə çalışırlar. Bəzi Yaxın Şərq ölkələri həm ABŞ, həm də Çin ilə sıx iqtisadi və siyasi əlaqələr saxlayır ki, bu da ABŞ-ın Pekinə qarşı ixrac məhdudiyyətlərini ciddi şəkildə tətbiq etmək üçün çətin bir mühit yarada bilər.

***S.MƏMMƏDOV***
***XQ***

"Azərbaycan Hava Yolları"
Qapalı Səhmdar Cəmiyyəti

*ekipaj üzvləri üçün uniformaların satın alınması məqsədilə*

AÇIQ TENDER ELAN EDİR

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin ekipaj üzvlərinin uniformalarının satın alınması üçün açıq tenderində iştirakçılar Laman.r.ibrahimova@azal.az elektron poçt ünvanına yazılı müraciət etməklə prosedurun şərtlər toplusunu əldə edə bilərlər.

Təkliflərin təqdim olunması üçün son tarix 2025-ci il iyunun 23-nə qədərdir.

Prosedur üzrə əlaqələndirici şəxs-Ləman İbrahimova, satınalma üzrə mütəxəssis,
Laman.r.ibrahimova@azal.az
Əlaqə telefonu +994 12 497- 26- 00 / Dax: 5831.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 118 (30812) 11 iyun 2025-ci il, çərşənbə

**İdman**

## Boksçularımız Niderlandda 3 medal qazanıblar



**Azərbaycanın boks millisi Niderlandın Eyndhoven şəhərində keçirilmiş beynəlxalq turniri 3 medalla başa vurub. Bu barədə mətbuata Azərbaycan Boks Federasiyasının mətbuat xidmətindən məlumat verilib.**

Yığmanın heyətində Məhəmmədəli Aşurəliyev (60 kq) bütün rəqiblərinə qalib gələrək, fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Əli Abdullayev (65 kq) yarışı gümüş, Nəbi İsgəndərov (70 kq) isə bürünc medalla bitirib.

## “Formula–1” 25–27 sentyabrda keçiriləcək



**2026-cı ildə təşkil olunacaq “Formula–1” üzrə Azərbaycan Qran-prisinin hansı tarixdə keçiriləcəyi bəlli olub. Beynəlxalq Avtomobil Federasiyası və “Formula–1” təşkilatçıları növbəti ilin təqvimini açıqlayıblar. Beləliklə, Bakıdakı yarış sentyabrın 25-27-si aralığında gerçəkləşəcək.**

Qeyd edək ki, 2026-cı ildə “Formula 1” təqvimi yenə 24 mərhələdən ibarət olacaq. Bu il Azərbaycan Qran-prisi 19-21 sentyabr tarixlərində keçiriləcək.

## Azərbaycan–Macarıstan yoldaşlıq görüşü – 1:2



**Futbol üzrə Azərbaycan millisi dünən növbəti yoldaşlıq oyununu keçirib. Fernandu Santuşun baş məşqçisi olduğu yığmamız Bakıda Macarıstan seçməsi ilə üz-üzə gəlib.**

Qarşılaşma “Liv Bona Dea Arena”da, saat 20:00-da start götürüb. Matçı Belarusdan olan hakim Viktor Şimusik idarə edib. Maraqlı oyun 1–2 hesabı ilə başa çatıb.

Qeyd edək ki, Azərbaycan millisi iyunun 7-də Riqada Latviya yığması ilə qolsuz heç-heçə edib.

*M.HACIXANLI*
*XQ*

**Zərif duyğular**

# Qardaşımsan, tut ağacı

**Zirvədən-zirvəyə boylanan evimiz kəndimizin ən yüksək nöqtəsində qərar tutub. Axar-baxarlı mənzərəsi olan həyətimizdə bir tut ağacı var. Qoynu xatirələrlə doludur. Kənd evimizin həyətində azman bir heykəl kimi dayanıb qardaşım tut ağacı. Şirin uşaqlıq xatirələrimi bahar könlündə gülləndirib gül şaxına döndərib. Anam onun kölgəsində hər gün Tanrı duaları oxuyardı. Taxtın üstünə xalça-palaz sərərdi. Atam mütəkkəyə dirsəklənib könül həyanı, tale yoldaşı, ürək sirdaşı ilə dərdləşirdi.**



Mən universitetə qəbul olanda, əsgəri xidmətdən qayıdanda, toyum olanda, oğlanlarım dünyaya gələndə toğluları kəsib, o tut ağacının budaqlarından asıb soyardılar. Altında samovara od salar, çay dəmləyərdilər. Süfrəyə hər naz-nemətdən qoyardılar. Saz-söz məclisimiz gecədən səhərəcən davam edərdi.

Gecələr Ay işığında, tut ağacının altında anamın yarma çəkdiyi kirkirəsi, yun darağı, ip əyirdiyi cəhrəsi, yağını yağ, ayranını ayran etdiyi nəhrəsi evimizin ən qiymətli əşyaları, ən gözəl naxışları, yadigar nişanələr idi. Sərin ağac kölgəsində çay içməyin, kitab oxumağın özgə ləzzəti var. Mən ona çox bağlanmışdım. Hayana getsəm, qardaşım tut ağacından halallıq alardım. Haramla işim olmazdı.

Yaz ayları ilk baharın çiçək-çiçək açılan çağında, qaranquşlar kəndimizə dönəndə tut ağacının dövrəsində halay vurardı. Ağbirçək nənələr kölgəsində bardaş qurardı. Yay mövsümü başlayandan ta payızın son günlərinədək kölgəsindən qonaq-qaranın ayağı kəsilməzdi. Anamın mis qazanları löyün-löyün təamlarla boşalardı, dolardı. Nə təknədən çörəyimizin bərəkəti, nə də Tanrının verdiyi ruzi tükənərdi. Anamın bişirdiyi sac əppəyini, təndir çörəyini indi hardan alım?!

Tələbəlik illərində, yay tətilində kəndə gedəndə, gecələr o tut ağacının altındakı taxtın üstündə yatardım. Zümrüd gecələrdə şirindən–şirin rəngli yuxular görərdim. Yatmış kəndin yay gecələri nə gözəl olur! Kimsəsiz gecələrdə oyaq qalan köpəklər ulduzlara hürür. Gecəylə gündüzün arasında Ay və Günəş laylamı çalardı. Leysan yağsa da, tut ağacının altına bir damcı da yağış suyu düşməzdi. Sıx yarpaqların arasından göy üzündə ulduzların bərq vurduğunu seyr edib yuxuya gedərdim.

Gözəldağın arxasından çıxanda Günəşin al şəfəqləri parlayardı. Günəş üfüqdən enib iri gözlü, qırmızı yanaqlı həmayıl kimi boylananda yuxudan oyanardım. İndi də nağıl gecələrdə bərq vuran ulduzların gümüşü işığında Gündoğandan Günbatana yol gedirəm. Bu da həyatın sevinci, bu da acılı-şirinli ömür dediyimiz bir inci. Atam, anam, bacı-qardaşlarım ömürlərini mənə bağışlayıb köçdülər bu dünyadan. Bir mən qaldım, bir də qardaşım tut ağacı. Bəlkə o, qaldıqca qalar, mən ki bu dünyanı tutub qalan deyiləm.

Mən dünyaya gələndə anam əkmişdi o tut ağacını. Dünyaya göz açıb onu həyətimizdə görmüşəm. Əkiz qardaşlar kimi bərabər böyümüşük. Gecələr anam “əkiz qardaşım”la baş-başa verib ağı deyirdi. Taleyi sərt, ömrü kəm anam gözüylə od götürmüşdü. Sərt taleyinin qurbanı olub bir gün də bu dünyadan köçdü.

...Çiynimi anamın tabutunun altına verəndə qardaşım tut ağacının sıx yarpaqları arasından elə bir sazaq keçdi ki, içim göynəm-göynəm göynədi. Anam onu çiçək boyda əkdi, ürək boyda nəğmə kimi bəstələdi. Çətir-çətir, sətir-sətir, misra-misra, yarpaq-yarpaq, budaq-budaq böyütdü. Ürəyinin odunda isindirib, duyğularının bulağından su içirtdi. Onun dadlı meyvələri anamın həzin, kövrək laylaları ilə şirinləşirdi.

Bu gün qardaşım tut ağacından ötrü burnumun ucu göynəyir. Neçə vaxtdır mənim səsimə, nəfəsimə həsrətdir. Elə bilirəm nə vaxtsa ata ocağımıza dönəndə anamı o qumral tutun şirin meyvələrindən mürəbbə bişirən, bəhməz qaynadan, tut qurusu sərən görəcəyəm. Eh, bir də necə görəcəyəm Alagöz inəyimizin yelinindən anamın sərnic dolusu süd sağdığını?!



İndi qərib-qərib gözləri yol çəkən qardaşım tut ağacının budaqlarında quşlar oxuyur, hörümçəklər xalı toxuyur. Mənsiz qalan evimizə ruhlar keşik çəkər. Yollarım bağlıdır, hələ gedə bilmirəm. Bir onu bilirəm ki, dərin kökləri ilə torpaqdan möhkəm yapışan “əkiz qardaşım” hayqırıb deyir ki, bu evin yiyəsi bir gün gələcək, bu ev yiyəsiz deyil:

**Anadillər qanad gərib,**
**Elə oxuyur, oxuyur.**
**Evimizdə qərib-qərib**
**Ruhlar da cənnət qoxuyur...**

*Həzi HƏSƏNLİ,*
*şair- publisist*

## Soydaşımız Çində “İpək yolu dostluq elçisi” mükafatı aldı

**Çin Xalq Respublikasının Sincan Uyğur Muxtar Rayonunun (SUMR) Kuça şəhərində 4-cü “İpək yolu dostluq elçisi” mükafatlandırma mərasimi keçirilib.**

Çin Beynəlxalq Mədəniyyət Mübadiləsi Mərkəzinin və “Jenmin Jibao” qəzetinin təşkilatçılığı, SUMR yerli hökumətinin dəstəyi ilə keçirilən tədbirdə 15-dən çox ölkədən nümayəndə, dövlət və hökumət rəsmiləri, elm adamları və mədəniyyət xadimləri iştirak edib. Mərasimdə İpək yolu ölkələri arasında sülh, əməkdaşlıq və xalqlar arasında qarşılıqlı anlaşma ideallarına töhfə verən 10 nəfər və bir təşkilata “İpək yolu dostluq elçisi” mükafatı təqdim olunub. Onlar arasında Çində yaşayan həmvətənimiz Asəf Tağıyev də olub.



Mərasimdə çıxış edən A.Tağıyev Azərbaycanın tarixi İpək yolundakı strateji rolunu vurğulayıb, ölkəmizin Şərqlə Qərb arasında körpü funksiyasını əsrlər boyu uğurla yerinə yetirdiyini xatırladıb. Bildirib ki, Azərbaycanın Bakı, Şamaxı, Gəncə və Naxçıvan kimi tarixi şəhərləri İpək yolu üzərində mühüm ticarət və mədəniyyət mərkəzləri olub.

*XQ*

- ✓ ***Rzayeva İrana Nazifovnaya məxsus “AUDİ A8 MİNİK” markalı “90 RY 579” dövlət nömrə nişanlı nəqliyyat vasitəsinin AD seriyalı , 874744 nömrəli qeydiyyat şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.***
- ✓ ***Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən Maqsudova Afaq İbrahim qızının adına verilmiş xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.***
- ✓ ***“Qız Qalası” MTK ilə Nərimanov rayonu, A.Bakıxanov küçəsi 758-759-cu məhəllə, 3-cü bina, 163 nömrəli mənzildə yaşayan Kazımov Temirxan Daşdəmir oğlu arasında bağlanmış müqavilə itdiyi üçün etibarsız sayılır.***

**Hava**

## Dəyişkən buludlu və yağmursuz...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən mətbuata verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə zəif duman olacaq. Şimal-qərb küləyi əsəcək, səhər cənub-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 20-22, gündüz 27-32 dərəcə isti olacaq. Atmosfer təzyiqi normadan aşağı – 755 millimetr civə sütunu, nisbi rütubət gecə 70-75, gündüz 35-40 faiz təşkil edəcək.**

Azərbaycanın əksər rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gündüz bəzi dağlıq və dağətəyi rayonlarda qısamüddətli yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 17-22, gündüz 31-36, dağlarda gecə 8-13, gündüz 15-20 dərəcə isti təşkil edəcək.



*Q.QASIMOV*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

“Xalq qəzeti”nin kollektivi iş yoldaşları Mirbağır Yaqubzadəyə bacısı

**MİRAYƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının Belarus Respublikasında fövqəladə və səlahiyyətli səfiri Məhərrəm Əliyev və Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı Adil Əliyev Azərbaycan Respublikası Hesablama Palatasanın sədri Vüqar Gülməmmədova atası

**TAPDIQ GÜLMƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli Azərbaycan Respublikası Hesablama Palatasının sədri Vüqar Gülməmmədova atası

**TAPDIQ GÜLMƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Tahir Aydınoğlu, Namiq Qədimoğlu, İsrafil Qurbanov, Əli Şamil və Qənimət Səfərov yaxın dostları, Seçenov adına I Moskva Dövlət Tibb Universitetinin professoru Abdulla Abdullayevə qaynanası

**NOVBAHAR XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

“Azərişıq” ASC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Hesablama Palatasının sədri Vüqar Gülməmmədova atası

**TAPDIQ GÜLMƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ağsu rayonundan Rövşən Bağırov Hesablama Palatasının sədri Vüqar Gülməmmədova atası

**TAPDIQ GÜLMƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov Azərbaycan Respublikası Hesablama Palatasının sədri Vüqar Gülməmmədova atası

**TAPDIQ GÜLMƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Rəssamlıq Akademiyasının rəhbərliyi və kollektivi sənətşünaslıq üzrə fəlsəfə doktoru, bədii toxuculuq və xalça sənəti kafedrasının professoru

**TAMİLLA MƏMMƏDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Validə Məmmədova tanınmış rəssam, pedaqoq və professor

**TAMİLLA MƏMMƏDOVANIN**

vəfatından kədərləndiyini bildirir, Arzu və Aliyə Əzimovalara dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3696
SİFARİŞ 1201
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV
Çapa imzalanmışdır 00:00